# KİTABXANAŞŰNASLIQ VƏ BİBLİOQRAFİYA

№ 2 ‘ 2001

**BAKI –2001**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Elmi-nəzəri və təcrübi jurnal**

№2 ' 2001

1997-ci ilin
oktyabrından çıxır

**№ 2 (9)**

BAKI – 2001

**Təsisçi və**
**baş redaktor:**
***Dosent Xəlil İSMAYILOV***

**Məsul redaktor:**
***Baş müəllim Knyaz ASLAN***

## REDAKSİYA HEYƏTİ:

*Professor Abuzər Xələfov*
*Professor Zöhrab Əliyev*
*Professor Bayram ALLAHVERDİYEV*
*Dosent Əşrəf XƏLƏFOV*
*Dosent Rasim KAZIMOV*
*Dosent Nadir İSMAYILOV*

*K 73 Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal: - B.: Bakı Universiteti Nəşriyyatı, 2001. -№2. –142 s.*

*Redaksiyanın ünvanı: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23,*
*2 №-li tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi,*
*"Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası.*
*Telefonlar: 39-05-47; 39-03-66.*

© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2001.

## KİTABXANAŞÜNASLIQ

***А.А.Халафов.*** Библиотечное дело в Азербайджанской Республике (исторический оброз)

***Xəlil İsmayılov.*** Kitabxana işinin metodik təminat sisteminin yeniləşməsi və təkmilləşdirilməsi istiqamətləri

***Tacəddin Quliyev***. Azərbaycan həmkarlar ittifaqı kitabxanaları 1981-1985-ci illərdə

***Rasim Kazımov.*** Kitabxanalarda əmək məhsuldarlığı

***Əli Rüstəmov.*** "İnformatikanın sahəvi strukturu və Kitabxanaşünaslıq elmləri ilə qarşılıqlı əlaqələrinin bəzi məsələləri

***Aşur Əliyev.*** Kitabxana fondunun formalaşmasının yeni prinsipləri və onlara müasir baxışlar

***Akif Cəfərov.*** *Kəndli-fetmer* təsərrüfatı işçilərinə kitabxanaxidmətinin təşkili məsələləri

***Knyaz Aslan***. Bədii ədəbiyyatın təbliğində tövsiyə biblioqrafik və metodik vəsaitlər sisteminin rolu

***Sənubər Mustafayeva, Səfurə Hacıyeva.*** Dissertasiyaların təsviri

***Ulduz Hacıyeva.*** Respublika Elmi Texniki Kitabxanası fondunun inkişafı

***Hicran İsmayılova.*** Azərbaycanda tibb kitabxanalarının tarixinə dair

## BİBlİOQRAFİYAŞÜNASLIQ

***Əşrəf Xələfov.*** Azərbaycan ədəbi tövsiyə biblioqrafiyası informasiya məkanında

***Qəmzə Hacıyeva***. *İ*nformasiyalaşdırılmış cəmiyyətdə diyarşünaslıq biblioqrafiyasının yeri

***Arzu Vəliyeva***. Kitabxanaların çap kataloqları biblioqrafik ehtiyatın əsas tərkib hissəsi kimi

KİTABŞÜNASLIQ

***Ramiz Həmidov.*** Azərbaycanın kənd yerlərində kitab ticarəti işi

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

***Xəlil İsmayilov, Əli yusif Məmmədov.*** Azərbaycanın kitabxana mütəxəssisləri İFLA-nın konfransında

**Абузар ХАЛАФОВ**
*Зав. кафедрой библиотековедения Бакинского государственного университета, доктор исторических наук, профессор, действительный член Международной Академии Информатизации при ООН*

# БИБЛИОТЕЧНОЕ ДЕЛО В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## (исторический обзор)

Азербайджанский народ имеет древнюю историю в области книжного и библиотечного дела. Как показывают последние исследования в области истории культуры, именно Шумеры являются родоначальниками письменности, книжного и библиотечного дела в мире. Географическая близость ранних азербайджанских государств (Аратты – III в.д.э., Луллумбум XIII в.д.э., Кутиу III в.д.э. и Манны I в.д.э.) способствовали появлению в древнем Азербайджане первых книг и библиотек.

Начиная с IV в.д.н.э. в древних азербайджанских государствах Албании, Атропатене, Малой Мидии появлялись книги и библиотеки. Свидетельством развития культуры, и в том числе книжной, в древней Мидии является появление в этой стране выдающегося исторического памятника древней художественной культуры – «Авесты». Священная книга «Авеста» была не только воплощением Зороастризма, являющегося основной религией живших на территории древнего Азербайджана, но и подлинной энциклопедией той эпохи.

Создание в V веке в Албании алфавита из 52-х букв привело к резкому увеличению в древнем Азербайджане книг, школ и библиотек.

В многочисленных источниках по истории Албании имеются упоминания о развитии книжной культуры, о появлении в этой стране "Иллиады" Гомера, "Энеида" Вергилия и др.

Выдающимся памятником древней Азербайджанской книжной культуры является появившаяся в VII веке Книга – «Деде Коргуд», которая в течение 1300 лет служит важнейшим источником для изучения истории и культуры народа, многочисленные экземпляры которой имеются во многих крупных библиотеках мира.

Начиная с VII века после присоединения Азербайджана к арабскому халифату, с целью пропаганды Ислама появляются многочисленные мечети, медресе с библиотеками религиозной литературы, которые выполняли функции центров исламской идеологии. Первые библиотеки в мечетях были созданы в таких городах Азербайджана, как Барда, Гянджа, Нахичевань, Шемаха, Бейлаган, Ардебиль, Тебриз, Марага, Урмия и т.д.

Для средневекового Азербайджана характерны следующие типы библиотек: а) дворцовые, б) религиозные при мечетях, школах и медресе, в) научные библиотеки и личные библиотеки.

Дворцовые библиотеки создавались при дворцах шахов и других правителей и управлялись непосредственно первыми лицами государства. Создание дворцовых библиотек правителей было традицией и эти библиотеки как правило размещались в красивых и специально построенных зданиях. В них сосредочивались ценные книги своего времени, которые привозились из разных стран. Эти библиотеки демонстрировались зарубежным гостям. В них собирались как приобретенная литература, так и трофейная, захваченная в результате войн. При дворцовых библиотеках функционировали специальные отделы по переписке и изготовлению книг. Ученые, религиозные деятели, поэты, зарубежные гости считали своим долгом преподнести правителям ценные книги, которые затем хранились в дворцовых библиотеках. При дворцовых билиотеках средневекового Азербайджана образовались школы художественного оформления манускриптов и миниатюрной живописи.



Дворцовыми билиотеками как правило руководили выдающиеся ученые, поэты своего времени. В них работалы известные люди, деятели науки, художники.

Дворцовые библиотеки средневекового Азербайджана были созданы в Гяндже (XI – XII в.), Тебризе ( XIV – XVI вв.) и т.д. Исторические источники свидетельствуют о наличии в XI – XII вв. в Гяндже крупной дворцовой библиотеки. В произведениях великого азербайджанского поэта Низами Гянджеви имеются неоднократные упоминания о крупных книгохранилищах Гянджи, которыми пользовался поэт.

Среди них Дворцовая библиотека Ширваншахов, которая обладала богатейшим фондом научной и религиозной литературы. В ней хранились также указы Шаха, другие государственные документы.

Библиотекой руководилю правление, состоящее из видных ученых и поэтов своего времени. При ней функционировал «Меджлис поэтов», куда входили Абул-ула Гянджеви, Хагани, Фелеки, Изеддин Ширвани и др. деятели науки и культуры того врмени.

В XIII веке во время правления Тебризом Газан хана были осуществлены крупные реформы в области культурного развития, созданы крупные библиотеки и, в том числе, богатая дворцовая библиотека выполнявшая функции государственной библиотеки. В ней наряду с книгами хранились также государственные указы, дипломатическая переписка и другие официальные материалы.

Наряду с государственной дворцовой библиотекой в местности Шенби-Газан вблизи Тебриза функционировали еще две крупные библиотеки национального значения «Бейтул-кутуб» («Дом книги») и «Бейтул–ганун» («Дом закона»), которые имели богатейшие фонды рукописей.

В XIV-XVI веках во время правления в Азербайджане династий Аггоюнлулар, Гарагоюнлулар и Сефевидов были продолжены традиции создания дворцовых библиотек, выполнявших функции государственных библиотек. В этот период широкое развитие получает книжное дело, приобретение книг из других государств, переписка и художественное оформление рукописей, создание библиотек. Основатель династии Аггоюнлулар Узун Гасан, превратив г. Тебриз в столицу Азер-

байджана, учредил во дворце крупную государственную библиотеку. Вокруг библиотеки собрались все известные деятели науки, поэты, философы, художники. Имеются сведения о наличии в библиотеке 58 сотрудников, и о выделении государством крупных средств на приобретение литературы и поддержания библиотеки.

Особое место среди дворцовых библиотек средневекового Азербайджана занимает созданная в начале XV1 века основателем Сефевидского государства Шах Всмаил Хатаи (1502 – 1524) библиотека при его Тебризском дворце.

Насчитывающая десятки тысячи томов, эта библиотека была богата рукописями великих писателей Востока: Низами, Фирдоуси, Саади, Тебризи. Для библиотеки были выделены лучшие помещения при дворце, которые демонстрировались гостям. В ней была создана крупная мастерская по художественному оформлению книг и их переплету. Вокруг библиотеки были сосредоточены известные деятели науки, культуры, художники, поэты. Весьма примечательно, что во время правления в Азербайджане Шаха Исмаила Хатаи библиотечному делу придавалось государственное значение. В 1522 году Шах Исмаилом был издан Указ по библиотечному делу. Согласно указу руководителем дворцовой библиотеки был Кемаледдин Бехзад, определены фукнции библиотек и его сотрудников.

Как было отмечено нами выше, начиная с VII века в Азербайджане в результате арабского нашествия быстро развивается сеть религиозных библиотек, с целью пропаганды учения Ислама. Эта выражалась, прежде всего, в расширении строительства мечетей (домов бога), при которых создавались религиозные книги, библиотеки. В дальнейшем в управленческий персонал мечетей входили также «книжники», т.е. библиотекари. В VII – XII веках крупные библиотеки при мечетях возникают в таких городах как Барда, Гянджа, Баку, Нахичевань, Тебриз, Ардебиль, Шемаха и др. К религиозным библиотекам Азербайджана можно отнести также библиотеки при медресе и духовных учебных заведениях, которые были широко распространены в Азербайджане с XII по XVIII век.

Наиболее крупной религиозной библиотекой средневекового Азербайджана явилась библиотека мавзолея Шейх Сафи,



потроенная Шах Исмаилом Хатаи в Ардебиле. Эта знаменитая на всем Восточном мире библиотека функционировала в течение 300 лет и систематически пополнялась редчайшими книгами не только религиозного содержания. Многие путешественники, в том числе посетивший г. Ардебиль в 1812 году Адам Олеари – посланник Герцега Голштейна и Дж. Мориер, отмечали наличие в библиотеке ценнейших рукописей на многих языках.

В 1828 году после вхождения русской армии в г.Ардебиль, по указанию А. С. Грибоедова книги этой библиотеки были отправлены в Петербургскую императорскую библиотеку (ныне национальная библиотека России).

Для средневекового Азербайджана характерно также формирование и развитие научных библиотек. Наиболее крупной из них стала библиотека созданная в середине XIII в. великим астрономом, математиком Насиреддин Туси при Марагинской обсерватории. Н. Туси – основатель Марагинской обсерватории, организовал при обсерватории уникальную научную библиотеку, насчитывающую, согласно многим историческим документам 400 тыс. книг и других материалов. Книги для этой библиотеки, находящейся в специально построенном для нее помещении, закупались из многих стран Ближнего и Среднего Востока.

Другой крупной научной библиотекой была научная библиотека Тебризского университета построенная в 1300 году, в котором обучались до 7 тыс. человек из многих восточных стран. Университет находился в местечке «Раби-Рашиди» близ Тебриза. Здесь же находилась другая универсальная научная библиотека насчитывающая в своих фондах 60 тыс. рукописей.

К числу библиотек, широко распространенных в средневековом Азербайджане, можно отнести и личные библиотеки.

Имеются достоверные сведения о наличии крупных личных книжных собраний у таких корифеев средневековой азербайджанской науки и культуры, как Низами, Хагани, Бахманяра, Хатиб Тебризи, Абул Вафа, Гетран Тебризи, Абулула Гянджеви и др.

С 20-х годов XIX века после присоединения Северного Азербайджана к России начинается новый этап развития культуры и просвещения Азербайджана.

В этот период под влиянием русской культуры в Азербайджане открываются новые типы школ, библиотек. Развивается книжное дело.

По неполным данным, в 1842 году в Азербайджане имелись 713 школ и медресе, в которых обучались 7306 учащихся. Они были созданы в Баку, Шемахе, Гяндже, Нахичевани, Шеки, Ленкорани, Ордубаде, Газахе и др. городах. Большинство из них имели небольшие библиотеки учебной литературы. К сожалению, эти библиотеки не были объектом официальной статистики и поэтому уточнить их точное количество, объем фондов и т.д. не представляется возможным.

Начиная с 40-х годов в Азербайджане заметно расширяется количество лиц и, прежде всего, представителей интеллигенции, имеющих свои богатые личные библиотеки.

К числу их следует отнести выдающего ученого-историка А.А. Бакиханова, философа, просветителя и писателя М. Ф. Ахундова.

А. А. Бакиханов имел богатейшую коллекцию востоковедческой литературы и рукописей. Эта коллекция привлекала внимание многих русских ученых, в частности И. Березина. После смерти А. Бакиханова было немало попыток со стороны официальных лиц и ученых приобрести эту библиотеку. В 50-х годах эта библиотека была передана вдовой ученого в Петербургский университет.

Внушительную по объему личную библиотеку имел выдающийся философ и писатель Азербайджана II половины XIX века Мирза Фатали Ахундов. Здесь имелись редчайшие издания европейских и восточных философов, поэтов и пистелей. К сожалению эта библиотека до наших дней дошла не полностью.

Вторая половина XIX века для Азербайджана характеризуется появлением общедоступных общественных библиотек и читален. Такие библиотеки были созданы в Шемахе, Шуше, Гяндже, Баку, Ленкорани, Нахичевани.

Заметным явлением в культурной жизни Баку было создание в 1894 году видным государственным и общественным деятелем, писателем Нариман Наримановым в Баку общественной библиотеки-читальни. Библиотека в кратчайшие сроки, установив связи с Индией, Египтом, Болгарией, Турцией, Ираном и Россией, стала получать из этих стран новейшие газеты, журналы, сборники и другие издания на русском, армянском, грузинском, персидском, тюркском и др. языках. В общей сложности в библиотеку поступало 30 названий только газет. В 1896 году в билиотеке были зарегистрированы более 2500 читателей. Вокруг библиотеки собрались передовые представители интеллигенции, студенческой молодежи. Она вела интересную массово-политическую работу. Библиотека была закрыта царской цензурой в 1898 году.

Конец XIX века в Баку сопровождался открытием бибилотек для инженерно-технических работников и рабочих нефтяной промышленности. Первая такая библиотека была окрыта в местечке именуемой Черный город и носила имя его создателя А.С.Дорошенко. В 1900 году библиотекой пользовались 304 читателя, из которых примерно 20% составляли рабочие. В библиотеке наряду с технической литературой имелись также произведения русской и мировой классики.

В конце XIX и начале XX века в Баку открываются немало библиотек, принадлежащих различным общественным компаниям. Одной из таких был съезд совета нефтепромышленников, который за короткий срок создал библиотеки для рабочих нефтепромыслов Балаханы, Черного города, Белого города, Баилова и др. местностей вокруг Баку. Фонды этих библиотек развивлись довольно быстро. Если в 1910 году общий объем их книжного фонда насчитывал 15 тыс. 773 экземпляра, то в 1915 году он достиг 27.444 экземпляра. По сравнению с 1910 годом количество читателей пользующихся этими библиотеками, в 1914 году вырос в 3 раза.

Съезд нефтепромышленников открывал и школьные библиотеки для детей рабочих, систематически закупал для них книги. Только в 1911 году для этих библиотек было приобретено 21 тыс. экз. книг учебного характера. В 1915 году в школьных библиотеках съезда нефтепромышленников имелись 1002 названий книг только на азербайджанском языке.

В 1906 году в Баку создается благотворительное общество «Книга-просвещение». В дальнейшем это общество функционировало под названием «Ниджат» («Спасение»). При обществе с 1906 года начала функционировать одноименная читальня. В печати того времени отмечалось, что данная читальня была

самой большой читальней в мусульманском мире. В ней имелось 10 тыс. книг, большое количество периодических изданий из России, Турции, Ирана и других стран.

В начале XX веке в Баку появилась специализированная библиотека Земского упавления и библиотека Городской управы, которой было присвоено имя В.Г. Белинского. Последняя в 1917 году начитывала 12 тыс. книг и обслуживала также детей чиновников. С 1920 года она функционировала как «Советская библиотека». В эти годы в сельских районах и населенных пунктах зарождаются общедоступные библиотеки и читальни многие из которых (в Сальяне, Ордубаде, Гяндже, Шеки, Кахе, Загатала, Шемахе) просуществовали до 1920 года.

Образование в 1918 году первой Демократической Республики в Азербайджане открыло широкие возможности для развития культуры и просвещения народа. За 23 месяца своего существования Демократическая Республика успела осуществить немало мероприятий для расширения сети учебных заведений и М. А. Сабира и библиотека Бакинского государственного университета, созданная в 1919 году.

После установления Советской власти в Азербайджана в апреле 1920 года большинство библиотек были национализированы.

Взгляд на историю культуры Азербайджана до 1920 года позволяет говорить о том, что Азербайджан представлял из себя страну с высокоразвитой системой просвещения, сетью учебных заведений и библиотек. К сожалению, советская статистика целенаправленно искажала эти факты и представляла Азербайджана как страну, где господствовало невежество и безгра-мотность. К примеру, советская статистика утверждала, что в 1913 году в Азербайджане было всего 25 библиотек с общим книжным фондом 18 тыс. единиц. Между тем имеются достоверные факты о наличии только в системе народного образования Баку 38 библиотек с книжным фондом 226.960 экземпляров печатных единиц.

В 1920 году в Азербайджане имелось 965 школьных библиотек с учетом духовных заведений. В этом году только в Баку и его окрестностях имелось более 50 общественных библиотек, а в сельских районах более 100.



После советизации в соответствии с декретом Азревкома 1920 года все книжные склады, магазины и библиотеки были переданы в ведение Наркомата Народного просвещения республики.

Необходимо отметить, что после установления Советской власти в кратчайшие сроки была переделана большая работа по расширению сети библиотек. Только за один год после советизации, в Азербайджане было вновь создано 45 массовых библиотек, с общим книжным фондом 234.218 экземпляров книг и другой печатной продукции.

В 1920-1925 годах были организованы Республикаснкий библиотечный коллектор (1923), Государственная библиотека (1923), Республиканская книжная палата (1925). Одновременно создавались библиотеки других систем и ведомств. К 1926 году в Азербайджане имелось уже 108 библиотек, с общим книжным фондом 905.100 экз. печатных единиц.

В 20-30-е годы в обслуживании сельского населения Азербайджана особая роль принадлежала избам-читальням. В 1932 году их общее количество составляло 608.

В 1934 году в связи с Всесоюзной переписью библиотек в Азербайджане было установлено 2.037 библиотек, из которых: 788 – в городах, 1249 в сельской местности. Общий книжный фонд библиотек насчитывал 4.485.907 экз. книг.

30-е годы в республике значительное внимание уделялось развитию сети детских и школьных библиотек. К 1940 году в Азербайджане имелось 2.480 школьных и детских библиотек, с общим книжным фондом 1.367.321 экз. печатной продукции. В эти же годы в республике интенсивно развивалась сеть научных, технических и специальных библиотек. В 1934 году их общее количество составляло 537 с книжным фондом 1.662.572 экз. печатных единиц.

Таким образом, к началу Великой отечественной войны Азербайджанская республика представляла из себя страну с широко развитой библиотечной сетью. В эту сеть входило: 1.383 массовых библиотек с общим книжным фондом 2.612 тыс. книг; 50 самостоятельных детских и 2480 школьных библиотек с общим книжным фондом 1.367.321 экз. книг; 127 профсоюзных библиотек с общим книжным фондом 845.918 экз. книг; 263 научных, научно-технических и специальных библиотек. В

целом в 1940 году в Азербайджане функционировало 4.282 библиотек.

В годы Великой отечественной войны деятельность библиотек республики была перестроена в соответствиии с задачами фронта и тыла. В 1941-1943 годах имело место сокращение количества, прежде всего массовых библиотек от 1383 в 1940 году до 575 в 1943-м. Однако в 1943 году процесс сокращения массовых библиотек был преостановлен и начался восстановительный процесс. К 1945 году в республике уже насчитывалось 765 массовых библиотек с общим книжным фондом 2.828.49 экз.книг.

Несмотря на сложные условия военного времени библиотеки Азербайджана в годы войны оказывали посыльную помощь фронту, направляя литературу в армию, осуществляя пропагандисткую работы в тылу и особенно в военных госпиталях.

В первые послевоенные годы в Азербайджане удалось полностью восстановить библиотечную сеть, создать организационную и материально-техническую базу для дальнейшего развития библиотечного дела. Плодотворную работу в этом сыграл созданный в 1945 году Комитет по делам культурно-просветительной работы при Совете Министров республики.

Достаточно отметить, что за 1946-1951 гг. в республике количество массовых библиотек выросло с 765 до 2.452. Таким образом за 5 послевоенных лет было вновь открыто 1728 новых библиотек. Фонды библиотек за это же время выросли с 996 тыс. до 2.911.220 экземпляров. Кроме того, за первую послевоенную пятилетку количество профсоюзных библиотек увеличилась на 50, а научных на 20 библиотек. Впервые в районых центрах началось строительство библиотечных зданий по типовым проектам.

Важнейшим событием в послевоенный период развития библиотечного дела в Азербайджане стало начало подготовки в республике библиотечных кадров высшей квалификации. Так в 1947 году при филологическом факультете Бакинского государственно университета было открыто библиотечное отделение. Кроме того, образование в 1945 году Республиканской Академии наук с многочисленными научными учреждениями привело к формированию сети академических



библиотек. В эти же годы значительно расширился объем научно-методических работ, выполняемых Республиканской библиотекой и головными библиотеками отраслевых сетей.

В 50-х годах важнейшей задачей было расширение сети библиотек, обслуживающих сельское население. Исключительную роль в этом процессе сыграло вновь созданное Министерство культуры республики. За период с 1950-го по 1955 год вновь было открыто 104 библиотеки в сельских местностях. За это же время фонды государтвенных библиотек увеличились на 5.811.100 тыс. экземпляров. Все это привело к росту читателей и книговыдачи. Так, в 1955 году по сравнению с 1950 годом количество читателей увеличилось на 152 тыс. 600 человек, а книговыдача на 2.981.700 тыс. экз.

К концу 1958 года в республике имелось всего 5.776 библиотек, с общим книжным фондом более 20 млн. экземпляров книг. Из них 2.583 составляли только массовые библиотеки. Наиболее крупная сеть массовых библиотек, состоящая из 1.115 библиотек с общим книжным фондом 7.921.100 тыс. книг, находились при Министерстве культуры. Кроме того, в системе профсоюзов функционировали 157 массовых библиотек с книжным фондом 222.900 тыс. книг, 492 массовые библиотеки с общим книжным фондом около одного миллиона книг функционировали при колхозах республики.

Научных, научно-технических и различных специальных библиотек в Азербайджане к 1958 году было 149. В системе образования функционировали 56 библиотек высших и среднеспециальных учебных заведений, 2.667 библиотек общеобразовательных школ.

Выполнение известного постановления ЦК КПСС по библиотечному делу 1959 года привело к дальнейшему развитию сети и укреплению материально-технической базы библиотек Азербайджана в 60-х годах, способствовало качественному улучшению содержания библиотечного обслуживания населения. За период с 1959-го по 1965 год в республике было выделено более 5 миллионов асигнований на строительство новых объектов культурно-просветительной работы. За это время в 45 районах было построено 78 зданий для библиотек, на 70 единиц увеличилась сеть городских библиотек. К сожалению, в 60-е годы в библиотечной политике имели место и

существенные недостатки. В результате необдуманной компании республика фактически потеряла 514 сельских библиотек. Однако, в целом 60-е годы были периодом развития всех основных показателей библиотечного дела в Азербайджане.

Важным этапом в библиотечном строительстве в Азербайджане стали 70-80-е годы. В 70-х годах была осуществлена централизация массовых библиотек, которая была завершена к началу 80-х годов. Централизация позволила решить многие нерешенные проблемы библиотечного обслуживания населения: формирование единых фондов, совершенствование справочно-информационного обслуживания читателей, создание депозитарных фондов, улучшение научно-исследовательской и организационной методической работы, координация деятельности библиотек и т.д.

В результате централизации в республике были созданы 69 районных ЦБС, включивших в себя 3174 филиала и 69 городских ЦБС с 111 филиалами.

Централизация не замедлила продемонстрировать свои преимущества перед традиционной системой организации библиотечного обслуживания населения. В результате централизации за первые пять лет общий объем единого фонда увеличился на 9 млн. экземпляров, книговыдача – на 5 млн. экземпляров, количество читателей на 510 тыс. человек. В процессе централизации было создано 332 новые библиотеки-филиалы.

В 80-х годах в результате развития библиотечного дела библиотечная книга полностью вошла в быт населения. Библиотеки начали формироваться как центры информации массового читателя, оптимизировались количественные и качественные показатели всей системы бибилиотечного обслуживания населения.

В конце 80-х годов в Азербайджане насчитывалось 9.548 библиотек всех систем, с общим книжным фондом около 115 миллионов книг. В их числе 4.293 массовых библиотек с книжным фондом 404 тыс. книг. Количество читателей, пользующие массовыми библиотеками, составляло в 1986 году 3,3 тыс. человек, против 2,7 в 1980 году.

Позитивные перемены в показателях по обслуживанию читателей были особенно заметны в системе библиотек Минкультуры Азербайджана.



В 1988 году в этой системе функционировали 3.942 библиотек, против 3.895 в 1986 году. Фонды этих библиотек составляли 32.774.1 тыс. экз.

70-80-е годы характеризуются также развитием всех показателей деятельности научных, технических специальных библиотек, и библиотек системы образования. Среди этих библиотек Республиканская Государственная Библиотека, библиотека системы АН, библиотеки вузов, отраслевые библиотеки.

Таким образом, к концу 80-х годов Азербайджан представлял из себя республику с широко развитой библиотечной системой. В эту систему входили государственные библиотеки, библиотеки министерств и ведомств, общественных организаций. По своему характеру это были универсальные, универсально-научные, универсально-массовые, специальные научно-технические, учебных заведений и др. библиотеки. Библиотеки несмотря на определенные недостатки и трудности, в целом были окружены государственной заботой. Успешно развивались теоретические и методические основы библиотечной деятельности.

К началу 1990-х годов в республике насчитывалось около 10 тыс. библиотек, с книжным фондом более 118 млн. экз., которые обслуживали 4 млн. читателей.

Из года в год улучшалась подготовка библиотечных кадров в культпросвет училище, созданном еще в 1938 году, и библиотечный факультет Бакинского Университета. Только библиотечным факультетом университета были подготовлены свыше 5 тыс. специалистов высшей библиотечной квалификации. Заметные успехи были достигнуты в деле подготовки научно-педагогических кадров, из года в год рос объем монографий, научных книг, учебных материалов, статей по проблемам библиотековедения, библиографии, информатики и книговедения.

В настоящее время только при библиотечном факультете успешно сотрудничают 2 доктора наук, профессора, 1 кандидат наук, профессор, 16 кандидатов наук, доцентов по специальности библиотековедение и библиографоведение, книговедение.

В 1991 году Азербайджан приобрел государственный суверенитет и независимость. Это положило начало созданию

Азербайджанского демократического, правового государства, осуществлению прогрессивных реформ во всех областях экономики, культуры, образования и идеологии, с учетом исторических и национальных традиций, опираясь на общечеловеческие ценности. Начаты и прогрессивные реформы в области библиотечного дела. К сожалению, осуществлению демократических изменений, социально-экономических реформ существенный ущерб нанесла агрессия со стороны Армянской Республики, начатая еще в 1988 году в результате территориальных притязаний к Азербайджану. В результате оккупаций азербайджанских районов уничтожено около 1 тыс. библиотек и более 2-х млн. книг. Несмотря на сложные условия войны и материальные трудности в конце 90-х годов удалось приостановить дальнейший процесс уменьшения библиотек, стабилизировать их работу и финансирование.

В 1999 году Национальный Меджлис Азербайджана принял «Закон Азербайджанской Республики о библиотечном деле». Закон предусматривает развитие библиотечного дела в республике в соответствии с мировыми стандартами, осуществление государственных программ в области библиотечного строительства, организацию библиотечного обслуживания на основе общепринятых демократических принципов. В настоящее время все основные положения Закона постепенно претворяются в жизнь.

***ЛИТЕРАТУРА***


1. *История Азербайджана. – Баку, 1996, 870 с.*
2. *Халафов А. А. Из истории библиотек в Азербайджане (1870-1920). Баку, 1960, 96 с.*
3. *Халафов А.А. Из истории библиотек в Советском Азербайджане (1920-1932), Баку, 1960, 188 с.*
4. *Халафов А. А. История библиотечного дела в Азербайджане, Баку, 1974, 244с.*
5. *Халафов А. А. Из истории библиотек Азербайджана (с древних времен до конца XVIII в.). Баку, 1986, 52 с.*
6. *Халафов А.А. Введение в курс истории библиотечного дела. Баку, 1996, 36с.*
7. *Халафов А.А. Высшее библиотечное образование в Азербайджане. Баку, 1996, 126 с.*
8. *Халафов А.А. Введение в библиотековедение: (Учебник). Баку, 2001, 480 с.*

*Xəlil İSMAYILOV*
*Pedaqoji elmlər namizədi, dosent*

# KİTABXANA İŞİNİN METODİK TƏMİNAT SİSTEMİNİN YENİLƏŞDİRİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin yenidən bərpası xalqımızın tarixində çox mühüm hadisə oldu. Bir sıra çətinliklərə baxmayaraq, müstəqillik, Azərbaycanın sosial-iqtisadi tərəqqisi, əhalinin mədəni-mənəvi və intellektual inkişafı üçün geniş imkanlar açmaqdadır. Artıq ölkəmizdə demokratik proseslərin dərinləşməsi, hüquqi dövlət qurmaq istiqamətində həyata keçirilən tədbirlər müasir dövrün reallıqlarıdır.

Belə tədbirlər sistemində xalqın mədəni və intellektual səviyyəsinin durmadan yüksəldilməsi, cəmiyyətin informasiyalaşdırılması müasir dövrün ən aktual problemlərindəndir. Bu problemlərin həlli üçün digər sosial qurumlarla yanaşı, kitabxanaların da qarşısında çox mühüm və keyfiyyətcə yeni vəzifələr durur. Bu vəzifələr ilk növbədə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilən «Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək» (maddə 40) və «Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq» (maddə 50) (2) hüquqları və azadlıqlarının təmin edilməsində kitabxanaların rolu və əhəmiyyəti müəyyənləşdirilir.

Kitabxanalara verilən mühüm sosial tələblər 1998-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş «Kitabxana işi

haqqında Azərbaycan Respublikasının Qanunu»nda (1) da öz əksini tapmışdır. Qanunda göstərilir ki, cəmiyyətdə «kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir» (1).

İnkaredilməz faktdır ki, metodik fəaliyyət XX əsrdə ölkədə kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin formalaşıb təşəkkül tapmasına olduqca səmərəli təsir göstərmişdir. Bu fəaliyyət cəmiyyətdə kitabxana işi sahəsindəki nailiyyətlərin əldə edilməsinin, möhkəmlənməsinin, təbliğinin və daha da inkişaf etdirilməsinin elmi-nəzəri və təşkilati əsaslarını yaratmışdır. Eyni zamanda kitabxanaların metodik təminat sistemi sovet hakimiyyəti illərində digər sosial humanitar sahələr kimi totalitar rejimdən doğan iş üsullarına, partiyalılıq, sinfilik prinsiplərinə əsaslanaraq inzibati-amirlik metodlarının tətbiqinə üstünlük vermişdir. Hazırda dünya informasiya məkanında baş verən məzmun, texnoloji keyfiyyət və kəmiyyət dəyişilmələri ilə əlaqədar kitabxanaların daha çox sosial kommunikasiya sisteminə meyl etməsi, kitabxanaçılıq fəaliyyətində müasir texnologiyaya əsaslanan informasiya funksiyalarının güclənməsi metodik təminatın məzmununu xeyli zənginləşdirmiş və mürəkkəbləşdirmişdir. Ona görə də «Kitabxanaların metodik təminat sistemi necə olmalıdır?» sualı son illər kitabxana ictimaiyyətini yenidən düşündürməyə başlamışdır.

Hələ 80-ci illərin sonundan başlayaraq SSRİ-nin mərkəzi kitabxanaçılıq mətbuatı səhifələrində, sonralar bir sıra dövri mətbuat orqanlarında kitabxanaçılıq sahəsində metodik fəaliyyətin yeni tələblər baxımından vəzifələri haqqında müzakirələr aparılmış, müxtəlif fikir və rəylər söylənilmişdir. Bu cür fikirlər yenə də səslənməkdədir. (3; 4; 6; 9; 15; 18; 19; 20)

Kitabxanaların metodik təminatının yeniləşməsi probleminə dair son illər irəli sürülən konseptual mülahizələrdə metodik fəaliyyətin mahiyyəti, məzmunu, metodları, metodistin hüquq və vəzifələri, statusu, dünyagörüşü, mühüm peşə xüsusiyyətləri və s. məsələlər ətrafında tez-tez bir-birinə tamamilə zidd fikirlər, bəzi hallarda isə metodik fəaliyyətin bütövlükdə inkar edilməsi müddəalarına da rast gəlmək olur.



Müasir dövrdə bir cəhət tamamilə aydındır ki, kitabxanaların metodik təminatına bu vaxta qədər verilən tərif və qiymətlərlə hərəkət etmək, kifayətlənmək artıq mümkün deyildir. Bu fikri metodik işə dair indiyədək dərc edilmiş yazılardakı terminoloci qarışıqlıq bir daha sübut edir. Nəzəri ədəbiyyatda o, «metodik rəhbərlik», «metodik iş», «metodik xidmət», «metodik köməklik», «metodik fəaliyyət», «metodik təminat», və s. Anlayışlar kimi təqdim edilir ki, bu da bir daha kitabxanaların metodik təminat sisteminin mahiyyəti və məzmununa dair vahid konsepsiyanın olmamasını sübut edir.

Şübhəsiz ki, sovet recimi dövründə kitabxanaların metodik təminat sistemi daha çox «metodik rəhbərlik» mahiyyəti daşıyırdı. Çünki sovet şəraitində kitabxanalara metodik rəhbərlik sistemi kitabxanaları idarə edən dövlət inzibati amirlik sisteminin tərkib hissəsi kimi təzahür edirdi və onun əsas vəzifəsi kitabxanalarda partiya və dövlət orqanlarının qərarlarının həyata keçirilməsindən ibarət idi. Hələ 70-ci illərdə sovet kitabxanaşünaslığının tanınmış nümayəndələri «metodik köməyi kitabxanaçılıq işinə rəhbərliyin forması» kimi qiymətləndirirdilər. Kitabxana işinə rəhbərlik isə «partiya və hökumət direktivlərinin həyata keçirilməsi üçün, kitabxanaların oxucularla apardığı işin səviyyəsinin yüksəldilməsi üçün zəruri olan tədbirlərin birgə işlənib hazırlanması» kimi izah edilirdi.

Zənnimizcə, müasir dövrdə «kitabxana işinin metodik təinatı» termininin işlənməsi istər elmi, istərsə də təşkilati baxımdan bu fəaliyyətin mahiyyətini və sosial funksiyalarını düzgün müəyyənləşdirməyə imkan verir. «Metodik təminat» anlayışı ilk növbədə metodik mərkəzlərin fəaliyyətində rəhbərlik, göstəriş vermək, inzibatçılıq, nəsihət, məcburi əməletmə kimi anlayışların tətbiqini nəzərdə tutur. «Metodik təminat» anlayışı «hüquqi təminat», «informasiya təminatı» və s. anlayışları kimi demokratik xarakter daşıyaraq normativ hüquqi sənədlərə, cəmiyyətin inkişaf qanunauyğunluqlarına əsaslanır və kitabxana işində siyasi və ideoloji amilləri, eləcə də partiyalılıq və sinfilik amillərini rədd edir.

«Metodik təminat» anlayışı özündə eyni zamanda elmilik, informasiya, pedaqoci və maarifçilik funksiyalarını cəmləşdirir. «Metodik təminat» anlayışı həmçinin cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin obyektiv inkişaf meyllərinin öyrənilməsini, ümumiləşdirilməsini və kitabxana işinə tətbiq edilməsini nəzərdə tutur.

Nəhayət, «metodik təminat» anlayışının olduqca mühüm tərkib hissəsini digər təminat sistemlərində olduğu kimi təşkilatçılıq, mütərəqqi, demokratik idarəetmə metodları təşkil etməlidir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, «metodik təminat» termini bu fəaliyyətin mahiyyətini və müasir dövrdəki sosial funksiyalarını sistemli fəaliyyət kimi daha düzgün müəyyənləşdirmək üçün mühüm anlayış vasitəsi ola bilər.

Tədqiqatın əsas obyekti kimi Azərbaycan Respublikasının müasir mərhələsində cəmiyyətimizdə kitabxana işinin metodik təminatının inkişaf konsepsiyasının mühüm strateji problemlərini nəzərdən keçirək. Müvafiq prblemlərlə əlaqədar apardığımız tədqiqatlara əsaslanaraq demək olar ki, Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin optimallaşdırılmasının mühüm strateji istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1.Kitabxana işinin metodik təminat sistemində məqsədli proqramlaşdırma funksiyasının formalaşması.

2.Metodik təminat sisteminin kitabxanaşünaslıq elmi-tədqiqatları ilə əlaqələndirilməsi.

3.Metodik təminatın informasiya funksiyalarının inkişaf etdirilməsi.

4.Metodik təminat mərkəzlərinin kitabxana işi üzrə tədris və ixtisasartırma məktəblərinə çevrilməsi.

5.Metodik təminat sisteminin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi, daha optimal variantların tətbiqi, ölkədə kitabxana işinin metodik təminatının optimallaşdırılması ən mühüm proqramlaşdırma, ən perspektiv və səmərəli metod sayıla bilər. Bunu dünya kitabxanaçılıq təcrübəsi sübut edir.

Kitabxana işinə dair məqsədli proqramlaşdırma dedikdə, metodik mərkəzlərin ölkə, region, şəbəkə, şəbəkələrarası, MKS və ayrıca bir kitabxana miqyasında kitabxana-informasiya xidmətinin optimallaşdırılmasına yönəlmiş kompleks və lokal xarakterli proqram sənədlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Belə proqramlar ilk növbədə dünyada kitabxana işinin sosial-mədəni sistem kimi inkişaf qanunauyğunluqlarını nəzərə alaraq ölkə kitabxanalarının beynəlxalq informasiya məkanında baş verən proseslərə daxil olmasının metodik təminatını yaratmalıdır. Dünya kitabxanaşünaslıq fikrinin, xüsusilə ABŞ və Rusiyanın görkəmli kitabxanaşünaslarının əsərlərində kitabxana işinin inkişaf qanunauyğunluqları haqqındakı fikirlər (7; 8; 11; 12; 16; 17), eləcə də XX əsrdə dünyada və Azərbaycanda kitabxana işinin inkişaf meylləri bizə XXI əsrin əvvəllərində kitabxana işinin inkişaf qanunauyğunluqlarının məqsədli proqramlaşdırılması ilə əlaqədar aşağıdakı müddəaları irəli sürməyə imkan verir:

Cəmiyyətdə kitabxana və informasiya xidmətinin təşkilində kitabxanalararası əlaqələr gücləndirilməli, müxtəlif kitabxana şəbəkələri və sistemləri müasir qlobal texnologiyaya əsaslanmaqla oxuculara kitabxana-informasiya xidmətində informasiya ehtiyatlarından ölkədaxili və dünya miqyasında əlaqəli istifadə etmək imkanları əldə olunmalıdır. Bu proses artıq baş verməkdədir.

Yaxın gələcəkdə oxuculara kitabxana-informasiya xidmətinin keyfiyyəti ölkənin bu və ya digər kitabxanalarının, yaxud bütün kitabxana sistemlərinin informasiya ehtiyatlarından istifadə səmərəliliyi ilə deyil, kitabxanaların bütün tələbatçıların dünya informasiya ehtiyatlarından istifadəsinin dolğunluğunun təmin edilməsi ilə müəyyənləşdiriləcəkdir.

XXI əsrin əvvəllərində kitabxanaların informasiya ehtiyatlarının formalaşmasında ənənəvi çap materialları ilə yanaşı, elektron informasiya daşıyıcılarının rolu getdikcə artacaqdır.

Ölkənin kitabxanaları yaxın gələcəkdə dünya kitabxanalarından, dünya avtomatlaşdırılmış şəbəkə texnologiyasından (internet və s. sistemlərdən) təcrid olunmuş şəkildə öz sosial funksiyalarını həyata keçirə bilməyəcək.

Müasir informasiya texnologiyası və telekommunikasiya vasitələrinə malik olmayan kitabxana və ya kitabxana sistemi dünya informasiya məkanından təcrid olunacaqdır. Bunun nəticələri isə cəmiyyətin sosial-iqtisadi

və mədəni-mənəvi imkanlarına öz mənfi təsirini göstərəcəkdir.

Bütün bu proseslər metodik mərkəzlər və ilk növbədə milli kitabxana tərəfindən Azərbaycan kitabxanalarının dünya informasiya məkanında yerini müəyyənləşdirən strateci proqramın hazırlanması vacibliyini irəli sürür. Bu proqram ilk növbədə respublikada kitabxana işinin ümumi vəziyyətinin analitik təhlilini, XXI əsrin əvvəllərində kitabxana sisteminin inkişaf proqnozunu verməlidir. Zənnimizcə, ölkədə kitabxana işinin inkişaf strategiyası proqramında üstünlük aşağıdakı amillərə verilməlidir:

1.Kitabxana işinin informasiyalaşdırılması, kitabxanalarda müasir informasiya texnologiyasının tətbiqi, elektron-məlumat bazalarının formalaşması və istifadə edilməsi. CD-ROM texnologiyası və kitabxanalararası informasiya mübadiləsini təmin edən şəbəkə texnologiyasının inkişafı, ölkədə vahid kitabxana-informasiya şəbəkəsinin yaradılması.

2.Kitabxanaların bazar iqtisadiyyatına uyğunlaşmış komplektləşdirmə mexanizminin yaradılması və ölkə miqyasında nəşr edilən sənədlər haqqında (elektron informasiya daşıyıcıları) daxil olmaqla milli informasiya sisteminin təşkili, məlumat banklarının yaradılması.

3.Kitabxanaların və kitabxana fondlarının təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsi.

4.Azərbaycanda fəaliyyət göstərən bütün kitabxana şəbəkələri və sistemlərinin idarələrarası kooperasiyasının inkişaf etdirilməsi, onların dünya kitabxana prosesləri və informasiya mübadiləsi sisteminə (internetə) daxil edilməsi.

5.Kitabxana işinin hüquqi normativ bazasının inkişaf etdirilməsi.

Şübhəsiz ki, milli kitabxana və digər sahəvi metodik mərkəzlər tərəfindən hazırlanmış kompleks və lokal proqramlar ekspertlər şurasında müzakirə edilməli, onun maliyyələşdirilməsi üçün vəsaitin miqdarı müəyyənləşdirilməli, sonra dövlət orqanlarına, digər maraqlı təşkilatlara təqdim olunmalıdır.

Kitabxana proqramlarının müəyyənləşdirilməsi ilə əlaqədar qeyd etmək istərdik ki, məqsədli proqramların, xüsusilə ayrı-ayrı kitabxana və kitabxana şəbəkələrində həyata



keçirilməsi labüd olan lokal proqramların maliyyələşdirilməsində metodik mərkəzlər respublikada fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatların xeyriyyəçilik və «inkişafı maliyyələşdirmə fondlarından» səmərəli istifadə etmək vərdişlərinə, bu işin metodik və texnoloci əsaslarına yönəldilməlidir.

Bu məqsədlə düzgün strateci proqram seçib onun aktuallığını, təşkilati məsələlərini, büdcəsini, həmin proqramın həyata keçirilməsinin müsbət nəticələrini düzgün müəyyənləşdirən və əsaslandıran layihələrin hazırlanıb müvafiq təşkilatlardan, o cümlədən, «Avrasiya» fondu, Açıq Cəmiyyət İnstitutu (SOROS fondu), Ayreks və digər beynəlxalq təşkilatlardan «qrant» almaq metodikasını dərindən mənimsəməli və belə vəsaitlərdən lazımınca istifadə etməlidirlər. Metodik mərkəzlərin «fandreyzinq» (maliyyə mənbələri tapmaq) texnologiyasına yiyələnməsi və bununla da məqsədli proqramların həyata keçirilməsində maliyyə çətinliklərinin əhəmiyyətli dərəcədə aradan qaldırılmasına nail olması vəzifəsi bazar iqtisadiyyatından, bu günün reallıqlarından doğan zərurət kimi qəbul edilməlidir. Bu da öz növbəsində ölkədə kitabxana işinin metodik təminat sistemində ikinci yeni sosial funksiyanın-marketinq funksiyasının meydana gəlməsinin təzahürüdür.

Müasir dövrdə ölkədə kitabxana işinin optimallaşdırılmasına yönəldilmiş məqsədli proqramların hazırlanması sahəsində ən mühüm istiqamətlərdən biri Azərbaycanda kitabxana marketinqi konsepsiyasını formalaşdırıb tətbiq etməkdən ibarətdir.

Qeyd edək ki, dünya kitabxanaçılıq təcrübəsində geniş yayılmış «Kitabxana marketinqi» konsepsiyasının Azərbaycanda tətbiq edilməsi üçün «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»nda (1) hüquqi baza yaradılmışdır.

Bu qanunun 28-ci maddəsində göstərilir ki, «Dövlət kitabxanalarının işinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırılır». Hazırda bir çox xarici ölkələrdə, o cüm-

lədən Rusiyada metodik mərkəzlərdə kitabxana marketinqi şöbələrinə çevrilən metodik təminat sistemində marketinq konsepsiyasını aparıcı konsepsiya kimi qəbul edirlər (14).

Şübhəsiz ki, Azərbaycanda kitabxana işinin təşkilində marketinq konsepsiyasının tətbiq edilməsi əhaliyə kitabxana-informasiya xidmətinin inkişafına səmərəli təsir göstərərək oxucuların sənəd və informasiya tələbatlarının yeni istiqamətlərini formalaşdırar, nəticədə isə cəmiyyətdə kitabxana-informasiya məsələlərinin daha dərindən dərk edilməsinə səbəb olar.

Respublikada kitabxana iqtisadiyyatı üzrə tanınmış mütəxəssis R.Kazımovun qeyd etdiyi kimi, «Marketinq fəaliyyəti kitabxana işinin iqtisadi mexanizmini formalaşdıraraq, xidmət metodlarının yeni keyfiyyət almasına, kitabxana işinin sosial-iqtisadi səmərəliliyinin yüksəlməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə, kitabxanaçı əməyinin stimullaşdırılmasına və nəhayət, kitabxana-informasiya fəaliyyətinə intellektual qüvvələrin cəlb olunmasına hərtərəfli şərait yaradır» (10).

Zənnimizcə, Azərbaycanda kitabxana marketinqi proqramı ümumi prinsiplər əsasında milli kitabxana tərəfindən ümumrespublika miqyasında və ayrı-ayrı şəbəkələr daxilində müstəqil olaraq hazırlanıb həyata keçirilə bilər.

Marketinq proqramı hazırlanarkən aşağıdakı konseptual amillər əsas götürülə bilər:

-Marketinq məkanının öyrənilməsi ilə əlaqədar tədqiqatların aparılması. Marketinq mühitində oxucuların bilik, sənəd və informasiya tələbatlarının və tələblərinin öyrənilməsi, onların real və potensial imkanlarının müəyyənləşdirilməsi, cari və perspektiv informasiya sorğularının aşkar edilməsi, regionda fəaliyyət göstərən kitabxana-informasiya müəssisələrinin informasiya potensialının təhlili;

-marketinq vəzifələrinin müəyyənləşdirilməsi, marketinq fəaliyyətinin (xidmətlərinin) həcminin, quruluşunun forma və metodlarının müəyyənləşdirilməsi;

-marketinq xidmətinin işlənib hazırlanması, bazar münasibətlərinin seçilməsi, xidmət növlərinin formalaşması;

-qiymətqoyma siyasətinin müəyyənləşdirilməsi;

-marketinq fəaliyyətinin idarə olunması, marketinq fəaliyyətində cari və strateci planlaşdırma, büdcə, nəzarət, təftiş funksiyalarının müəyyənləşdirilməsi, həyata keçirilməsi.



Beləliklə, respublikada kitabxana marketinqi məqsədli proqramının hazırlanması müasir dövrdə kitabxanaların metodik təminat sistemində ən önəmli vəzifələrdən biri kimi meydana çıxır. Ölkədə kitabxana işinin metodik təminatında məqsədli proqramlaşdırmanın üçüncü mühüm istiqaməti kitabxanaşünaslıq, informasiya, biblioqrafiya və kitabşünaslıq sahələrində standartlaşdırma proqramının hazırlanıb həyata keçirilməsindən ibarət olmalıdır.

Bu proqram Azərbaycanda kitabxana işinin müasir vəziyyəti və inkişaf perspektivlərini təmin edən milli standartların hazırlanması və tətbiqini nəzərdə tutmalıdır. Bu məqsədlə Dövlət Standartlar Komitəsinin nəzdində «Kitabxanaşünaslıq, informasiya, biblioqrafiya və kitabşünaslıq sahələri üzrə komissiya» yaradılmalı və onun katibliyi Milli Kitabxanaya həvalə olunmalıdır.

Katibliyin tərkibi özündə respublikanın kitabxana işi üzrə metodik mərkəzlərinin, Dövlət Kitab Palatasının, İnformasiya Mərkəzlərinin, BDU-nun kitabxanaçılıq fakültəsinin, Respublika Mətbuat və İnformasiya Nazirliyinin nümayəndələrini əhatə etməlidir.

Kitabxana, informasiya, biblioqrafiya və kitabşünaslıq üzrə dövlət standartlaşdırma proqramı «Standartlaşdırma haqqında Azərbaycan Respublikasının qanunu»na (13) uyğun olaraq kitabxanalar üzrə məcburi hesab edilən milli kitabxana standartlarının hazırlanmasının təşkilati-metodik əsaslarını müəyyənləşdirməlidir. Proqramda həmçinin Beynəlxalq kitabxana standartları, Beynəlxalq kitabxana statistikası, kitab standart nömrələri, kitabxana işinə dair yeni statistik hesabat formalarının hazırlanması və tətbiqi, eləcə də bir sıra xarici ölkələrin (ABŞ, Türkiyə, Rusiya və s.) kitabxana standartlarının Azərbaycan dilinə tərcümə edilib, onlara milli standartlar statusu verilməsi, ABŞ, MDB və digər xarici ölkələrlə standartlaşma işləri ilə əlaqədar birgə əməkdaşlıq formaları öz əksini tapmalıdır.

Standarlaşdırma proqramının mühüm tərkib hissəsi kimi kitabxana işinə dair milli standartların tətbiqi və təbliği mexanizmi müəyyənləşdirilməlidir.

Fəslin əvvəlində qeyd etdiyimiz kimi, ümumdövlət əhəmiyyətli milli kitabxana proqramları ilə yanaşı, sahəvi metodik mərkəzlər tərəfindən müvafiq kitabxana şəbəkələrində texnoloci proseslərin modernləşdirilməsi, şəbəkədaxili və şəbəkələrarası inteqrasiya proseslərinin formalaşmasına yönəlmiş lokal proqramların hazırlanıb həyata keçirilməsi kitabxanaların metodik təminatında əhəmiyyətli rol oynaya bilər. Belə proqramlara bunları misal göstərmək olar:

-kitabxanalarda internet mərkəzlərinin yaradılması;

-KAA sisteminin modernləşdirilməsi, sənədlərin elektron poçtu ilə əldə edilməsi;

-kitabxana işinin kompüterləşdirilməsi, müasir kommunikativ formatların öyrənilməsi və tətbiqi;

-elektron kataloqların təşkili, kartoçkalı kataloqların maşın kataloqlarına konversiyası;

-kitabxanaların informasiya ehtiyatlarının internetdə əks etdirilməsi;

-kitabxana işçiləri üçün tədris-treyninq mərkəzlərində ixtisasartırma proqramlarının tərtibi, həyata keçirilməsi və s.

Beləliklə, ölkədə kitabxanaların metodik təminat sistemində məqsədli proqramların tərtibi və reallaşdırılması kitabxana işinin cəmiyyətdə həyata keçirdiyi sosial funksiyaların səmərəliliyinə əhəmiyyətli təsir göstərə bilən strateji metodik fəaliyyət kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT


*1.Azərbaycan.-1999.-14 mart / Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu.*

*2.Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının arxivi. 1980-1990-cı il hesabatları.*

*3.Allahverənov S. Metodik iş: inkişaf yolları və problemləri// M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.Ş.-B., 1988.-S.67-81.*

*4.Басов С.А. Ты педагог и управленец // Библиотекарь.-1986.-№5.-С. 30-31.*

*5.Бачальдин Б.Н. Методическая служба: Какой ей быть?// Сов. библиотековедение.-1991.-№5.-С.13-23.*

*6.Бибина Н. Не люблю быть проверяющим // Библиотекарь.-1991.-№11.-С.23-33.*

*7.Библиотеки и библиотечное дело США: Комплексный подход.-М., 1992.-456 с.*





*8.Библиотечное дело на пороге XXI века: Материалы международной конференции.-М., 1998.-356 с.*

*9.Будецкая О. Управленец? Методист? Консультант? //Библиотекарь.-1990.-№5.-С.41-42.*

*10.Kazımov R. Bazar iqtisadiyyatı və kitabxanalar.-B., 1996.-S.31.*

*11.Карташов Н., Скворцов В. Общее библиотековедение: В 2-х: Ч.1-М., 1996.-88 с.*

*12.Скворцов В. Библиотековедение: Сущность методологии: Дис. ... докт.пед.наук.-М., 1997.-320 с.*

*13.Standartlaşma haqqında Azərbaycan Respublikasının Qanunu: 16 aprel 1996 // Azərbaycan Respublikasının qanunlar külliyyatı: Kitab S.-B.: Qanun, 1997.-S.83-96.*

*14.Суслова И.М. Маркетинговая концепция методической работы // Методическая работа библиотек: Перспективная концепция.-М., 1998.-С.24-29.*

*15.Суслова И.М. Методическая работа библиотек: перспективные концепции.-М., 1993.-44 с.*

*16.Шира Дж. Введение в библиотековедение.-М., 1983.-225 с.*

*17.Толина Н.И. Основные положения: Библиотечное дело на рубеже XXI в. //Библиотекарь.-1991.-№1.-С.3-49.*

*18.Ванеев А.Н. Проблемы перестройки методической деятельности //Научные и технические библиотеки СССР.-1990.-№9.-С.10-16*

*19.Высоцкая Е.К., Семенова Г.А. Методические службы развиваются // Советское библиотековедение.-1991.-№1.-С.46-53.*


**_Исмаилов Х.И._**

**_Направления усовершенствования и обновления системы методического обеспечения библиотечной работы_**

**Резюме**


*В статье излагается концепция усовершенствования всей системы методического обеспечения библиотек Азербайджана, вскрываются причины, тормозящие развитие методической работы, обосновывается совокупность принципов и важнейших направлений, реализация которых обеспечить соответствие деятельности методических центров современным требованиям. В числе этих направлений, выдвигаемых автором: создание целевых програм; аналитико-синтетическая деятельность методических центров; развитие информационных функций методической работы; активизация деятельности методических органов в системе непрерывного образования библиотечных работников; совершенствования организационной структуры системы.*

*Tacəddin QULİYEV*
*Tarix elmləri namizədi,*
*dosent*

# AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQI KİTABXANALARI 1981-1985-ci illərdə

1981-1985-ci illərdə Azərbaycan xalqı siyasi, iqtisadi, sosial və mədəni inkişaf sahələrində mühüm nailiyyətlər qazanaraq SSRİ-də ön mövqelərdən birinə çıxmışdır. Həmin dövr ictimai istehsalın dinamik artması, ölkənin vahid xalq təsərrüfatı kompleksində Azərbaycanın payının çoxalması, zəhmətkeşlərin rifahının yüksəlməsi, ictimai-siyasi və mədəni həyatın bütün istiqamətlərində irəliləyişlər əldə edilməsi ilə xarakterikdir. Bu dövr ümumən Azərbaycanın tarixində misilsiz sosial inkişaf, quruculuq, tikinti-abadlıq işləri aparılması, mədəni tərəqqi illəri olmuşdur.

1981-1985-ci illərdə respublikada milli gəlir xeyli artmış, sənayenin inkişafında mühüm nailiyyətlər qazanılmışdır. İqtisadiyyatın səmərəliliyi yüksəlmiş, keyfiyyət göstəriciləri yaxşılaşmağa başlamışdır. Xalq təsərrüfatının inkişafına kapital qoyuluşu xeyli çoxalmış, bir çox iri sənaye müəssisələri, sexlər, istehsal sahələri tikilmiş, yeni su elektrik stansiyaları işə düşmüş, neft və qaz yataqları istismara verilmişdir. Bu dövrdə yeni dəmir yolu, Bakı Metropoliteni, bir sıra ictimai binalar, zavod-fabriklər və s. kimi komplekslər tikilmiş, aqrar-sənaye kompleksinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

Bu illərdə cəmiyyətin inkişafının çox mühüm problemlərinin həllində elm daha böyük rol oynamış və Azərbaycan mədəniyyətində xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Respublikanın həyatında mənəvi dayaqları, ideya-əxlaqi əsasları möhkəmlətmək üçün planauyğun, məqsədyönlü kompleks iş aparılmış, ideoloji təsir vasitələrinin şəbəkəsi genişlənmiş, yüksək ixtisaslı kadrlar hazırlanmasına qayğı güclənmişdir.



Bütün bu tarixi nailiyyətlərin əldə edilməsində Azərbaycan həmkarlar ittifaqı təşkilatının və onun çoxmilyonlu üzvlərinin də böyük rolu olmuşdur.

Respublikamızda iqtisadiyyatın və mədəniyyətin inkişafı, bütün sahələrdə elmi-texniki yeniliklərin tətbiqi yüksək şüura malik insan tərbiyə edilməsi sahəsində irəli sürülən vəzifələrin həyata keçirilməsində mədəni-maarif və elmi-informasiya idarələri olan kitabxanaların böyük rolu vardır. Çünki mühüm sosial funksiyaları yerinə yetirən kitabxanalar mövcud cəmiyyətin gələcək iqtisadi, sosial-siyasi və mənəvi tərəqqisi, vətəndaşların inkişaf etmiş sivil normalar və prinsiplər ruhunda tərbiyə edilməsi məqsədi ilə öz fondlarından daha dolğun və səmərəli istifadə olunmasını təmin edir, insanların mənəvi cəhətdən zənginləşməsində mühüm rol oynayır və respublikamızın iqtisadi, sosial və mədəni inkişafında yaxından iştirak edir.

Qeyd etmək lazımdır ki, 1981-1985-ci illərdə kitaba böyük tələbat əhaliyə kitabxana xidmətinin təşkilinin forma və metodlarında, ümumi səviyyəsində və keyfiyyətində yeni dəyişikliklər baş verməsini tələb edirdi. Həmçinin cəmiyyətin strukturunda baş verən sosial dəyişikliklər, fəhlə sinfinin, kolxozçu kəndlilərin təhsil, mədəni və professional səviyyəsinin yüksəlməsi, onların tərkibində ali, orta ixtisas və ümumi orta təhsilli şəxslərin çoxalması kitabxana xidmətinin təşkilində zamanın tələblərinə cavab verə biləcək yeni forma və üsullardan istifadə etməyi, oxuculara xidmət prosesinin yenidən qurulması, bu prosesin bütün sahələrini sistem halında daha da təkmilləşdirməyi tələb edirdi. Həmin şəraitdə oxuculara xidmət işinin təşkilinə sistem halında yanaşmadan, bu sistemin bütün vasitələrində bir-birilə əlaqədar, bir-birini tamamlayan ardıcıllığı gözləmək şərti ilə işi lazımi şəkildə təşkil etmədən müasir oxucunun tələb və sorğularına cavab vermək mümkün deyildi. Oxucuya xidmət prosesinə sistemli yanaşma onun elmi əsaslar üzərində qurulmasına səbəb olur. Göründüyü kimi, o dövrdə əhaliyə kitabxana xidmətinin təşkili baxımından kitabxanaların qarşısında olduqca mühüm vəzifələr dururdu.

Respublika həmkarlar ittifaqı kitabxanaları fəhlə, mühəndis-texnik işçilərə və onların ailə üzvlərinə kitabxana xidmətinin təşkilində, elm, maarif və mədəniyyət xadimlərinin, bədii ədəbiyyat klassikləri əsərlərinin, istehsalat və peşə ədəbiyyatının, sənaye və

texnikaya dair ədəbiyyatın təbliğ edilməsində, elmi-texniki yenilikləri mütəxəssislərə çatdırılmasında mühüm rol oynayırdı.

1981-1985-ci illərdə respublikada həmkarlar ittifaqı kitabxanalarının inkişafına xüsusi qayğı ilə yanaşılmışdır. Bu iş Sov.İKP MK-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" 8 may 1974-cü il tarixli qərarının müddəalarının həyata keçirilməsindən sonra daha da genişlənməyə başladı. Kitabxana quruculuğu haqqında bu mühüm sənədin əsas ruhunu kitabxana fəaliyyətinin təkmilləşdirilməsi, onun texnikanın müasir tələbləri səviyyəsinə qaldırılması problemləri təşkil edir. Qərarda kitabxana işi sahəsində əldə edilmiş nailiyyətlər yekunlaşdırılır, onların dərin təhlili verilir, bu sahədə qarşıda duran mühüm vəzifələr göstərilir. Qərarda göstərilir ki, kitabxanalar adamların mənəvi tərbiyəsinə, onların mədəni və elmi-texniki səviyyəsinin yüksəlməsinə yaxından yardım göstərirlər. Bu, kitabxana işinə yüksək qiymət verildiyini bir daha sübut edir.

1981-1985-ci illərdə kitabxana xidmətinin daha da təkmilləşdirilməsi problemlərinin həllində kitabxanaların mərkəzləşdirilməsinə, kitabxana şəbəkəsinin yerləşdirilməsinin vahid prinsiplərinin müəyyənləşdirilməsinə, depozitar kitabxanaların yaradılmasına, kitabxanaların ali təhsilli kadrlarla təmin edilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verilirdi.

Kitabxanalar üçün uzunmüddətli fəaliyyət proqramı olan bu qərarda göstərilir: "Kitabxanaların başlıca vəzifəsi... insanın təhsil və tərbiyəsi üçün, elmi-texniki tərəqqini sürətləndirmək üçün zəngin kitab xəzinələrindən daha səmərəli istifadə etməkdən ibarətdir. Elm və texnikanın nailiyyətlərini, qabaqcıl təcrübəni yaymaq, xalq təsərrüfatı mütəxəssislərini operativ surətdə elmi-texniki məlumatla təmin etmək, oxucuların təhsil səviyyəsini, professional marağını və yaş xüsusiyyətlərini nəzərə alaraq, onlara fərdi xidmət göstərmək sahəsində elmi-texniki və kütləvi kitabxanaların fəaliyyəti genişləndirilməlidir".[1]

Qərardan irəli gələn əsas vəzifələrdən biri də mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması və bunun əsasında əhalinin kitaba olan tələbatını bütünlüklə ödəmək, zəhmətkeşlərin mənəvi tərbiyəsində və elmi-texniki tərəqqinin sürətləndirilməsində yaxından iştirak etməkdən ibarətdir.



MK-nın bu qərarına əsasən ÜİHİMŞ-in Rəyasət Heyəti 1974-cü il 7 iyul tarixli "Sov. İKP MKA-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" (1974) qərarının yerinə yetirilməsində həmkarlar ittifaqları təşkilatlarının vəzifələri haqqında" qərar qəbul etmişdir. Qərarda deyilir: 1) həmkarlar ittifaqları komitə və şuralarına, həmkarlar ittifaqları kuratorlarının idarəsi üzrə mərkəzi şurasına, tabeçilikdə olan kitabxana şəbəkəsinin işinin əsaslı surətdə yaxşılaşdırılması üçün tədbirlər sistemi işləyib hazırlamaq və həyata keçirmək tapşırılsın... 2) Respublika, diyar, vilayət həmkarlar şuralarına 1974-1980-cı illərdə kütləvi həmkarlar ittifaqları kitabxanalarının mərkəzləşdirilməsi üzrə tədbirlər sistemi həyata keçirilsin...".

Bununla əlaqədar olaraq ÜİHİMŞ-in katibliyi respublika (diyar, vilayət) baza həmkarlar ittifaqı kitabxanalarının yaradılması haqqında 1975-ci il 7 yanvar tarixli Əsasnaməni təsdiq etdi. Əsasnaməyə görə "Baza həmkarlar ittifaqı kitabxanası həmkarlar ittifaqı kitabxanalarına metodik rəhbərliyi əlaqələndirmək üçün yaradılır və dövlətin fəaliyyətdə olan metodik mərkəzləri ilə respublikanın (diyar, vilayət, şəhər) həmkarlar ittifaqı kitabxanaları şəbəkəsi arasında əlaqələndirmə vasitəsidir"[2]. Qərarın ayrı-ayrı maddələrində həmkarlar ittifaqı kitabxanalarının vəzifə və strukturu müəyyənləşdirilir.

ÜİHİMŞ-in katibliyi Sov.İKP MK-nın 8 may 1974-cü il tarixli qərarına əsasən 1975-ci ilin 14 noyabrında "Həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirilməsi haqqında" qərar qəbul etdi[3]. Qərarda göstərilir ki, həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirilməsi respublika (ölkə, vilayət) həmkarlar ittifaqları şuralarının rəhbərliyi altında həyata keçirilsin. Onların qərarları əsasında hər bir rayon, şəhər, vilayət, ölkə və respublikada həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirmə planı təsdiq olunsun.

Qərarda qeyd edilir ki, həmkarlar ittifaqları kitabxanalarının mərkəzləşdirilməsində əsas məqsəd fəhlə və qulluqçuların ideya-siyasi, əmək və əxlaq tərbiyəsində kitab sərvətindən istifadəni fəallaşdırmaq, onların elmi və ixtisas biliklərinin səviyyəsini yüksəltməkdir.

AHİŞ-in Katibliyinin Sov.İKP MK-nın 8 may 1974-cü il və ÜİHİMŞ- in Katibliyi 14 noyabr 1975-ci il tarixli qərarına əsasən

1976-cı il sentyabrın 3-də "Zəhmətkeşlərə kitabxana-məlumat xidmətinin mərkəzləşdirilməsi və Azərbaycan həmkarlar ittifaqları kitabxanalarının təşkilati quruluşunun yaxşılaşdırılması haqqında" qərar qəbul etdi[4]. Həmin qərara əsasən respublika həmkarlar ittifaqının 8 mərkəzləşdirilmiş kitabxana sistemi (MKS) təşkil olunması qərara alınmışdır. MKS-də aşağıdakı kitabxanalar nəzərdə tutulmuşdur: İ.M.Qubkin adına respublika həmkarlar ittifaqı baza kitabxanası, indiki Xətai adına mədəniyyət və texnika sarayının ittifaqlararası kitabxanası, Orconikidze (indiki S.Bəhlulzadə) adına mədəniyyət və texnika sarayının ittifaqlararası kitabxanası, Dəmiryol işçiləri həmkarlar ittifaqı klubunun zavodlararası mərkəzi kitabxanası, Sumqayıt sənaye təşkilatının kitabxanası və Gəncə alimlər evinin kitabxanası, İliç adına mədəniyyət və texnika sarayı ittifaqlararası mərkəzi kitabxanası, Xəzər dənizçiləri zavodlararası MKS-i.

Qərarda qeyd olunur ki, Sumqayıt sənaye təşkilatının və Gəncə alimlər evinin kitabxanaları müvafiq bina və avadanlıqlar olmaması üzündən mərkəzləşdirilmiş sistemin funksiyalarını yerinə yetirə bilmirlər. Mövcud nöqsanları aradan qaldırmaq üçün AHİŞ-in katibliyi qərara alır:

I. Oxucuların kitaba və digər məlumat mənbələrinə olan tələbatının tam və dolğun ödəmək üçün kitabxanaların işini günün tələbləri səviyyəsinə qaldırmaq;

- kitabxanaların funksiyalarını genişləndirməyi təmin etmək, Sov.İKP MK-nın 1974-cü il 8 may tarixli qərarında qeyd edildiyi kimi onların ideoloji və elmi məlumat mərkəzləri kimi rolunu yüksəltməyi təmin etmək;

- təsərrüfat filialları ilə birlikdə MKS üçün binaların ayrılması və təmirinə kömək etməli, avadanlıq və texniki vasitələr, ədəbiyyat alınmasına yardım etməli;

II. Metallurgiya sənayesi həmkarlar ittifaqları respublika komitəsinə kitabxanaların mərkəzləşdirilməsini iyunun 1-dən başa çatdırmağı və müvafiq kitabxana müdiri məsələsini həll etməli;

III. Fabrik-zavod, yerli komitələrə, respublika həmkarlar ittifaqları komitələrinə zəhmətkeşlərə kitabxana-biblioqrafiya xidmətini yaxşılaşdırmaq üçün həmkarlar ittifaqının mərkəzləşdirilmiş sisteminin yeni quruluşunu tövsiyə etməli;

IV. Qərarın yerinə yetirilməsi üzərində nəzarət AHİŞ-in mədəni kütləvi şöbəsinə həvalə edilir.[5]



Lakin MKS-ə keçmək bəzi kitabxana işçilərinin səhlənkarlığı, kitabxana işində bəzi hazırlıq işlərinin vaxtında görülməməsi üzündən ləngiyirdi. MKS-in yaradılması haqqında qərar 1976-cı ildə verilməsinə baxmayaraq, bu iş 1979-cu ilə qədər həll olunmamış qalırdı. Bütün bu nöqsanları aradan qaldırmaq, həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirilməsini operativ həyata keçirmək üçün AHİŞ-in katibliyi 1979-cu ilin 21 fevralında "Zəhmətkeşlərin kitabxana məlumat xidmətinin mərkəzləşdirilməsi və həmkarlar ittifaqı respublika komitəsi kitabxanalarının təşkilati quruluşunun yaxşılaşdırılmasına aid əlavə tədbirlər haqqında" qərar qəbul etmişdir[6]. Qərarın qəbul edilməsi həmkarlar ittifaqı kitabxanalarının fəaliyyətini əsaslı surətdə canlandırdı, filialların işini səmərəli təşkil etmək üçün geniş imkanlar açdı. Qərardan sonra 6 MKS yaradıldı və fəaliyyətə başladı. 1979-cu ildə MKS-ə keçilməsi ilə əlaqədar olaraq kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, kitabxana işinə ayrılan maliyyə vəsaitindən həmkarlar ittifaqı kitabxanalarının komplektləşdirilməsinə daha çox pul ayrılmış, kitabxana kollektorundan kitabxanalara daha çox kitab göndərilmişdir. Bu dövrdə yeni kitabxana binaları tikilmiş, bəzi kitabxanalar daha abad binalara köçürülmüş, mövcud binalar əsaslı surətdə təmir edilmiş, onların avadanlıq, inventarlarla təchiz edilməsi işi xeyli yaxşılaşmışdır. Həmkarlar ittifaqı kitabxanalarına 1 milyon 375 min manatlıq yeni müxtəlif avadanlıq alınmış, 8 kitabxana yeni binaya köçürülmüşdü. Həmkarlar ittifaqı kitabxanalarının komplektləşdirilməsi üçün pul vəsaiti ildən-ilə artırdı. Əgər 1975-ci ildə kitab fondunu komplektləşdirmək üçün 5 milyon 768 min manat pul xərclənmişdirsə, 1979-cu ildə MKS yaradıldıqdan sonra 5 milyon 876 min, 1985-ci ildə isə 6 milyon 273 min manat pul ayrılmışdır[7]. MKS-də maliyyə vəsaitinin mərkəzləşdirilməsi onun məqsədyönlü xərclənməsinə imkan yaradır.

Azərbaycan Həmkarlar İttifaqı Şurasının 3 sentyabr 1976-cı il tarixli "Zəhmətkeşlərə kitabxana-məlumat xidmətinin mərkəzləşdirilməsi və Azərbaycan həmkarlar ittifaqı kitabxanalarının təşkilati quruluşunun yaxşılaşdırılması haqqında" qərarı ilə MKS-də keçmiş İliç adına mədəniyyət və texnika sarayının ittifaqlararası mərkəzi kitabxanasına 1979-cu ildə kitab almaq üçün 16 min, mədəni-kütləvi işlər üçün 2500, kommunal-təsərrüfat xərclər üçün isə 430 manat pul ayrılmışdır[8]. Kitabxanaların maddi-texniki bazası artdıqca, bu

işlər üçün ayrılan maliyyə vəsaitinin həcmi də artırdı. Belə ki, İliç adına mədəniyyət və texnika sarayının ittifaqlararası MKS-ni komplektləşdirmək üçün 1981-ci ildə 26 min manat, 1985-ci ildə isə 26 min 436 yüz manat, İ.M.Qubkin adına respublika baza kitabxanası üçün 1981-ci ildə 27 min 456 manat, 1985-ci ildə isə 28 min 547 manat vəsait ayrılmışdır[9]. Respublika həmkarlar ittifaqının digər MKS-lərində maliyyə vəsaiti bu minvalla artmış, avadanlıq və texniki vasitələrlə təmin edilmişdir. Mərkəzləşdirilmiş kitabxana sistemləri yaradıldıqdan sonra respublika həmkarlar ittifaqı kitabxanalarının fondları ildən-ilə artmağa və zənginləşməyə başlamışdır.

Oxucuların elmi-texniki, mədəni və ideya-siyasi səviyyəsinin yüksəldiyi bir dövrdə kitabxana fondlarının daha səmərəli, düzgün, kitabxanaların profilinə və oxucuların sorğusuna uyğun komplektləşdirilməsində mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılmasının olduqca böyük əhəmiyyəti vardı. Mərkəzləşdirmə şəraitində vahid fondun tərkib hissəsinin dəqiq, düzgün və səmərəli formalaşması xidmət işinin ümumi istiqamətinə mühüm təsir göstərir, oxucuların məlumatını artırır, mütaliə səviyyəsini əsaslı surətdə genişləndirir. MKS-də vahid fondun formalaşmasının ilk mərhələsi kimi komplektləşdirmə işi bir sıra əsas amillərə əsaslanır. Bu amillər sırasına komplektləşdirmənin ideya-siyasi xarakterinin dəqiqləşdirilməsi, planlı və müntəzəm xarakter daşıması, komplektləşdirmənin konkret oxucu tələbatına istinad edilməsi və s. daxildir.

MKS-in yaradılması kitabların alınma potensialına və mənbələrinə güclü təsir göstərmiş, komplektləşdirmə dairəsi xeyli genişlənmişdir. Zəngin maliyyə vəsaitinə malik olan mərkəzi kitabxanalar nəinki respublika daxilində, habelə SSRİ-nin digər şəhərlərindən kitab almaq imkanına malik olurdu. Bu xarakterik xüsusiyyət vahid kitabxana fondunun formalaşdırılmasına mühüm təsir göstərir, onun tematik dolğunluğunu yaradır.

MKS şəraitində fondun yaradılmasında ikinci əsas mərhələ bilavasitə fondun təşkili ilə bağlıdır. Təşkili iş prosesinə vahid fondun uçotu, elmi, texnoloji cəhətdən işlənməsi, yerləşdirilməsi və mühafizə edilməsi daxildir. MKS şəraitində vahid fondun təşkilində bir sıra əməliyyatlar mərkəzi kitabxana tərəfindən həyata keçirilir (fondun ümumi və fərdi uçotu, kitabların elmi və texnoloji işlənməsi, təsnifləşdirilməsi və s.). Bu isə filialları həmin



əməliyyatlardan azad edir, oxuculara xidmət işində onların fəaliyyətinin genişlənməsinə səbəb olur.

Fondun idarə edilməsi onun gələcək formalaşmasının gedişi haqqında qərarın qəbul edilməsi və həyata keçiriləsi ilə tamamlanır. Vahid kitabxana fondunun formalaşdırılmasında bu üç mərhələ (fondun komplektləşdirilməsi, təşkili və idarə edilməsi) bu və ya digər formada vahid fondun inkişafına öz müsbət təsirini göstərir və mühüm mütaliə üstünlükləri yaradır.

Respublika həmkarlar ittifaqı kitabxanalarında fondun düzgün komplektləşdirilməsi işinə çap olunmuş ədəbiyyatın öyrənilməsindən başlanır. Kitabxanalar tematik planları, yeni kitab bülletenləri, biblioqrafik göstəriciləri və digər biblioqrafik vəsaitləri müntəzəm olaraq izləyirlər. Fondu komplektləşdirərkən, hər şeydən əvvəl, oxucuların tələb və sorğularını, yerli şəraiti nəzərə alır, istehsalat sahələrinə dair ən mühüm ədəbiyyatı komplektləşdirir. Həmkarlar ittifaqlarının bəzi kitabxanalarında oxucuların ödənilməyən sorğularının kartotekasını tərtib edir və onları fondun təkrar komplektləşdirilməsində nəzərə alırlar.

MKS-in vəzifələrindən biri vahid kitab fondunun formalaşdırılması və ondan istifadənin səmərəliliyni yüksəltmək yolu ilə ödənilməmiş sorğuların miqdarını minimuma endirməkdir. MKS-də "yoxdur" cavablarının qeydə alınması, səbəbinin müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Ödənilməmiş sorğuların qeydə alınması nəticəsində vahid fondun lazımi ədəbiyyatla komplektləşdirilməsi zəruriliyi müəyyənləşdirilir. MKS şəraitində fəaliyyət göstərməyə başlayandan sonra Xəzər dənizçilərinin mədəniyyət və texnika sarayının mərkəzi kitabxanasında 1979-cu ildə 74.148 nüsxə kitab fondu, o cümlədən ictimai-siyasi ədəbiyyat üzrə 17.162 nüsxə, texnika üzrə 7680 nüsxə, bədii ədəbiyyat üzrə 55.730 nüsxə, digər sahələr üzrə 7949 nüsxə ədəbiyyat olmuşdursa, 1986-cı il yanvarın 1-də kitab fondu artaraq 101.053 nüsxəyə, o cümlədən ictimai-siyasi ədəbiyyat 22.296 nüsxəyə, texniki ədəbiyyat 7354 nüsxəyə, bədii ədəbiyyat 65.602 nüsxəyə, digər sahələr üzrə ədəbiyyat 9792 nüsxəyə çatmışdır[10]. MKS şəraitində fəaliyyət göstərən dəmiryol işçiləri həmkarlar ittifaqı zavodlararası mərkəzləşdirilmiş kitabxana sisteminin fondunda 1979-cu ildə 165.373 nüsxə, o cümlədən ictimai-siyasi ədəbiyyat üzrə 26.453 nüsxə, texnika üzrə 5730 nüsxə, bədii ədəbiyyat üzrə 114.862 nüsxə, digər sahələr üzrə

11.447 nüsxə ədəbiyyat olmuşdursa, 1986-cı ilin yanvarın 1-ə sistemin fondu artıb 182.518 nüsxəyə,o cümlədən ictimai-siyasi ədəbiyyat 31.060 nüsxəyə, texniki ədəbiyyat 6120 nüsxəyə, bədii ədəbiyyat 115.910 nüsxəyə, digər sahələrə aid ədəbiyyat isə 13.542 nüsxəyə çatmışdır[11].

İ.M.Qubkin adına Respublika baza kitabxanasında 1979-cu ildə 221.326 nüsxə, o cümlədən ictimai-siyasi ədəbiyyat üzrə 42.257 nüsxə, texnika üzrə 48.285 nüsxə, bədii ədəbiyyat üzrə 99.486 nüsxə, digər sahələr üzrə isə 25.608 nüsxə ədəbiyyat olmuşdursa, 1986-cı il yanvarın 1-ə fondun ümumi miqdarı artıb 285.536 nüsxəyə, o cümlədən ictimai-siyasi ədəbiyyat üzrə 60.845 nüsxə, texnika üzrə 34.553 nüsxəyə, bədii ədəbiyyat üzrə 200.600 nüsxəyə, digər sahələr üzrə isə 46.488 nüsxəyə çatmışdır[12]. Yaxud indiki Xətai adına mədəniyyət və texnika sarayı MKS-də 1979-cu ildə filiallarla birlikdə 241.700 nüsxə fondu vardısa, 1986-cı ildə yanvarın 1-də fond azalıb 233.430 nüsxəyə enmişdir. 1985-ci ildə fondun belə azalmasının əsas səbəbi kitabxanalardan çoxlu miqdarda köhnəlmiş və fiziki cəhətdən korlanmış kitabların fonddan xaric edilməsi olmuşdur[13].

MKS oxucularına müxtəlif bilik sahələrinə dair ən lazımlı ədəbiyyatın çatdırılmasında vahid fondun təşkilinin böyük rolu vardır. Belə ki, MKS vahid fondunun təşkili və ondan istifadə şöbəsi sistemin bütün filial və səyyar fondları arasında əlaqələndirici rolunu oynayır.

Vahid fond sisteminin tətbiq olunması oxucu tələbatını düzgün müəyyənləşdirməyə imkan verir. Vahid fond oxucu qruplarının bütün sistem bölmələrindən istifadə etməyə, habelə kitab fondunun komplektləşdirilməsini yaxşılaşdırmağa və məlumat-biblioqrafiya aparatını təkmilləşdirməyə imkan verir.

Azərbaycanda bəhs etdiyimiz dövrdə elmi-texniki tərəqqinin sürətinin dinamik artırılması, xalqın maddi və mənəvi rifah halının və yetkinliyinin təmin olunması üçün xalq təsərrüfatının bütün sahələri yüksək şüura malik kadrlarla təmin edilməli idi. Ona görə ki, yalnız möhkəm əqidəli, mənəvi cəhətdən saf və kamil, mükəmməl təhsilə malik adamlar müvəffəqiyyətlə müasir elmi-texniki tərəqqi prosesindən baş çıxara bilərlər.

Bu şəraitdə həmkarlar ittifaqı kadrları konkret istehsal məsələlərinin və sosial məsələlərin həllində, yarışın inkişaf etdirilməsində, əmək və istehsal intizamının möhkəmlən-



dirilməsində, adamların tərbiyəsində daha fəal mövqe tuturdular. Azərbaycan Həmkarlar İttifaqı 1981-1985-ci illərdə təşkilatçılıq işini təkmilləşdirmək, əmək kollektivlərinin həyatının bütün sahələrinə onların təsirini gücləndirmək, mühüm sosial-təminat məsələlərinin həllində öz hüquq və imkanlarından daha yaxşı istifadə etməyə böyük üstünlük verirdi.

Azərbaycanda bu dövrdə elə bir vəziyyət yaranmışdı ki, heç də hər bir kolxoz və sovxozda adamların müasir tələblərinə cavab verən klub, kitabxana, idman qurğusu və s. yox idi. Bir çox elə təsərrüfatlar var idi ki, orada iqtisadiyyat möhkəm idi, sabit surətdə yüksək gəlir əldə edilirdi, mədəni-maarif müəssisələri isə acınacaqlı vəziyyətdə idi.

Bu acınacaqlı vəziyyəti yaxşılaşdırmaq üçün respublika həmkarlar ittifaqı təşkilatı öz sistemində olan bütün mədəni-maarif müəssisələrini, o cümlədən kitabxanaları inkişaf etdirmək və onların maddi-texniki vəziyyətini yaxşılaşdırmaq, fondlarını zənginləşdirmək, oxuculara xidmət işini gücləndirmək üçün bir sıra kompleks işlər görməyə başladı. Xüsusilə maliyyə vəsaiti artırıldı, bina şəraiti pis olan xeyli kitabxana yeni binalara köçürüldü, avadanlıqla təmin edildi, fondları yeni ədəbiyyatla komplektləşdirilməyə başlandı.

Ümumiyyətlə, respublika həmkarlar ittifaqı sistemində 290 kitabxana var idi. Onlardan 1-i baza kitabxanası,3-ü ittifaqlararası, 2-si zavodlararası mərkəzi, qalanları isə filial-kitabxanaları idi. Bu kitabxanaların 903 səyyar kitabxanası və kitab buraxan məntəqəsi vardı[14]. 1979-1985-ci illərdə MKS-də filiallarla birlikdə kitab fondları yüksək dərəcədə artmışdı.

Fikrimizi sübut etmək üçün aşağıdakı cədvəli nəzərdən keçirmək kifayətdir.

| № № | Kitabxanaların adı | İllər | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | fondun miqdarı | İcti.siy ədəbiy | bədii ədəbiy. | texniki ədəbiy. | digər ədəbiy. |
| 1 | İ.M Qubkin adına baza kitabxanası | 1979 | 221326 | 42257 | 99485 | 48285 | 25608 |
| | | 1980 | 231888 | 45173 | 105646 | 48687 | 4612 |
| | | 1981 | 240620 | 46241 | 110200 | 49111 | 5187 |
| | | 1982 | 278987 | 52188 | 137304 | 34913 | 45834 |
| | | 1983 | 278847 | 50027 | 143353 | 34556 | 47437 |
| | | 1984 | 290719 | 51577 | 122733 | 32451 | 50500 |
| | | 1985 | 257261 | 51345 | 132645 | 33545 | 49235 |
| 2 | Xətai ad.MS-in MKS | 1979 | 241700 | 46370 | 104153 | 42903 | 46306 |
| | | 1980 | 250653 | 46365 | 104561 | 43504 | 44355 |
| | | 1981 | 251785 | 44997 | 125398 | 18160 | 26673 |
| | | 1982 | 254736 | 45884 | 145140 | 19308 | 27115 |
| | | 1983 | 258012 | 46948 | 146172 | 19343 | 29122 |
| | | 1984 | 262333 | 46374 | 148152 | 18769 | 29768 |
| | | 1985 | 259468 | 48809 | 151796 | 18796 | 27201 |
| 3 | İliç ad.MS-in MKS | 1979 | 327599 | 75241 | 184335 | 33627 | 36742 |
| | | 1980 | 342966 | 79385 | 197731 | 35665 | 38088 |
| | | 1981 | 362374 | 85077 | 202989 | 35499 | 37896 |
| | | 1982 | 369600 | 87515 | 204354 | 35451 | 38745 |
| | | 1983 | 388675 | 90656 | 208835 | 36954 | 41560 |
| | | 1984 | 391852 | 91557 | 218952 | 31986 | 50337 |
| | | 1985 | 404657 | 93667 | 223126 | 38218 | 46571 |
| 4 | Xəzər dənizi MS-in MKS | 1979 | 74148 | 17148 | 17162 | 55730 | 7949 |
| | | 1980 | 19771 | 17052 | 58535 | 6699 | 8532 |
| | | 1981 | 100660 | 17654 | 59494 | 5312 | 13434 |
| | | 1982 | 99404 | 17297 | 60502 | 5624 | 12509 |
| | | 1983 | 96953 | 20780 | 59663 | 4700 | 7799 |
| | | 1984 | 98182 | 21171 | 60654 | 3214 | 9166 |
| | | 1985 | 98191 | 21296 | 63176 | 3295 | 9371 |
| 5 | Dəmiryol iş-ri Hİ klubunun zavodlararası MKS | 1979 | 39776 | 6081 | 22264 | 2078 | 4561 |
| | | 1980 | 147548 | 13618 | 87556 | 9298 | 15979 |
| | | 1981 | 147897 | 13715 | 87580 | 9295 | 15980 |
| | | 1982 | 164011 | 24065 | 108814 | 5208 | 10120 |
| | | 1983 | 165373 | 26453 | 114862 | 5730 | 11447 |
| | | 1984 | 173335 | 27653 | 117967 | 5820 | 12172 |
| | | 1985 | 1791175 | 29018 | 115910 | 6120 | 13542 |
| 6 | S.Bəhlulzadə ad. MS MKS-i | 1979 | 215434 | 45156 | 123566 | 16472 | 21967 |
| | | 1980 | 216720 | 47251 | 121640 | 17372 | 21573 |
| | | 1981 | 219787 | 47381 | 123720 | 17644 | 22132 |
| | | 1982 | 227173 | 49610 | 127051 | 18374 | 23062 |
| | | 1983 | 199452 | 36228 | 116861 | 17386 | 20162 |
| | | 1984 | 1999432 | 37223 | 116760 | 15046 | 18876 |
| | | 1985 | 198624 | 45502 | 119212 | 32415 | 17004[x] |



Cədvəldən göründüyü kimi, MKS yarandıqdan sonra respublika həmkarlar ittifaqı kitabxanalarının fondu əsasən artmağa başlamışdır. Şübhəsiz, fondun zənginləşməsi oxuculara xidmət işinin yaxşılaşmasına, sorğu və tələblərinin təmin edilməsinə, fonddan istifadənin səmərəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir ki, bu barədə ikinci məqalədə geniş bəhs ediləcəkdir.

## ƏDƏBİYYAT


*1.Руководящие материалы по библиотечному делу (под ред. В.В.Серов.- М.: Книга, 1975.-с.41.*

*2. Yenə orada.- s.19.*

*3.Культурно-массовая работа профсоюзов. С официальных материалов.- М., 1977.-с.303-310.*

*4.Azərbaycan həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirilməsinə aid tapşırıqlar. Mərkəzləşdirməyə dair materiallar qovluğu (1974-1980-ci illər). İ.M.Qubkin adına kitabxananın arxivi.*

*5. Yenə orada.*

*6. Yenə orada.*

*7. Yenə orada.*

*8. Yenə orada.*

*9. Yenə orada.*

*10. Xəzər dənizçiləri mədəniyyət və texnika sarayı zavodlararası MKS 1979-1986-cı illərin hesabatları.*

*11. Dəmiryol işçiləri həmkarlar ittifaqı zavodlararası MKS-nin 1979-1980-ci illərin hesabatı.*

*12. Azərbaycan həmkarlar ittifaqı kitabxanalarının mərkəzləşdirilməsinə aid tapşırıqlar. Mərkəzləşdirməyə dair materiallar qovluğu (1974-1980-ci illər). İ.M.Qubkin adına kitabxananın arxivi.*

*13. Xətai adına Mədəniyyət və texnika sarayı ittifaqlararası MKS-nin 1979-1980-ci illərin hesabatları.*

*14. Quliyev T.F. MKS şəraitində mühəndis-texnik işçilərə kitabxana xidmətinin təşkili//Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: Elmi əsərlərin tematik məcmuəsi.-1986.-s.53.*

*x. Cədvəl. Qubkin adına Respublika baza kitabxanasının 1974-1980-ci illərinə dair arxiv materiallarına aid qovluğundan götürülmüşdür.*


**Кулиев Т.Ф.**

### *Профсоюзные библиотеки Азербайджана в 1981-85 годы*

**Резюме**

*В первой статье, посвященной деятельности республиканских профсоюзных библиотек в 1981-85г., освещены такие вопросы как, централизация профсоюзных библиотек, формирование фондов ЦБС, организация единого фонда. В статье достаточное количество фактов, указывающие на развитие библиотечной сети, рост фонда и пр.*

*К статье прилагаются названия центральных библиотек и схемы, указывающие рост числа фондов.*

*Rasim KAZIMOV*
*Pedaqoji elmlər namizədi, dosent*

# *KİTABXANALARDA ƏMƏK MƏHSULDARLIĞI*

Əmək məhsuldarlığı hər bir ictimai-iqtisadi formasiyaya xas olan iqtisadi qanunlardan biridir.

"Bütün ictimai-iqtisadi formasiyalar bir-birindən mülkiyyət forması və istehsal vasitələrinə görə deyil, eyni zamanda istehsal münasibətləri sistemi və əmək məhsuldarlığının səviyyəsinə əsasən də fərqlənir "[1].

İqtasadi nəzəriyyədə əmək məhsuldarlığı anlayışı maddi istehsalda insan fəaliyyətinin məhsuldarlığı, səmərəliliyi kimi nəzərdən keçirilir.

Əmək məhsuldarlığı müəyyən vaxt vahidi (saat, növbə, gün, ay, il) ərzində istehsal olunmuş məhsulun miqdarı ilə, yaxud məhsul vahidinin istehsalına sərf olunmuş iş vaxtının miqdarı ilə ölçülür.

Onu da qeyd edək ki, bazar iqtisadiyyatı şəraitində, hər bir kitabxananın və ya kitabxana sisteminin digər kitabxanalara nisbətən üstünlüyü birinci növbədə orada əmək məhsuldarlığının artması üçün daha geniş imkanların yaradılması ilə ölçülür.

Kitabxanada əmək məhsuldarlığının artırılması cəmiyyətdə iqtisadi inkişafın ümumi qanunauyğunluqlarına əsaslanır. Kitabxanalarda bu qanunlar müxtəlif formalarda təzahür edə bilər: canlı və əşyalaşmış əməyə qənaət, əsaslı vəsait qoyuluşunun səmərəsinin yüksəldilməsi, kitabxana fondlarının oxucular tərəfindən istifadə səmərəliliyinin yüksəldilməsi, ədəbiyyat və informasiyanın oxuculara tam, dolğun və operativ çatdırılması ilə əlaqədar əmək sərfinin azaldılması və s.

---

[1] *Məmmədov A.B. Sənayedə əmək məhsuldarlığının artırılması ehtiyatları.- B., Azərnəşr, 1999. - s.6.*



"Kitabxanalarda əmək məhsuldarlığı yüksəldikcə, cəmiyyət üzvlərinin kitabxana-informasiya təminatının səviyyəsi də yüksəlir, kitabxanaların sosial funksiyaları müvəffəqiyyətlə həyata keçirilir. Ona görə də cəmiyyətin hər üzvünün kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsində marağı vardır".[2]

Beləliklə, kitabxanalarda əmək məhsuldarlığı göstəriciləri, cəmiyyətdə əhaliyə kitabxana-informasiya xidmətinin səviyəsi və səmərəliliyi barədə təsəvvür yaradan mühüm iqtisadi göstəricilər kimi qəbul edilməlidir. Bu baxımdan kitabxanalarda əmək məhsuldarlığı göstəricilərinin təhlili xüsusi əhəmiyyət kəsb edir.

Kitabxanalarda əmək məhsuldarlığının təhlilinin əsas məqsədi onların fəaliyyətinə iqtisadi baxımdan qiymət vermək, əhaliyə kitabxana xidmətinin səmərəliliyinə mənfi və müsbət təsir göstərən amilləri müəyyənləşdirmək, kitabxana xidmətinin səmərəliliyinin yüksəldilməsini təmin edən ehtiyat mənbələrini aşkara çıxarmaqdan ibarətdir.

Cəmiyyətdə kitabxanalar sosial funksiyaları baxımından müxtəlif tiplərə və növlərə bölündüyünə görə bu kitabxanalarda həyata keçirilən texnoloji proseslər və iş üsulları da müxtəlifdir. Bu səbəbdən bütün kitabxanalarda əmək məhsuldarlığını müəyyənləşdirən vahid ümumiləşdirilmiş meyarın qəbul edilməsi mürəkkəbləşir.

Hazırda kitabxanaşünaslıq nəzəriyyəsində, daha doğrusu kitabxana iqtisadiyyatı nəzəriyyəsində əmək məhsuldarlığının müəyyənləşdirilməsi məqsədilə nisbətən ümumiləşdirilmiş ölçü özündə iki meyarı birləşdirir:

1.Kitabxananın hər bir işçisinin öhdəsinə (payına) düşən oxucuların sayı; (Kitabxanaçı-oxucu nisbəti)

2.Hər bir kitabxanaçının öhdəsinə (payına) düşən kitab verilişinin həcmi - (kitabxanaçı-kitab verilişi nisbəti);

Birinci ölçü kitabxananın oxucularının ümum sayını kitabxana işçilərinin ümumi sayına bölünməsini nəzərdə tutur. Yəni:

$$M = \frac{O}{I}$$

Burada M - əmək məhsuldarlığı

---

[2] *Проблемы экономической деятельности библиотек в условиях рыночной экономики. Учебно-методические пособье.- М., 1963.-с.31.*

O - oxucuların ümumi sayı

İ - kitabxana işçilərinin ümumi sayıdır.

İkinci ölçü kitabxanada kitab verilişinin ümumi miqdarının kitabxana işçilərinin ümumi sayına bölünməsini nəzərdə tutur. Yəni:

$$M = \frac{Kv}{İ}$$

Burada M - əmək məhsuldarlığı

Kv - kitab verilişinin ümumi miqdarı

İ - kitabxana işçilərinin ümumi sayıdır.

Bu ölçü tətbiq edildikdə kitabxana işçilərinin ümumi sayına inzibati aparatın işçiləri də daxil olmalıdır.

Belə hesablamalar kitabxananın bir illik və daha artıq fəaliyyət dövrünü əhatə edə bilər.

Qeyd etmək lazımdır ki, hələlik "kitabxana iqtisadiyyatı nəzəriyyəsində kitabxanalarda əmək məhsuldarlığının optimal me'yarını, ölçüsünü müəyyənləşdirən vahid etalon, standart və ya norma yoxdur. Odur ki, yuxarıda göstərdiyimiz təhlil metodlarından yalnız müqayisə məqsədilə, yəni müxtəlif kitabxana və kitabxana sistemlərrində (şəbəkələrində) əmək məhsuldarlığını müqayisə etmək və bununla da ölkədə, regionda və ya bir kitabxana şəbəkəsində daha yüksək əmək məhsüldarlığına nail olan kitabxanaları müəyənləşdirmək və onların müvafiq fəaliyyətini ümumiləşdirib təbliğ etmək məqsədilə istifadə edilməsi şübhəsiz ki, faydalı olar".[1]

Kitabxanalarda əmək məhsuldarlığının ümumi göstəriciləri kitabxana daxili fərdi əmək məhsuldarlığını əks etdirmir. Halbuki hər bir kitabxanada və ya kitabxana şəbəkəsində əmək məhsuldarlığının ümumiləşdirilmiş göstəriciləri məhz hər bir kitabxanaçının ayrılıqda müvafiq iş prosesi və əməliyyatı icra etməsi müddətində meydana çıxır. Kitabxana daxili fərdi əmək məhsuldarlığı burada ayrı-ayrı fərdlər tərəfindən həyata keçirilən bu və ya digər əməliyyatların spesifik xüsusiyyətləri ilə əlaqədardır.

Kitabxanalarda fərdi əmək məhsuldarlığı işçinin icra etdiyi əməliyyatların son nəticəsi müəyyənləşdirilmək şərti lə aşağıdakı kimi hesablana bilər:

A) vaxta əsasən

[1] *Шадрина Ж.С. Основы экономики библиотечной деятельности.- Л., 1983, с.133. /Гос. Публичная библиотеки им. Салтыкова-Щедрина*



$$Mf = \frac{Fi}{Ət}$$

Burada Mf - fərdi əmək məhsuldarlığı;

Fi - səmərəli iş vaxtı fondu;

Ət - məhsul vahidinin əmək tutumudur.

Məsələn, EA Mərkəzi Elmi kitabxanasının normativlərinə görə kitabxananın ədəbiyyatı kataloqlaşdırılması şöbəsində iş gününün davamı 480 dəqiqə, hər bir kitabın təsnifləşdirilməsinə sərf olunan norma vaxtı isə 5 dəqiqədir.[2] Onda:

$$Mf = \frac{480}{5} = 96 \text{ kitab};$$

B) istehsal olunmuş məhsula əsasən. Yəni təsnifləşdirilmiş kitablara əsasən:

$$Mf = \frac{M}{T}$$

Burada M - təsnifləşdirilmiş kitabların miqdarı;

T - həmin kitabların təsnifləşdirilməsinə sərf olunan vaxtdır.

Bu üsullar kitabxanalarda ayrı-ayrı işçilərin əmək məhsuldarlığının səviyyəsinin öyrənilməsində tətbiq edilə bilər.

Kitabxanalarda fərdi və ya şöbə üzrə əmək məhsuldarlığı hər bir prosesə və əməliyyata sərf edilən faktik vaxtın norma vaxtı ilə tutuşdurulması ilə də müəyyənləşdirilə bilər.

Məsələn əgər kitabxanada 1 min kitabın işlənməsinin norma vaxtı 311 saat olduğu halda, bu əməliyyata faktiki olaraq 300 saat sərf olunubsa, burada əmək məhsuldarlığını müəyyənləşdirmək üçün norma vaxtını faktiki icra vaxtına bölmək lazımdır. Yəni

311 : 300 =1,03

Nəticənin faizini müəyyənləşdirmək üçün 1,03-ü 100-əvurduqda 103% əmək məhsuldarlığı alınır.

Onu da qeyd etmək lazımdır ki, kitabxanalarda əmək məhsuldarlığının ümumi göstərijiləri ilə yanaşı fərdi əmək məhsuldarlığının göstəricilərinin müəyyənləşdirilməsi daha əhəmiyyətlidir. Çünki hər bir kitabxana şəbəkəsində və ya regionda kitabxanaların ümumi əmək məhsuldarlığı məhz hər bir kitabxana işçisinin ayrılıqda əmək məhsuldarlığından asılıdır.

[2] *Нормы Центральной научной библиотеки АН Азербайджана - Б., 1992.-164с.*

Kitabxanalarda fərdi əmək məhsuldarlığını təhlil etməklə, geridə qalan işçiləri müəyyənləşdirib, onların fəaliyyətini təkmilləşdirmək üçün şərait yaranır. Əmək məhsuldarlığında yüksək göstəricilərə nail olmuş işçilərin təcrübəsi isə kollektivə və digər kitabxana müəssisələrinə yayılmaqla kitabxana işində ümumi əmək məhsuldarlığının artırılmasına nail olunur.

Onu da qeyd etmək lazımdır ki, hər bir kitabxanada iş şəraitinin yaxşılaşdırılması, mühüm kitabxana əməliyyatlarında müasir texniki vasitələrin tətbiqi nətijəsində kitabxanaçılar tərəfindən gündəlik iş normaları artıqlanması ilə və daha keyfiyyətli yerinə yetirilməlidir. Deməli, belə tədbirlə əlaqədar əmək normaları vaxtaşırı dəqiqləşdirilməli və təkmilləşdirilməlidir.

Kitabxanalarda əmək məhsuldarlığının təhlilinin ən əhəmiyyətli jəhətlərindən biri də odur ki, əmək məhsuldarlığının təhlili nəticəsində onun yüksəlməsi üçün hər bir kitabxanada və ya kitabxana şəbəkəsində ümumilikdə ehtiyat mənbələrinin axtarılması, əmək məhsuldarlığına təsir göstərən daxili və xarici amillərin müəyyənləşdirilməsi üçün geniş imkanlar açılır.

Kitabxanalarda əmək məhsuldarlığının artırılması üçün onun ehtiyatlarından geniş istifadə olunmalıdır.

Kitabxana işində əmək məhsuldarlığının ehtiyatları dedikdə hər bir işçi tərəfindən həyata keçirilən əməliyyatların genişlənməsi və ya onların icrasına sərf edilən iş vaxtının azaldılması məqsədilə əməyin məhsuldar qüvvəsinin real imkanlarından tam istifadə olunması nəzərdə tutulur.

Hər bir kitabxanada əməyin məhsuldar qüvvəsi ilə əmək məhsuldarlığının səviyyəsi arasındakı fərq, ehtiyatları təşkil edir. Aşağıdakı formul vasitəsilə kitabxanalarda əmək məhsuldarlığının ehtiyatlarını müəyyən etmək olar:

$$E = Əmq - Əm$$

Burada E - əmək məhsuldarlığının ehtiyatları;

Əmq – əməyin məhsuldar qüvvəsi;

Əm – əmək məhsuldarlığıdır.

Kitabxana işində əmək məhsuldarlığının artırılmasının ümumi ehtiyat formalarını belə qruplaşdırmaq olar:

1.Elmi-texniki tərəqqinin naliyyətlərindən, müasir informatika texnologiyası, mövgud texniki vasitə və avadanlıqdan səmərəli istifadə olunması.



2.Kitabxana kadrlarının ixtisasının artırılması (yeniləşməsi), işçi qüvvəsindən səmərəli istifadə edilməsi.

3.Kitabxanalarda texnoloci proseslərin optimallaşdırılması.

4.Kitabxanalarda əməyin təşkili və normalaşdırılmasının təkmilləşdirilməsi. (yeniləşdirilməsi).

Yaranma mənbələrinə görə kitabxanalarda əmək məhsuldarlığının artırılması ehtiyatları aşağıdakı kimi təsnifləşdirilə bilər:

1.Ölkə üzrə

2.Şəbəkələri üzrə

3.Şəbəkələrarası

4.Bir kitabxana üzrə (kitabxanadaxili ).

Ölkə üzrə kitabxana işində əmək məhsuldarlığının artırılması məqsədilə həyata keçirilməsi zəruri olan məsələlərə aiddir:

A) Ölkə üzrə kitabxana şəbəkəsinin səmərəli yerləşdirilməsi;

B)Ayrı-ayrı regionların kitabxana təminatı səviyyəsinin bərabərləşdirilməsi;

C) Kitabxana işinin planlaşdırılmasının və idarə olunmasının təkmilləşdirilməsi və ya yeniləşməsi.

D)kitabxana işçilərinin əmək məhsuldarlığının nətijələrinə görə maddi və mənəvi maraqlandırılması meyarlarının işlənib hazırlanması.

E) Kitabxanaçılıq təhsili və ixtisasartırma sisteminin dünya standartlarına uyğunlaşdırılması.

F) kitabxanaların maliyyələşdirilməsi və müasir texniki vasitələrlə təchizatının kökündən yaxşılaşdırılması.

Şəbəkələr üzrə əmək məhsuldarlığınının ehtiyatları bu və ya digər kitabxana şəbəkəsinin spesifik xüsusiyyətləri ilə əlaqədardır. Buraya daxildir: şəbəkə kitabxanalarının yeni texniki vasitələri ilə təjhiz olunması, mövcud avadanlıqların modernləşdirilməsi, mühüm kitabxana proseslərinin mərkəzləşdirilməsi, ixtisaslaşmanın dərinləşdirilməsi, mütərəqqi dünya kitabxana təjrübəsinin kitabxanalarda tətbiqi, metodik təminatın optimallaşdırılması, şəbəkədən əmək məhsuldarlığının artırılmasına yönəlmiş məqsədli proqramların hazırlanıb həyata keçirilməsi, kadr axıcılığın qarşısının alınması.

Şəbəkələrarası əmək məhsuldarlığı ehtiyatları ilk növbədə bir sahəyə xidmət edən kitabxanaların əmək məhsuldarlığı ehtiyatlarından digər şəbəkə və ya sahə kitabxanaları üçün istifadə edilməsini nəzərdə tutur.

Şəbəkələrarası əmək məhsuldarlığı ehtiyatlarının müəyyənləşdirilməsi və tətbiqinin ən mühüm forması kitabxanalararası koordinasiya və kooperasiyasıdır.

Belə əlaqələndirmə kitab fondlarının komplektləşdirilməsi, mühüm kitabxana proseslərinin mərkəzləşdirilməsi və oxuculara xidmət işinin təşkilində əmək məhsuldarlığının artırılmasına daha səmərəli göstərə bilər.

Kitabxanadaxili əmək məhsuldarlığının artırılmasının ən mühüm ehtiyatlarının müəyyənləşdirilməsi kitabxanada müasir texnologiya və texniki vasitələrin tətbiqi ilə əlaqədardır. Bu kitabxana daxilində iki istiqamətdə həyata keçirilə bilər:

A) Ənənəvi kitabxana proseslərində texniki vasitələrin tətbiqi.

B) Yeni keyfiyyətli texnika və texnologiyanın tətbiqi nəticəsində kitabxananın məhsuldar qüvvələrinin fəaliyyətinin yeniləşdirilməsi və keyfiyyətcə yeni əmək məhsuluna nail olmaq. Başqa sözlə, oxuculara xidmətin yeni növlərini yaratmaq. Bu proses kitabxanalarda insan əməyini yüngülləşdirməklə və ona qənaət etməklə yüksək əmək məhsuldarlığının formalaşması deməkdir. Şübhəsiz ki, burada eyni zamanda kitabxanalarda əməyin elmi təşkilinin tətbiqini, əmək normalarının təkmilləşdirilməsini, kadrların ixtisasının planlı sürətdə yüksəldilməsini, onların düzgün yerləşdirilməsini və səmərəli istifadə edilməsini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində kitabxanalarda əmək məhsuldarlığının artırılması xeyli dərəcədə cəmiyyətdə sosial problemlərin həlli ilə bağlıdır.

Kitabxana işinin xüsusiyyətlərindən (xüsusən Azərbaycanda) biri də odur ki, burada ənənəvi olaraq canlı əməyin xüsusi çəkisi çoxluq təşkil edir. Bununla yanaşı, canlı əməyin tərkibində isə əl əməyinin xüsusi çəkisi də həddindən artıq çoxdur.

Kitabxanaçılıq fəaliyyətində primitiv, texniki əl əməyinin çoxluğu bir çox kitabxana proseslərinin icrasını yeknəsək, darıxdırıcı edir və bu da öz növbəsində işçilərin tez yorulmasına, nəticədə isə əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olur.

Bu baxımdan kitabxana işində fiziki, texniki əməkdən zehni, intellektual əməyə keçilməsi çox mühüm sosial və elmi problem kimi meydana çıxır.



Beləliklə, müasir dövrdə kitabxanaçı əməyində zehni, yaradıcı ünsürlərin xüsusi çəkisinin artması əmək məhsuldarlığının yüksəldilməsində mühüm amilə çevrilmişdir.

Şübhəsiz ki, kitabxanaçı əməyinin yaradıcı xarakter daşıması kadrların təhsil və peşə səviyyəsindən asılıdır.

Təcrübə göstərir ki, kitabxanalara ali təhsilli mütəxəssislər əsas etibarı ilə yaradıcı xarakterli işlərə (biblioqrafiya, təsnifləşdirmə, elmi-tədqiqat, metodik fəaliyyət və s.) daha çox meyl göstərirlər. Ali təhsilli mütəxəssislərin kitabxana işində az zehni əmək tələb edən proseslərə cəlb olunmasında onların əmək məhsuldarlığının səviyyəsinin azalmasına səbəb olur. Bununla yanaşı, hazırda Azərbaycanda kitabxana işçiləri sırasında ali təhsilli mütəxəssislərin təxminən 10-12% təşkil etməsi (rayon və kənd kitabxanalarında bu faiz daha da aşağıdır) kitabxanalarda intellektual, yaradıcı əməyin xüsusi çəkisinin inkişafına mane olan səbəblərdən ən mühümüdür. Deməli, ölkədə kitabxana işində əmək məhsuldarlığının yüksəldilməsi ali təhsilli kitabxana kadrlarının hazırlanmasının kəmiyyət və keyfiyyət göstəricilərinin artırılması ilə də şərtlənir.

Kitabxanalarda əmək məhsuldarlığının artırılmasının ən yönəmli ehtiyat mənbələrindən biri əmək intizamının lazımi səviyyədə təşkilidir.

Onu da qeyd edək ki, kitabxanalarda əmək intizamına heç də işə vaxtında gəlib getmək kimi baxmaq olmaz. Əmək intizamı biringi növbədə hər bir kitabxanada həyata keçirilən müxtəlif proseslər və əməliyyatlar arasında zəncirvarı əlaqələrin yaradılması deməkdir.

Bu nöqteyi-nəzərdən kitabxanalarda əmək intizamının möhkəmləndirilməsi və sabitləşdirilməsinə yalnız hüquqi və inzibati normalarla deyil, eyni zamanda sosial iqtisadi və elmi-metodiki normalarla nizamlanan idarəetmə metodu kimi baxmaq lazımdır. Belə ki, kitabxanalarda əmək məhsuldarlığının artmasına xidmət edən amillər içərisində kitabxanalararası və kitabxanadaxili rəqabət, maddi maraq, əməkdə fərqlənənlər üçün güzəştlər və maddi üstünlüklər müəyyən etmək, həmçinin mənəvi həvəsləndirmə metodlarından da (fəxri adlar, orden və medallar və s.) geniş istifadə edilə bilər.

Nəhayət, kitabxanalarda sağlam psixoloji, demokratik, işgüzar iqlimin yaradılması, kollektivdə əmək məhsuldarlığının artmasına

təsir göstərən insan amili kimi qiymətləndirilməlidir. Əlbətdə, kitabxana kollektivində formalaşan sağlam iqlimin təsirini konkret hesablamalar və rəqəmlərlə müəyyən etmək qeyri-mümkündür. Lakin bu məsələyə kollektivin diqqətini gəlb etməklə, əmək məhsuldarlığının artırılmasında müsbət nəticələr əldə etmək olar.

***Кязимов Р.А.***

***Производительность труда в библиотеках***

**Резюме**

*В статье освещены важнейшие могут экономического анализа производительности труда библиотечных работников.*

*Особое внимание в статье уделно вопросам повышения производительности труда выявлению резервов эффективного использования рабочего времени в библиотеках. В статье широко использованы методы экономического анализа.*

*Əli RÜSTƏMOV*
*Pedaqoji elmlər namizədi,*
*dosent*

# "İNFORMATİKA"NIN SAHƏVİ STRUKTURU VƏ KİTABXANAŞÜNASLIQ ELMLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİ

*(3-cü məqalə)*

Xüsusilə texniki informatika istiqamətində ixtiraların (patentlərin) miqdarı ilbəil sürətlə artır, monoqrayik və istehsalat xarakterli kitabların isə getdikcə azalması müşahidə edilir.

Deyilən beş il ərzində referativ jurnalda verilən əsərlərin dil etibarilə bölgüsü aşağıdakı kimidir: ingilis dili – 39,3%, rus dili – 13%, alman dili – 10,4%, fransız dili – 9,2%, digər dillərdə – 21,1%. Digər dillər qrupunda yapon, ukrayna, çex və çin dilində olan əsərlər nisbətən çoxdur. Azərbaycan dilində yazılmış əsərlər yox dərəcəsindədir (0,01%). Xüsusilə 90-cı illərin əvvəllərindən rus dilində yazılmış və bu dilə tərcümə edilmiş əsərlərin miqdarca azalması müşahidə edilir.

Verilmiş 3-cü cədvəlin məlumatları göstərir ki, nəşr edilmiş əsərlərin miqdarına görə "iqformatika" sahələri içərisində üçü daha aparıcı mövqeyə malikdir. "Texniki informatika"dan sonra ikinci yeri "Kitabxanaçılıq informatikası" tutur. Burada əsasən eksperimental tədqiqatlara və elmi-texniki işləmələrə dair əsərlərin xüsusi çəkisi çoxdur, nəzəri tədqiqatlar nisbətən azlıq təşkil edir. Tətbiqi (təcrübi) istiqamətdə əsasən müxtəlif tip şəbəkə avtomatlaşdırılmış kitabxana və biblioqrafiya sistemlərinin və sənəd-məlumat bazalarının və banklarının, elektron kataloqlarının yaradılmasına, kitabxana-informasiya sistemlərinin intellektuallaşdırılmasına və elektron nəşr texnologiyalarının işlənməsinə daha çox diqqət verilir.

Elmlərarası əlaqənin əsas daşıyıcısı müxtəlif xarakterli informasiyalardır (nəzəri müddəalar, metodlar, ideyalar, faktlar və s.).

Onlar bir elmdən digərinə (digərlərinə) keçdikdə özləri ilə həmin elmin (elmlərin) dil elementlərini, yəni termin və anlayışlar sistemini az və ya çox dərəcədə çəkib aparır, bir sıra hallarda onların əvvəlki məzmununu saxlayır, bəzən onlara yeni məzmun çalarları əlavə edir, bəzən də əvvəlki məzmunu dəyişir. Buna görə də elmlərin inteqrasiya istiqamətlərini, məzmununu və intensivlik dərəcəsini terminoloji təhlil, terminoloji miqrasiya əsasında tədqiq etmək mümkündür. Bu məqsədlə əksər hallarda tədqiq edilən əlaqədar sahələrin terminoloji lüğətlərindən və bəzən də referativ nəşrlərindən istifadə edirlər. Yeri gəlmişkən demək lazımdır ki, xüsusilə 70-ci illərdə "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq" terminologiyası sahəsində xeyli elmi araşdarmalar aparılmış, keçmiş SSRİ xalqlarının dillərində bir sıra terminoloji izahlı lüğətlər tərtib edilmiş və terminlərin standartlaşdırılması yönümündə elmi və təcrübi işlər görülmüşdür.[1] Lakin, təəssüf ki, bu əsərlərdə elmlərin terminoloji əlaqəsi probleminə baxılmamışdır, ancaq milli dillərdə olan kitabxanaçılıq terminləri lüğətləri[2] müqayisəli təhlil edilmiş, bəzi terminlərin məzmunu barədə mübahisə doğuran məsələlər araşdırılmışdır.[3]

---

[1] *Məs: Проблемы упорядочения и стандартизации терминологии библиотековедения //Сб.научн.тр. – М., 1979, 71с.; Терминология библиотечного дела //Сб.научн.тр.Вып.I, М.; 1975, 98 с.; Вып.II, М.; 1971, 56 с.; Актуальные проблемы терминологии библиотечного дела //Сб.научн.тр. М., 1981, 126 с.; ГОСТ 7.0.77. Библиография. Термины и определения. М., 1978, 8 с.; ГОСТ 16447-78. Издания: Термины и определения. М., 1978, 11с. və s.*

[2] *Məs: Бабаян А. Словарь библиотечных терминов. Русско-армянский и армяно-русский. –Ереван,. 1950, 265с.; Линния С.Д. Латышско-русские библиотечные и библиографические термины. – Рига, 1976, 312 с.; Казахско-русский словарь библиотечных терминов. – М., Книга, 1976, 342с.; Бродский Б.А., Абдуррахманов Х. Русско-узбекский терминологический словарь по библиотечному делу. Ташкент, 1979, 238 с.*

[3] *Корма Т.Ю. О неясном в классификационной терминологии //Актуальн.пробл.терминологии библ. дела. Сб.научн.тр. – М., 1981, с.101-106 с; Гольдберг А.А. Проблемы отражения взаимосвязей наук о книге в терминологии библиотечного дела //Докл.межресп.науч.-техн.конф.(г.Рига, 28-30 ноября 1979 г). – М., 1979, с.7-12; Смирнова Э.Р. Определение понятия «Ведомственная литература» //Актуальн.пробл.терминологии библ.дела. Сб.научн. тр. – М., 1981, с.113-121.*



Yeri gəlmişkən, demək lazımdır ki, isnad verilən məcmuələrdə alçaq qonşumuz Ermənistan mütəxəssislərinin 5-6 məqaləsində hələ 50-ci illərdə Ermənistanda erməni dilində kitabxana işinə dair tərtib etdikləri terminoloji lüğət təriflənib göylərə qaldırıldığı, Ukrayna, Latviya, Estoniya, Özbəkistan, Qazaxıstan və digər respublikaların mütəxəssisləri kitabxana işinə dair tərtib etdikləri və nəşr etdikləri lüğətlər barədə yazdıqları halda, biz hələ də gözləmə mövqeyi tuturuq. Burası məlum deyil ki, kimi və nəyi gözləyirik. Cilalanmış və sabit milli elmi terminologiya sistemi olmadan nə səmərəli elmi ünsiyyət, nə mütəxəssislərin aydın və elmi mənada başa düşə biləcəyi elmi əsər, nə tədris vəsaitləri yazmaq, nə də ümumiyyətlə, keyfiyyətli tədris etmək mümkündür. Məsələn, milli elmi dilimizdə biri "oxucu", digəri "abonent", başqa birisi "istifadəçi", bir başqası "tələbatçı" deyir. Demək olar ki, eyni obyekti ifadə edən bu anlayışların biz hansını rəsmi şəkildə qəbul etməliyik? Yüzlərlə belə misal göstərmək olar. Müəyyən elmin dilini yaratmaqla biz onun ifadəetmə imkanlarını daha da artırırıq, onu dəqiq işləyən mexanizmə çeviririk, eyni zamanda ana dilimizin ifadə imkanlarını və qüdrətini daha da gücləndirmiş oluruq. Millətin varlığını ana dili, elmin varlığını isə elmi dil müəyyənləşdirir.

Lakin əsas mövzuya qayıdaraq qeyd etməliyik ki, "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq"la "informatika"nın inteqrasiyasını terminoloji baxımdan təhlil etmək üçün göstərilən iki sahədə milli terminlər lüğəti yoxdur. Buna görə də milli dildə ilk dəfə tərtib edilmiş çoxdilli "İnformatika lüğəti"ni[1] də biz burada qəsdən kənarda qoyuruq və rus dilində olan iki lüğətin[2] əlaqədar məlumatlarını aşağıdakı cədvəldə qısa şəkildə veririk (*cədvəl 4*).

---

[1] *Rüstəmov Ə.M., Hüseynov E.M. İnformatika. Azərbaycan, rus və ingilis dillərində izahlı terminlər lüğəti. – B., 1996, 370 s.*

[2] *Библиотечное дело. Терминологический словарь. 2-е изд. Перераб. и доп. – М., 1986, 223 с.; Першиков В.И., Савинков В.М. Толковый словарь по информатике. Более 15 тыс.терминов. – М., 1991, 678 с.*

Cədvəl 4

| *Библиот.дело.Терминолог.с ловарь* (*İnforomatika terminləri*) | Səhifə | *Талковый словарь по информатике* (*Kitabxana və bibliografiya terminləri*) | Səhifə |
|---|---|---|---|
| 1 | *2* | 3 | *4* |
| İnformasiya | *59* | Biblioqrafik göstərici | *14* |
| Elmi informasiya | *86* | Biblioqrafik təhlil | *22* |
| Elmi informasiya fəaliyyəti | *87* | Anketləşdirmə | *24* |
| Elmi-texniki informasiya | *88* | Arxiv | *26* |
| İnformasiya tələbatçısı | *114* | Təsnifat | *141* |
| İnformasiyanın işlənməsi | *13* | Təsnifat qrupu | *74* |
| İkinci növ sənəd | *38* | Sənədlərin sərlövhəsi | *98* |
| Rubrikator | *129* | Biblioqrafik informasiya | *130* |
| Soraq-informasiya fondu | *141* | Xətti-tabeli təsnifat | *141* |
| İnformasiya texnologiyası | *59* | Faset təsnifatı | *141* |
| İnformasiya tələbatı | *58* | Sənəd həcmi | *232* |
| İnformasiya xidməti | *58* | Biblioqrafik axtarış | *277* |
| İnformasiya sorğusu | *48* | Təsnifat əlaməti | *258* |
| Faktoqrafik arayış | *156* | Kitabxana texnikası | *400* |
| İnformasiya axtarışı | *59* | Əlifba göstəricisi | *408* |
| Axtarış dolğunluğu | *113* | Fond | *426* |
| İnformasiya təminatı | *58* | Sənəd formatı | *429* |
| İnform. seçil. yayılması | *53* | Şifrə | *438* |
| Dövlət ETİ sistemi | *43* | | |
| Elmi-texniki inform. orqanı | *98* | | |
| Beynəlxalq inform. sistemi | *80* | | |
| İnformasiya axtar. sistemi | *89* | | |
| Sənəd-inform. axtar. Sistemi | *48* | | |
| İnform. axtarış kütləsi | *59* | | |
| Relevantlıq | *127* | | |
| Pertinentlik | *107* | | |
| İnform. axtarış dili | *59* | | |
| Açar söz | *67* | | |
| İndeksləşdirmə | *56* | | |
| Koordinat indeksləşdirməsi | *71* | | |
| Deskriptor | *45* | | |
| Deskriptor inf. axt. dili | *45* | | |
| Sənədin axtarış əlaməti | *111* | | |
| Sorğunun axtarış əlaməti | *111* | | |



| 1 | *2* | 3 | *4* |
|---|---|---|---|
| Paradiqmatik münasibət | *103* | | |
| İnform.axtarış tezaurusu | *59* | | |
| Veriliş meyarı | *75* | | |
| İnformasiya texnikası | *56* | | |
| Hesablama texnikası | *40* | | |
| Axtarış qurğusu | *111* | | |
| Terminal | *148* | | |
| Perforator | *107* | | |
| Perfolent | *107* | | |
| Perfokart | *107* | | |

Qeyd etmək lazımdır ki, cədvəldə birinci göstərilən terminoloji lüğətdə 1300, ikinci göstərilən lüğətdə isə 15 min termin və anlayışın izahı verilmişdir. Bu fakt özlüyündə aydın göstərir ki, "informatika"nın termin və anlayışları daha çoxdur. Deyilən rəqəm hələ "informatika" terminologiyasının son həddi deyildir. Bizə məlum olan və son illərdə nəşr edilmiş başqa lüğət-sözçülükdə[1] "informatika"nın 45 min işlək termin və anlayışlarının adları verilmiş, lakin məlum səbəblərə görə izahı verilməmişdir. Terminlərin nisbətən çoxluğu, zənginliyi onu ifadə edir ki, "informatika"nın inteqrasiya olunduğu elm və texnika sahələri daha çoxdur. Bunlardan "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq"la inteqrasiya və onlardan doğan "Kitabxanaçılıq informatikası" da vardır.

Verilmiş 4-cü cədvəldən görünür ki, "informatika"nın kitabxanaşünaslığa və biblioqrafiyaşünaslığa təsiri daha fəaldır. Belə ki, "Библиотечное дело. Терминолог. Словарь" lüğətində verilən 1300 termindən 45-i "informatika" terminləridir. İkinci deyilən lüğətdə isə 15 min termindən 20-si kitabxanaşünaslığa və biblioqrafiyaşünaslığa aid edilə bilər. Beləliklə, görürük ki, terminoloji əlaqələr baxımından hər üç elm sahəsi inteqrasiya olunmuşdur və burada kitabxanaşünaslıq və biblioqrafiyaşünslığın terminoloji informasiya balansı "informatika"ya nisbətən müsbətdir. Bu fakt sübut edir ki, "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq" "informatika"nın nəzəri, metodiki və təcrübi arsenalını öz ənənəvi tədqiqat obyektlərinə fəal surətdə cəlb edir və bu proses də

[1] *Англо-русский терминологический словарь по информатике. Список терминов. – М., 1990, 515 с.*

terminoloji miqrasiyaya səbəb olur. Nəticədə hər üç elm sahəsinin inteqrasiyası fonunda elmi və təcrübi nəticələr çoxalır və yeni bir müştərək elmin ("Kitabxanaçılıq informatikası"nın) yaranmasına səbəb olur. Cədvəlin 1-ci sütununda verilmiş terminlərin 95-96%-i məhz "Kitabxanaçılıq informatikası" terminləridir. Burada yalnız sonuncu altı termin "texniki informatika"ya aiddir ki, bu da təbii haldır. Çünki "informatika" elmlərinin də təbii ki, sahədaxili inteqrasiyası baş verir.

Cədvəlin 3-cü sütununda verilmiş terminlər də "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq" mənşəli "Kitabxanaçılıq informatikası" terminləridir. Bunların adlarından görünür ki, bu elmi ən çox maraqlandıran texnoloji (təcrübi) yönümlü "kitabxanaşünaslıq" (məsələn, kitabxana təsnifatları, kitabxana kataloqları) və "biblioqrafiyaşünaslıq" (biblioqrafik təsvir, biblioqrafik axtarış vasitələri) sahələridir (fənnləridir).

Çox maraqlıdır ki, "kitabxanaşünaslıq"da və "biblioqrafiyaşünaslıq"da geniş işlənən bir sıra anlayış və terminlər yuxarıda deyilən "İnformatika" lüğətində ad etibarilə eyni, lakin məzmun etibarilə tamamilə fərqlidir. Məsələn, "Kitab" (s.145), "Kitabxana" (s.35), "Kitabxanaçı" (s.36), "Kataloq" (s.138), "Kataloqlaşdırma" (s.139) belə terminlərə misal ola bilər. Bu terminlərdən ikisinin lüğətdə izahını olduğu kimi, tərcümə etmədən veririk:

"Книга" – I. В операционной системе ДОС, ЕС ЭВМ – текст программы на одном из языков программирования , являюшийся единицей хранения и помешаемый библиотекарем в библиотеку исходных модулей; II. Организация файла в языке Алгол-68.

"Библиотека" – I. Организованная совокупность машинных программ в памяти ЭВМ; II. Набор данных на устройстве прямого доступа, состояшей из оглавления и разделов, иденцифируемых в оглавлении по имени.

Göründüyü kimi, "informatika"da bir sıra "kitabxanaşünaslıq" və "biblioqrafiyaşünaslıq" terminləri fərqli mənalarda işlənir və bu da ümumiyyətlə elmi terminologiyada təbii haldır. Məsələn, "informatika"da "semiotika" anlayışı dedikdə işarələr haqqında elm, tibbdə isə xəstəlik əlamətlərini təsvir edən elm sahəsi (bölməsi) nəzərdə tutulur. Buna görə də milli dildə tərtib olunan "İnformatika"



lüğətində[1] deyilən kitabxanaçılıq terminlərinin düzgün qarşılığının tapılmasına və mənaca yaxınlaşdırılmasına cəhd edilmişdir. Məsələn, "Книга" – "Fayl kitabı", "Библиотека" – "Proqramxana", "Каталог" – "Fayl yığımı" və s.

*Рустамов А.М.*

***Отраслевая структура информатики и некоторые вопросы ее взаимосвязи с библиотечными науками***

*(3-я статья)*

**Резюме**

*Взаимосвязи информатики и библиотековедения исследованы с применением трех методов: узкотематический анализ «Информатика», миграция терминосистемы и анализ научных ссылок.*

*В предыдущей серии статьи приведены результаты анализа «Информатика».*

*В данной (3-ей) серии статьи отражены результаты анализа миграционных процессов терминосистемы информатики и библиотековедения. Установлены более активной роли информатики в обогощении терминологической системы библиотековедения и библиографоведения.*

[1] *Rüstəmov Ə.M., Hüseynov E.M. İnformatika. Azərbaycan, rus və ingilis dillərində izahlı terminlər lüğəti. – Bakı, 1996, 363 s.*

*Aşur ƏLİYEV*
*Tarix elmləri namizədi, dosent*

# KİTABXANA FONDUNUN FORMALAŞDIRILMASININ YENİ PRİNSİPLƏRİ VƏ ONLARA MÜASİR BAXIŞLAR

Azərbaycan Respublikasının suverenliyə və tam müstəqilliyə qovuşması dövründə kitabxanaların qarşısında çox ciddi vəzifələr durur. Bu mühüm vəzifələrdən biri də kitabxananın öz informasiya potensialından oxucuların məqsədyönlü şəkildə istifadə etmələrinə hərtərəfli kömək etməlidir.

Təsadüfi deyildir ki, "Kitabxana işi haqqında" qanunda (1999, 14 mart) bu işə yüksək qiymət verilmiş və qeyd edilmişdir ki, "Kitabxana – elmi informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi, çap əsərlərini və dicər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur[1].

Respublikamızda müxtəlif növ və tip kitabxana fondları mövcuddur. Bu fondların komplektləşdirilməsi fərqli xarakter daşısa da onlar bir sıra ümumi cəhətlərə malikdir. Bura komplektləşdirmənin prinsipləri, onun elmi əsaslandırılması, komplektləşdirmənin növ və metodları daxildir. Lakin bununla belə hər bir kitabxana konkret növ və tipinə görə bir sıra xarakterik komplektləşdirmə prinsiplərinə malikdir.

Fondun formalaşması səmərəliliyində bir sıra əsas prinsiplərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Belə ki, kitabxana fondunun formalaşması prinsipləri bütünlükdə vahid fondun yaranmasına mühüm təsir göstərir. Onun aktuallığını, informativliyini və digər mühüm əlamətlərini nəzərə alır, sənədlər toplusunun ümumi məqsədyönlü komplektləşməsini tənzimləşdirir.



Heç bir kitabxanaçı bu prinsipləri dərk etmədən, öyrənmədən fondun formalaşmasını həyata keçirə bilməz.

Bu baxımdan fondun formalaşması prinsiplərini nəzərdən keçirmək və onları müasirlik baxımından izah etmək xüsusi tədqiqat obyekti kimi maraqlıdır.

Keçmiş SSRİ məkanında fondşünaslıq fikrinin yaranması tarixi və inkişaf mərhələləri müxtəlif müəlliflər tərəfindən mövcud marksizm-leninizm ideologiyası əsasında təhlil edilmiş və ümumiləşdirilmişdir. SSRİ-də fondşünaslıq fikirlərinin, komplektləşdirmə prinsiplərinin və seçmə nəzəriyyəsinin hazırlanması fikrinin yığcam, bir-birinə oxşar formada hazırlanması 20-40-cı illərin alimlərinin A.A.Pakrovskinin, L.B.Xavkinanın, V.N.Denisyevin, A.N.Barabaşovun, Y.V.Qriqoryevin və s. əsərlərində öz əksini tapmışdır[2].

Adları çəkilən fondşünas alimlərin bütün əsərlərində bu problem üç istiqamətdə – partiyalılıq, profillilik və planlılıq kimi verilmişdir.

50-70-ci illərdə isə kitabxana fondlarının formalaşdırılması və komplektləşdirilməsi prinsiplərinin inkişafı sahəsində fondşünas alimlərdən Y.V.Qriqoriyev, T.D.Aydenberq, K.L.Varonko, N.S.Kartaşov, V.İ.Akimova, T.A.Mistryukovanın və s. müəllifləri göstərmək olar[3]. Onlar kitabxananın fondunun komplektləşdirilməsi prinsiplərinin konkretləşdirilməsi, təkmilləşdirilməsi sahəsində əvvəlki fondşünas alimlərdən müəyyən qədər irəli getmiş və əlavələr etmişlər.

Lakin bu müəlliflər komplektləşdirmə prinsiplərini tam dəqiqləşdirə bilməmişlər. Hətta "Kitabxana fondşünaslığının görkəmli klassiki" hesab edilən Y.V.Qriqoryev əslində fondun komplekləşdirilməsi prinsiplərinin təkmilləşdirilməsi problemi sahəsində elə bir mühüm yenilik gətirə bilməmişdir. Lakin o, 1973-cü ildə yazdığı "Teoretiçeskie osnovı formirovaniə bibliotečnıx fondov" əsərində "seçmə nəzəriyyəsi və seçmə prinsipi" fikrini irəli sürmüşdür və hazırda bu ədəbiyyatın seçmə prinsipi kimi formalaşmışdır[4].

80-90-cı illərdə isə uzun müddət fondun formalaşdırılması və onun prinsiplərinin nəzəri problemləri ilə məşğul olan müəlliflərdən professor Y.N.Stolyarov, V.İ.Tereşin, E.P.Arefeyeva respublikamızda professor A.A.Xələfov, M.M.Həsənov, R.Ə.Kazımov öz əsərlərində bu prinsiplərin təkmilləşdirilməsi sahəsində xeyli iş görmüşlər[5].

Y.V.Qriqoriyevin tələbəsi və davamçısı hesab edilən Y.N.Stolyarov 1979-cu ildə yazdığı "Bibliotečnıe fondı" dərslərində komplektləşdirmənin prinsiplərini üç aspektdə vermişdir. Müəllif partiyalıq prinsipini saxlamaqla sonrakı iki prinsipi yeniləşdirərək "profillik və əlaqələndirmə", "sistemlilik və planlılıq" kimi müəyyənləşdirmişdir. Y.N.Stolyarov 1991-ci ildə yazdığı "Библиотечный фонд" (təkrar nəşri) dərsliyində isə bu prinsiplərə yenidən baxmış və onları aşağıdakı kimi qruplaşdırmışdır: "Seçmə prinsipi"; "Rəqabətlik prinsipi"; "profillik-əlaqələndirmə" və "sistemlilik prinsipi"[6].

Sonuncu dərsliklərin müəllifləri kitabxana fondunun formalaşdırılması prinsiplərini müxtəlif istiqamətdən müəyyənləşdirmişlər. Moskva Dövlət Mədəniyyət Universitetinin professoru V.İ.Tereşinin1996-cı ildə kitabxanaçılıq şöbələri və kollecləri üçün hazırladığı "Bibliotečnıe fondı" adlı dərs vəsaitində fondun formalaşmasının prinsipləri aşağıdakı kimi qruplaşdırılmışdır: a) elmilik prinsipi, b) uyğunluq prinsipi, c) çoxluq prinsipi, ç) tamlıq prinsipi, d) profillik-əlaqələndirmə prinsipi, e) qənaətcillik prinsipi, ə) operativlik prinsipi[7].

Lakin ali məktəblərin tələbələri üçün "Kitabxana fondu" dərslərinin əsas müəlliflərindən biri hesab edilən professor Y.N.Stolyarovun tərtib etdiyi yeni dərsliyinin proqramında isə bu prinsiplər dörd istiqamətdə müəyyənləşdirilmişdir: a) seçmə prinsipi, b) uyğunluq prinsipi, c) profillik-əlaqələndirmə prinsipi və ç) tamlıq prinsipi.

Göstərilən hər iki müəllifin hazırladığı dərsliklərdə kitabxana fondunun formalaşdırılmasının prinsiplərində vahid sistemin olmadığı müşahidə edilir. Lakin hər iki müəllifin dərsliklərdə verdikləri prinsipləri ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar: a) elmilik prinsipi; b) seçmə prinsipi, c) uyğunluq prinsipi, ç) tamlıq prinsipi, d) profillik-əlaqələndirmə prinsipi, e) müntəzəmlilik və planlılıq prinsipi, ə) millilik prinsipi və s.

Göstərmək lazımdır ki, fondun formalaşdırılmasında adları çəkilən bu prinsiplərin hər birinin özünə məxsus yeri vardır. Bu prinsipləri ayrı-ayrılıqda nəzərdən keçirmək və onların mahiyyəti və əhəmiyyəti haqqında məlumat vermək yerinə düşərdi.

*Elmilik prinsipi: Kitabxana fondunun* formalaşması komplektləşdiricidən elmi cəhətdən əsaslandırılmış bilik və bacarıq tələb edir. Kitabxanaçı tərəfindən həyata keçirilən hər bir tədbir



kitabxana fondunun yaradılmasına təsir göstərən bütün optimal amillərin nəzərə alınmasını isnad etməlidir. Xüsusilə qeyd etmək lazımdır ki, kitabxanaçı təkcə təcrübi-peşə vərdişlərinə deyil, hər bir texnoloji prosesin təşkilində elmi yanaşma metoduna malik olmalıdır. Kitabxanaçı həm praktik, həm də işin elmi təşkilini bilən, təhlil edən mütəxəssis hesab olunur. Belə tələblər kitabxanaçı qarşısında ona görə qoyulur ki, kitabxana və onun fondu bəşəriyyətin elmi, bədii, istehsalat fəaliyyəti prosesində yaranan biliklər xəzinəsindən ibarətdir. Belə bir şəraitdə təbii olaraq işin təşkilinə elmi yanaşmadan onu həll etmək mümkün deyildir. İkincisi, kitabxanaçıların fəaliyyəti dinamik xarakter daşıyır və məhz buna görə də müntəzəm olaraq, yeni səmərəli işi forma və metodlarının axtarışına tələbat yaradır.

Beləliklə, kitabxana fondunun elmilik prinsipini aşağıdakı şəkildə ifadə etmək olar:

a) Böyük miqyasda elmi, istehsalat, təcrübi və bədii dəyərləri, informasiyaları özündə əks etdirən mənbələrin müəyyənləşdirilməsi;

b) Kitabxana fondunun inkişaf ənənələrinin, habelə dünya miqyasında elmin, texnikanın, mədəniyyətin, nəşrlər axınının və oxucu sorğularında baş verən dəyişikliklərin və s. öyrənilməsi. Bu öyrənmə nəticələri kitabxana fondunun formalaşma optimallığının əsasını təşkil etməlidir;

c) fondla aparılan bütün işlər ciddi planlılıq xarakteri daşımalıdır;

ç) Kitabxana fondunun formalaşması proseslərinin avtomatlaşdırılmasında tətbiq edilən səmərəli əmək üsullarını və metodlarını nəzərə almalı;

d) Sənədlərin biblioqrafik vəsaitlərin köməkliyi ilə seçilməsi, oxucu psixologiyasına görə fondun dərk edilməsi, açıq rəf üsulu şəraitində fondun düzülüşünün təşkil edilməsi, habelə bu iş metodlarının öyrənilməsi ilə əlaqədar olaraq elmi prinsiplərə nəzarət edilməsi.

*Seçmə prinsipi:* Sistem nöqteyi-nəzərindən kitabxana fondunun formalaşmasını bir üsul kimi təmin edən kitabxana fondunun kumulyativ (toplanma) funksiyası ilə müəyyənləşdirmək mümkündür. Bu funksiya lazımi sənədlər axınına istinad edir və bu axının digər sənədlərlə, habelə kitabxana oxucuları ilə əlaqəsində, daha doğrusu sənədlərin kitabxana fonduna çevrilməsi zəruriliyində

özünü göstərir. Daha sadə desək kitabxana oxucusu arasında qarşılıqlı uyğunluğa nail olmaq üçün nəşr olunan bütün sənədlər kütləsi içərisindən ən aktualını seçmək lazımdır. Buna görə də seçmə prinsipi kitabxana fondunun formalaşmasının ən mühüm, ilkin prinsipini təşkil edir. Digər prinsiplər isə onun üzərində qurulur.

Seçmə prinsipi sənədlərin qiymətləndirilməsi prosesi kimi nəzərə alınır və bu da kitabxana vəzifələrinə, oxucuların informasiya tələbatına daha çox uyğun gələn sənədləri müəyyənləşdirməyə və ya fondda ən qiymətli sənədləri saxlamağa imkan verir. Seçmənin mahiyyəti oxucunun informasiya tələbatına uyğun gələn, lakin ona eyni zamanda yeni biliklərlə tanış edən sənədləri müəyyənləşdirməkdən ibarətdir.

Seçmə prinsipi öz növbəsində tələb edir ki, sonrakı mərhələdə ona məxsus siyasi, ideoloji və texnoloji prinsiplərin həyata keçirilməsi öyrənilsin.

*Uyğunluq prinsipi:* Kitabxana fondunun formalaşmasının *prinsiplərindən birini uyğunluq prinsipi təşkil edir ki, bu da fondun* formalaşmasının sosial prinsipinə əsaslanır.

Uyğunluq prinsipi ən qiymətli sənədlərin seçilməsinə və alınmasına isnad edir, komplektləşdirmənin ən xarakterik xüsusiyyətlərini müəyyənləşdirir. Uyğunluq prinsipi fondun yeniləşdirilməsini təmin edir, habelə istifadəetmə dəyərini itirən sənədlərin fonddan çıxarılmasına mühüm təsir göstərir.

Uyğunluq prinsipinin tətbiqi zamanı kitabxana fondunun formalaşmasına bir sıra daxili və xarici amillər təsir edir. Birinci bura kitabxana işçilərinin peşə hazırlığı, fondun saxlanılmasına və inkişafına dair büdcə (pul) xərcləri, fondun mühafizəsi üçün binanın mövcudluğunu, fondun və digər proseslərin mexanikləşdirilməsi üçün vəsaitlərin alınması nəzərdə tutulmasıdır. İkinci qrup amillərə isə oxucu kontingenti, sorğu tələbatı, informasiya axınının və kitab bazarının vəziyyəti, bir-birinə yaxın məsafədə yerləşən kitabxana fondlarının qarşılıqlı əlaqələri və s. Bütün bunlar fondun formalaşmasına öz təsirini göstərir.

Bu prinsip sənədlərin oxucu tələbatına uyğun seçilməsinə əsl obyektiv baxımdan yanaşmağı irəli sürür. Uyğunluq prinsipi ona görə elmi məna kəsb edir ki, o komplektləşdirmədə ən mühüm sorğu əlamətlərini, fondun tutum əmsalını kompleks şəkildə təhlil etməyə imkan verir. Burada əsas prinsipial mövqe kitabxana



fondunun oxucu tələbatına uyğun gəlməsi potensialı təşkil edir. Çalışmaq lazımdır ki, oxucu tələbatına uyğun gəlməyən sənədlər kitabxana fondundan təcrid olunsun.

Kitabxanalarımız çalışırlar ki, öz fondlarında ən mühüm özəyi təşkil edən, dövrün sınağından keçən elmi və bədii ədəbiyyatı, həqiqəti ifadə edən yüzlərlə, minlərlə müəlliflərin əsərlərini əhatə etsin, fondlarını oxucu tələbatına uyğun şəkildə formalaşdırsın.

Kitabxana fondunun tamlıq prinsipi: bu prinsipin nəzərə alınması uyğunluq prinsipindən əsaslanır, bu fondun konkret kitabxanada oxucuya zəruri olan bütün sənədlərin (dünya sənədlər kütləsindən) əldə edilməsinə əsaslanır. Kitabxana fondunun tamlığını iki növə ayırmaq olar:

1)Sənədlərin tamlığı, daha doğrusu fondda informasiyanın keyfiyyətindən asılı olmayaraq mövzuahə və universal bilik komplekslərinə görə bütün sənədlərin alınmasını nəzərdə tutur. Məs: milli ədəbiyyətın mütləq tamlığı iri kitabxanaların milli depozitlər fondlarına aiddir. Bir qayda olaraq məcburi nüsxə əsasında təmin olunur.

2)İnformasiya tamlığı, daha doğrusu fondda bütün mövzu, sahə və digər məsələlərə dair bütün informasiya əhatə olunur ki, burada heç bir sənədin növü, miqdarı nəzərdən qaçırılmır. Elmi kitabxanalarda çalışırlar ki, fondda orijinal və yeganə olan informasiyaları, ilkin məlumət daşıyıcılarını əks etdirsin; kütləvi kitabxanalar isə klassik ədəbiyyatı geniş oxucu kütləsi üçün nəzərdə tutulan elmi-kütləvi nəşrləri, dünya hadisələrini əks etdirən informasiyanı əldə etsinlər. Bir qayda olaraq kitabxanalarda tamlığın hər iki növü əlaqəli şəkildə həyata keçirdilər. Bununla belə elə sənədlər mövcuddur ki, yalnız orijinal informasiyanı (kəşflər, standartlar və s.) əhatə edir. Bunların əldə edilməsi eyni zamanda həm fondun informasiya, həm də sənədlər tamlığını təmin edir. Fondun sənədlərlə və informasiya ilə mütləq tamlığını təmin etmək mümkün deyildir, lakin buna ciddi səy göstərmək lazımdır. Məhz bu məqsədlə kitabxanalar son illərdə fondların komplektləşdirilməsində tamlıq prinsipinə böyük diqqət yetirir.

*Profillik-əlaqələndirmə prinsipi:* profillik və əlaqələndirmə ixtisaslaşma, daha doğrusu konkret oxucu kontingentinin tələbatına uyğun şəkildə bütünlükdə fondun tərkib hissələrinin şüurlu surətdə mövzu və digər əlamətlərə görə məhdudlaşdırılması nəzərdə tutulur. Belə bir ixtisaslaşma yalnız elə bir şəraitdə özünü doğrulda

bilər ki, sənədlərin komplektləşdirilməsi və istifadəsi sahəsində sıx əlaqə yaradmaqla yanaşı kitabxana fondları (konkret kitabxananın digər quruluş bölmələrinin yarım fondları ilə) haqqında kifayət qədər məlumat əldə edilmiş olsun.

Profillik kitabxanaya məxsus olan istiqamətlərdə yondun tərkib hissələrinin nisbi uyğunluğunu, yəni fondda əhatə olunan sənədlərin tipini, növünü, dil xüsusiyyətlərini, məqsədini və s. nəzərdə tutur. Burada kitabxanaların tipi, növü, vəzifəsi və işin həcmi, xidmət etdiyi mikrorayonun profili, oxucu kontingenti, onların milliyyəti, yaş tərkibi, maraq xüsusiyyətləri, konkret rayonda fəaliyyət göstərən kitabxana fondlarının tərkibini və xüsusiyyətləri əhatə olunur. Əsas mövzuya dair sənədlər daha mükəmməl seçilir. Belə ki, kitabxanalar fondun əsas profilinə uyğun gəlməyən qarışıq elm sahələrinə dair sənədləri seçmə yolu ilə əldə edir. Bu prinsip sənədlərin kitabxananın quruluş bölmələrinə görə bölgü uyğunluğunu nəzərdə tutur.

Fondun hissələrinin uyğunluğu kitabxananın tipindən, onun oxucu kontingentindən asılıdır. Belə ki, əgər kütləvi kitabxanalarda, dövri nəşrlər fondu bütünlükdə 13-15% təşkil edirsə, mühüm informasiya operativliyinə malik olan elmi kitabxanalarda bu nəşrlər çox hallarda 50%-dən çox olur. Kütləvi kitabxanalarda elmi-kütləvi ədəbiyyat fondun dörd bir hissəsini təşkil edirsə, elmi kitabxanalarda bu ədəbiyyat dəfələrlə az olur. Elmi kitabxana fondlarının yarıdan çoxu xarici dillərdə olan sənədlər təşkil edirsə, kütləvi kitabxanalarda onların miqdarı cüzidir.

Profillik kitabxanaya öz işini kitabxananın xidmət etdiyi sahənin qarşısında duran sosial və istehsalat vəzifələrinə maksimum dərəcədə tabe etməyə imkan verir.

Ümumiyyətlə, profil nöqteyi-nəzərindən fondun tərkibini dörd yerə ayırmaq olar:

a) Kitab özəyinin həmişə hər yerdə (kütləvi kitabxanalar müstəsna olmadan bütün kitabxanalar) mövcud olması;

b) Kitabların həmişə olması, lakin hər yerdə yox; (Məsələn, bu və ya digər xalqın milli əmlakını təşkil edən).

c) Ümumi, lakin müvəqqəti maraq yaradan, həmişə deyil, hər yerdə olması məsləhət görülən kitablar (kitab özəyinə daxil olmayanlar);



d) Əgər burada nəzərə alsaq ki, hər yerdə həmişə olması nəzərdə tutulmayan kitablar fondun tamamlanmış modelinə çevrilə bilər.

Profillik yalnız b və d sənədlər qrupunun əlaqələndirilməsi prosesində səmərəli ola bilər. Bu iki proses arasında dialektik əlaqə mövcuddur. Fondun (o əlaqələndirmə prosesinin təcrübi ifadə vasitəsi kimi meydana çıxır) əlaqələndirilməsinin ləğv edilməsi fondun ixtisaslaşma (profilləşmə) mahiyyətini heçə endirir, əlaqələndirmə şəraitində kitabxanalardan sənədlərin əldə edilməsi imkanı-sistem iştirakçılarında inamsızlıq yaradır.

Müxtəlif kitabxana fondlarının əlaqəli komplektləşdirilməsi fikri ilk dəfə rus kitabxanaşünqası F.F.Reyss tərəfindən irəli sürülmüş və əsaslandırılmışdır. N.A.Rubakin isə təklif edirdi ki, eyni regiona məxsus kitabxana nümayəndələrindən ibarət "kitab komissiyası" yaradılsın və bunların da ən mühüm vəzifələrindən birini də kitabların alınması təşkil etsin.

Kitabxana fondunun komplektləşdirilməsində onun əlaqələndirilməsi *ən mühüm və məsuliyyətli prinsiplərdən biridir.* Əlaqələndirmə ümumi sistemin digər kitabxana fondlarının profil etibarilə qarşılıqlı əlaqəsini, bir-birinin tamamlanmasını, bir-birinə kömək etməsini nəzərə alır. Belə ki, profilli mövzular hesabına formalaşan və daha tez-tez soruşulan sənədlər hesabına qiraət salonlarının köməkçi fondlarının əsası qoyulur. Mərkəzləşmə şəraitində komplektləşdirmənin əlaqələndirilməsi bir tərəfdən MKS-ə daxil olan kitabxanalar arasında (sistemdaxili əlaqələndirmə), o biri tərəfdən isə müvafiq MKS və başqa kitabxana sistemləri isə yeni ədəbiyyatın alınmasında müəyyən razılığa gəlmək deməkdir. Bu da vahid kitabxana fondu şəraitində sənədlərin müvafiq şəkildə filial-kitabxanalar arasında bölüşdürülür və oxucuların sorğularının tam və operativ təyin edilməsini yüksəltməyə imkan verir, fondun qeyri-mütəşəkkil inkişafına və eyni sənədlərin təkrar alınmasına yol vermir, sənədlərin alınmasında və mühafizə edilməsində dövlət vəsaitinin səmərəli istifadəsini təmin edir.

Kitabxana fondunun komplektləşdirilməsi ərazi, idarə və idarələrarası, elm sahələri və nəşr tipləri əlamətlərinə görə həyata keçirilə bilər. Məsələn, müəyyən bir elm sahəsinə dair elmi nəşrləri bir kitabxana, elmi-kütləvi və dərs vəsaitlərini isə başqa kitabxana komplektləşdirə bilər. Beləliklə kitabxana fondunun formalaşmasının əlaqələndirmə mahiyyəti ondan ibarətdir ki,

müxtəlif tipli və növlü kitabxanaları müəyyənləşdirməyi, sənədlərin kitabxanalar arasında bölüşdürülməsində əlaqələndirmənin və konkret münasibətlərin saxlanması zəruriliyinə əməl edilsin, daha tez-tez soruşulan sənədlərin ilk növbədə lazım olan oxucu qruplarına yaxınlaşdırılması məqsədi gözlənilsin.

Əlaqələndirmə oxucuların ümumi, xüsusi, fərdi marağını nəzərə almaqla həyata keçirilir. Əlaqələndirmə iştirakçısı olan hər bir kitabxanada hər hansı sənədin daxil olması məsələsi nəzəri cəhətdən informasiya tələbatının quruluşu haqqında olan təlim əsasında həll olunur. Necə deyərlər, bir kitabxanaya *məxsus olan* ötəri oxucu marağı digər kitabxanaları üçün xüsusi ola bilər və bu da bir-birindən uzaq ərazidə, habelə *bir-birinə yaxın olan kitabxana* fondlarının əsas meyarları üzrə, yəni fondun profili, oxuculara xidmətin *sosial-demoqrafik xarakteristikası, onların miqdarı,* xidmətin geoqrafi əlamətləri və s. üzrə əlaqələndirilməsi və *qarşılıqlı istifadə edilməsi imkanı* yaradır. Məsələn, mərkəzləşdirilmiş kitabxana sistemində tədris ədəbiyyatı bir qrup oxucuların – məktəblilərin xüsusi marağını əks etdirir. Məktəb kitabxanası şəbəkəsində isə bu nəşr tipi məktəbli oxucu qrupunun nəinki xüsusi, həmçinin ümumi marağını əks etdirir və buna görə də bu nəşrlər müxtəlif çeşidlə, çoxlu nüsxə ilə komplektləşdirilir.

*Müntəzəmlilik və planlılıq* "Komplektləşdirmənin müntəzəmlik və planlılıq prinsipini konkret kitabxananın bütün sahələri üzrə mövcud olan, habelə komplektləşmənin planlaşdırılması əsasında alınan və fonddan çıxarılan sənədlərin profilinə uyğun əldə edilməsini nəzərdə tutur; hər hansı mövzunun profili ilə maraqlanan bütün oxucu kontingentinə tam əsərlər komplekti təqdim olunur və bunun əsasında fondun bütün tamlığını öyrənmək olar.

Bu prinsipin nəzəri əsasını V.V.Stasov işləmiş və müntəzəmlik *prinsipi anlayışı altında kitabların müntəzəm alınması* fikri nəzərdə tutulmuşdur. N.A.Rubakin bu prinsipəm başqa cür *yanaşmışdır. O, kitabxana fondunun "müntəzəmliyini yetginliyini,* tamlığını" kitabxanalarda "dünya ədəbiyyatının əks etdirilməsində" *görürdü.*

Fonda müxtəlif bilik sahələrinə dair ədəbiyyatın səmərəli seçmə münasibətlərinə nail olmaq daha əhəmiyyətidir. Universal kitabxanalarda elmlər sistemindəki bütün bilik sahələrinə dair qiymətli sənədlər əks etdirilməsi, çox sahəli və xüsusi



kitabxanalarda isə ictimai-siyasi və ixtisas ədəbiyyatı əhatə olunmalıdır.

Müntəzəmlilik və planlılıq prinsipi fonda nəşrin mütənasiblik əlaqəsini, təkcə məzmununa görə deyil, formasına görə, yəni tipinə, növünə, dilinə, habelə oxucu ünvanına, məqsəd istiqamətinə kitabxana üçün mövcud olan digər əlamətlərə görə də irəli sürür. Bu prinsip nəşrləritn kitabxananın quruluş bölmələrinə görə mütənasib bölüşdürülməsini tələb edir. Kütləvi kitabxanalarda tarixən aşağıdakı təxmini əlaqələr daranmışdır: ictimai-siyasi ədəbiyyatın xüsusi çəkisi 20%, elmi kitabların 30%, bədii ədəbiyyatın (bura uşaqlar üçün olan kitablar da daxildir) 50%-dir. Lakin bu vaxta qədər kitabxana fondunda müxtəlif mövzulu kitab komplektlərinin fonda münasibətini dəqiq müəyyənləşdirən normativlər hələ yoxdur.

60-cı illərin axırları və 70-ci illərin əvvəllərində ixtisasa dair *mətbuat səhifələrində bu mütənasiblik*lərin daha çox optimal məsələləri müzakirə olunmuş və belə nəticəyə gəlinmişdir ki, *fondun münasibliyi kitabxananı tipindən və onun oxucu* kontingentinə, profilinə uyğun müəyyənləşdirilsin.

Müntəzəmlik və planlılıq kitabxana *fondunun profilləşməsinə* və uzlaşmasına əsaslanır. Kitabxananın fondunda müxtəlif bilik sahələrinə dair sənədlərin mütənasibliyini düzgün həll etmək üçün kitabxananın uzlaşma sistemində dəqiq yerini müəyyənləşdirmək lazımdır.

*Millilik prinsipi:* Kitabxana fondunun formalaşdırılmasında milli və mənəvi dəyərləri, ideologiyasını özündə əks etdirən sənədlərin toplusunun komplektləşdirilməsi nəzərə alınır. Fondun tərkib hissələrinin əsasını milli dildə nəşr edilən sənədlər təşkil etməli və oxucuların informasiya əldə etmək istəyini tam ödəmək imkanına malik olmalıdır.

Müstəqil Azərbaycan kitabxanalarında. Milli ideologiyanın artması, oxucuların elmi-biliklərinin təkmilləşməsi, yüksək mənəvi keyfiyyətlərin tərbiyə edilməsi vəzifələrinə cavab verməlidir. Millilik prinsipi fondun tərkib və məzmununun təkmilləşdiril-məsində elmilik prinsipi ilə ayrılmaz surətdə bağlıdır.

Beləliklə, komplektləşdirlmənin bütün prinsipləri öz aralarında möhkəm qarşılıqlı əlaqə yaradır və onlar ayrılmaz vahidlik təşkil edir. Bunlardan birinin pozulması digər prinsiplərin pozulması deməkdir.

Bu prosesi həm sənədlərin cari seçilməsində, həm də retrospektiv komplektləşdirilməsində hərtərəfli nəzərə alınması fondun təkmilləşdirilməsinə mühüm təsir göstərir, onun komplektləşdirilməsi, təşkili idarə edilməsi arasında sıx qarşılıqlı əlaqə yaradır, onların vəhdət halında inkişaf perspektivlərini təmin edir.

## ƏDƏBİYYAT


*1. Столяров Ю.Н. Библиотечный фонд: Учебник- М.: Книжная палата, 1991. –271 с.*

*2. Библиотечные фонды: Учебник под редакцией Ю.Н. и Е.И.Арефьевой. – М.: Книга, 1979 –205с.*

*3. Терещин В.И. Библиотечный фонд: Учебного пособия. – М.: МГУК, 1996.- 173 с.*

*4. Библиотечные фонды: Учебник. – М.: Просвещение, 1967.- 203с.*

*5. Воронько К.Л. Организация библиотечных фондов и каталогов: Учебник: 2-е изд.- М.: Книга, 1981.-327 с.*

*6. Карташов Н.С. Формирование библиотечно-территориальных комплексов. Новосибирск, 1978.- 239 с.*

*7. Xələfov A.A. və b. Kitabxana işçisinin məlumat kitabı. A.A.Xələfov, R.Ə.Kazımov, E.M.Bədəlov – Bakı, Azərnəşr, 1986.- 267s.*

*8. Григорьев У.В. Теоретические основы формирования библиотечных фондов. – М.: МГИК, 1973.-88с.*

*9. Həsənov M.M. Mərkəzləşdirilmiş kitabxana sistemində kitab fondunun formalaşması//Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri. –B.: ADU, 1986.- s 39-46.*



***Алиев А.***


***Новейшие принципы формирования библиотечных фондов и современные взгляды на них***


**Резюме**

***В статье анализируется, поэтапно, теоретические взгляды на принципы формирования бибилиотечных фондов, даны краткие сведения о каждом из них, дана единая классификация принципов и впервые сюда включен принцип народности.***

*Akif CƏFƏROV*

*Baş müəllim*

# KƏNDLİ-FERMER TƏSƏRRÜFATI İŞÇİLƏRİNƏ KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

Müstəqilliyinin 10 illiyini qeyd edən Azərbaycan Respublikası sosializmin mərkəzləşdirilmiş planlı inzibati-amirlik sistemindən demokratik prinsiplər əsasında qurulan və azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemə keçməyə qədəm qoymuşudr. İqtisadiyyatı bazar münasibətləri əsasında qurmaq, cəmiyyətin demokratik əsaslarla inkişafını təmin etmək məqsədilə bir çox qanun və qərarlar qəbul edilmişdir. Kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatların hüquqi əsasını Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1991-1995-ci illərdə və sonrakı dövrlərdəqəbul edilmiş "Torpaq məcəlləsi", "Mülkiyyət haqqında", "İcarə haqqında", "Kəndli (fermer) təsərrüfatı haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Torpaq vergisi haqqında", "Aqrar islahatların əsas istiqamətləri haqqında", "Kolxoz və sovxoz islahatı haqqında" qanunlar, "Kolxoz və sovxozların əmlakının bölüşdürülməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi" qaydası və digər normativ hüquqi sənədlər təşkil edir.[1] Bu qanunlara isnad edərək aqrar sahədə iqtisadi bazanın əsası olan mülkiyyət üzərində yeni təsərrüfatçılıq formalarının yaradılması, torpağın və əmlakın onun iddiaçıları arasında bölüşdürülməsi; istehsal sahələrinin struktur quruluşunun daxili və xarici bazarın tələblərinə müvafiq surətdə təkmilləşdirilməsi; aqrar bölməyə sərmayə qoyuluşu; elmi texnoloji yeniliklərin istehsala tətbiqi; stimullaşdırıcı qiymət qoyma; çevik vergi və kredit siyasəti mexanizminin işlənməsi; iqtisadi idarəetmə üsuluna üstünlük verilməsi; stimullaşdırıcı tədbirlər sistemindən

---

[1] *Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı. – B.: Elm, 1996, s.3.*

səmərəli istifadə edilməsi və s. kimi proseslərin həyata keçirilməsinə cəhd göstərilir.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların uğurla həyata keçirilməsi aqrar-sənaye kompleksinin, o cümlədən onun mənəvi özəyi sayılan kitabxana problemlərinin də dərindən öyrənilib dərk edilməsindən, çoxukladlı təsərrüfatçılıq şəraitində işləyə bilən yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlığından çox asılıdır. Lakin bu asılılığı izah etməzdən qabaq kəndli-fermer təsərrüfatının təşkili qaydası haqqında ümumi məlumat vermək daha məqsədəuyğun olardı.

Azərbaycan Respublikasının 8 mart 1992-ci ildə "Kəndli (fermer) təsərrüfatı haqqında" qəbul etdiyi qanuna görə 18 yaşına çatmış bütün vətəndaşlar kəndli təsərrüfatı yaratmaq və həmin məqsəd üçün torpaq sahəsi almaq hüququna malikdir. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, "Torpaq payı naturada paylamaq hüququ olan şəxslərin (ailənin) xüsusi mülkiyyətinə verilir".[1] Torpaq sahəsi almaqda ərazidə daimi yaşayan, kənd təsərrüfatında ən azı 3 il işləyən və lazımi peşə vərdişləri olan vətəndaqlara üstünlük verilir. Kəndli təsərrüfatının üzvləri daimi bir yerdə yaşayan və təsərrüfatda işləyən ər-arvad, onların valideynləri, 14 yaşından yuxarı uşaqları və könüllülük əsasında birləşmiş digər şəxslər hesab edilir. Təsərrüfatda hər bir şəxsə çatacaq fərdi əmlakın payını hesablamaq üçün əvvəlcə hər bir nəfərin ictimai islahatda iştirakı müəyyənləşdirilir.[2] Kəndli təsərrüfatının üzvlərindən biri təsərrüfata başçı seçilir. Təsərrüfat başçısı dövlət, kooperativ, ictimai və digər müəssisələrlə danışıqlar aparır, münasibətlərdə təsərrüfatın mənafeyini təşkil edir, müqavilələr bağlayır, etibarnamə verir və vəsaitlərdə sərəncam hüququndan istifadə edir.

Azərbaycan Respublikasının təbii iqtisadi şəraiti nəzərə alınmaqla fermer təsərrüfatları ABŞ, Fransa, Türkiyə modelləri əsasında 3 müxtəlif variantda yaradılır. 1-ci variantda rayon xalq deputatları soveti tərəfindən kəndli (fermer) təsərrüfatlarının yaradılması üçün xüsusi torpaq sahəsi ayrılır.

---

[1] *Prezident imzası – Prezident qayğısı. – B., 1998, s.395.*

[2] *Kolxoz və sovxozların səhmdar cəmiyyətinə çevrilməsinin təşkilinə tövsiyələr. – B., 1996, s.6.*



Kənd təsərrüfatının yaradılmasının 2-ci variantı zərərlə işləyən, aşağı rentabelli kolxoz və sovxozların bazası əsasında yaradılan təsərrüfatlardır.

Kolxoz və sovxozların torpaqlarında yaradılan kəndli təsərrüfatları istehsalın səmərəliliyini təmin edən 3-cü varianta aiddir. Sovxozun bazası əsasında yeni yaradılan təsərrüfatın hər bir üzvünün iki şəxsi hesabı olmalıdır. Bu hesabda əmlakın baza dəyərində və əmlakın artan hissəsində payı göstərilir.[1]

Bir məsələni də qeyd etmək lazımdır ki, 1999-cu ilin məlumatına görə, respublikamızda 44,8 min kəndli təsərrüfatı olmuşdur. Lakin orta hesabla bir kəndli (fermer) təsərrüfatına düşən torpaq sahəsi azalaraq 23 hektardan 4 hektara enmişdir. Torpaq sahəsinin azalmasına baxmayaraq, fermer təsərrüfatının dinamik inkişafı islahatların sürətlə aparılmasını şərtləndirməklə onun informasiya bazası kimi kitabxanaların da üzərinə çox ciddi vəzifələr qoyur. Belə ki, MKS-in fəaliyyəti respublikamızda formalaşmış və müvəffəqiyyətlə fəaliyyət göstərən elmi-texniki məlumat sistemindən ayrı şəkildə inkişaf edə bilməz.

Kütləvi kitabxanaların yerini, hər bir ərazidə onların məlumat biblioqrafiya işinin istiqamətlərini düzgün müəyyənləşdirmək üçün müəssisə və təşkilatlarda çalışan mütəxəssislərin məlumatlandırılmasının bütün kanallarını, həmçinin onlara daxil olan məlumatların xarakterini diqqətlə öyrənmək lazımdır. Bu öz işinin xarakterinə görə daim yeni ədəbiyyatla tanış olmağı tələb edən digər kanallarla lazımi məlumatı ala bilməyən mütəxəssis kateqoriyalarına mərkəzi kitabxananın daha çox fikir verilməsi üçün əsas rolu oynayan mühüm cəhətdir.

Qeyd etmək lazımdır ki, mərkəzləşmiş kitabxana sistemlərində kitab fondlarının yeni tələbata uyğun olaraq formalaşması universal fondlar kimi onların əhəmiyyətini artırmış, rayon mərkəzində yaşayan bütün ziyalılara, mütəxəssislərə xidmət etmək imkanı verilmişdir.[1]

---

[1] *Aqrar-Sənaye komitəsi müəssisə və təşkilatlarında mülkiyyətin dövlətsizləşdirilməsinə və özəlləşdirilməsinə dair tövsiyələr. – B., 1992, s.15.*

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri. – Bax: Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri. Elmi əsərlərin tematik məcmuəsi. – B., 1986, s.9.*

Kitabxananın fərdi abonementləri ola biləcək mütəxəssislər dairəsinin daha dəqiq şəkildə müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. "Mütəxəssis" anlayışı, ixtisas ədəbiyyatında və bir çox digər mənbələrdə göstərdiyi kimi, çox geniş anlayışdır. Buna görə də mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana xidmətinin təşkili zamanı, 1-ci növbədə kitabxananın xidmət edəcəyi mütəxəsislərin tərkibini müəyyənləşdirmək lazımdır. Bu məqsədlə mərkəzi kitabxana xüsusi oxuculara profil kartotekası tərtib edib aparır.

Mərkəzi kitabxana tərəfindən göstərilən təsərrüfat rayonlarının iqtisadi profilləri eyni olmadığına görə, hər bir mərkəzi kitabxananın fəaliyyət göstərdiyi ərazidə çalışan mütəxəssislərin miqdarı və onların maraq dairələri də yeni olmayacaqdır. Bu zaman eyni tipli müəssislərdə çalışan şəxsləri istisna etmək lazımdır. Təbiidir ki, belə olan şəraitdə hər bir mərkəzi kitabxana yerləşdiyi təsərrüfat rayonunun xüsusiyyətlərini nəzərə alaraq mütəxəssislərə kitabxana xidmətini təşkil edəcəkdir. Daha dəqiq desək, mərkəzi kitabxananın yerləşdiyi rayonun təsərrüfat profili mərkəzləşmə şəraitində və ümumiyyətlə mütəxəssislərə, o cümlədən fermer mütəxəssislərə kitabxana xidmətinin əsas xüsusiyyətlərini müəyyənləşdirən mühüm və 1-ci dərəcəli amil kimi çıxış edir. Məsələn: respublikamızın müxtəlif zonalarında yerləşən Tovuz və Lənkəran rayonunun təsərrüfat fəaliyyətləri və profili bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də həmin rayonların mərkəzləşdirilmiş kitabxana sistemlərinin mütəxəssislərə, o cümlədən fermer işçilərinə kitabxana xidmətinin xüsusiyyətləri də bir-birindən fərqlənəcəkdir.

Mərkəzləşmə şəraitində mütəxəssislərə kitabxana xidməti dedikdə əsasən MKS-in məlumat-biblioqrafiya işi nəzərdə tutulur.

Bu sahədə MKS-in əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

-Məlumat-biblioqrafiya aparatının (kataloqların, kartotekaların, məlumat və biblioqrafiya nəşrləri fondunun, ödənilmiş arayışlar arxivinin) yaradılması;

-Məlumat-biblioqrafiya xidmətinin, daha doğrusu bu və ya digər məsələ (mövzu, predmet) üzrə ədəbiyyatın üzə çıxarılması ilə bağlı olan oxucu sorğularının ödənilməsi;

-Ayrı-ayrı oxucu qruplarının, təşkilat və müəssisələri, onları maraqlandıran mövzular üzrə ədəbiyyat haqqında məlumatla təmin edilməsi;



-Oxucular arasında biblioqrafik biliklərin təbliğ edilməsi.[1]

Ümumiyyətlə qeyd etmək lazımdır ki, mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana xidmətinin təşkil edilməsinin nəzəri əsasları ixtisas ədəbiyyatında kifayət qədər işıqlandırılmışdır. Lakin, bu nəzəri əsasların müəyyən iş təcrübəsində olduğu kimi istifadə edilməsi tamamilə qeyri mümkündür. Hər bir rayonun özünəməxsus təsərrüfat profili MKS-nin mütəxəssislərinə, o cümlədən fermer mütəxəssislərə məlumat-biblioqrafiya xidmətinin spesifik xüsusiyyətlərini yaradır. Bu Tovuz rayon MKS-nin fəaliyyətində və topladığı iş təcrübəsində bir daha özünü büruzə verir.

Respublikamızın inzibati təsərrüfat rayonlarından biri olan Tovuz rayonunun əhalisi əsas etibarı ilə üzümçülük, taxılçılıq, maldarlıq və əkinçiliklə məşğul olurlar. Rayonda bir sıra zavodlar, fabriklər, ali və orta ixtisas təhsilli mütəxəssisləri, tikinti idarələri, toxuculuq idarəsi[1] və 131 fermer təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatların 26-sı rəsmi dövlət qeydiyyatına alınmış, 105-i isə alınmamışdır. Hazırda bu təsərrüfatlarda 745 nəfər mütəxəssis çalışır ki, bunun da 602 nəfərinin ali və orta ixtisas təhsili vardı[2].

Tovuz rayon MKS-nin gündəlik fəaliyyəti rayonun qarşısında duran iqtisadi islahatların yerinə yetirilməsi istiqamətində qurulmuşdur.

Məlumdur ki, mütəxəssislərə, o cümlədən fermer təsərrüfatı işçilərinə kitabxana xidmətində, biblioqrafik xidmət mühüm yer tutur və aparıcı rol oynayır. MKS-də mütəxəssislərə məlumat-biblioqrafiya xidməti metodika-biblioqrafiya şöbəsi tərəfindən həyata keçirilir. Tovuz rayon MKS-də kəndli (fermer) təsərrüfatı mütəxəssislərinə göstərilən biblioqrafik xidmət öz xarakterinə görə müxtəlifdir. Çünki, kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi nəticəsində hər bir oxucuya daha rəngarəng formada, səmərəli işə kənddə bilioqrafik xidmət üçün əsl şərait yaradılmışdır. Öz ideya məzmununa görə fondu çox zəngin olan rayon MKS-nin işi mütəxəssislərə xidmət işinin təkmilləşmiş müxtəlif üsullarından

---

[1] *Ким М. Информационная работа массовой библиотеки в современных условиях. – Вкн.в помощь массовым библиотекам. – М., 1975, с.37.*

[1] *Azərbaycan şəhər və rayonlarının qısa telefon məlumat kitabı. – B., 103, s. 203.*

[2] *Tovuz rayon statistika idarəsinin 1999-cu ilə məlumatı.*

istifadə olunmasını tələb edir. Rayon MKS-də oxuculara məlumat-biblioqrafiya xidməti məsələsi çoxcəhətli və rəngarəngdir ki, bu da oxucu tərkibinin müxtəlifliyindən irəli gəlir. Ona görə də MKS-də elə bir biblioqrafik xidmət sistemi yaratmaq lazımdır ki, təhsilindən və ixtisasından asılı olmayaraq, bütün oxucu qrupları ondan istifadə edə bilsinlər. Bu zaman mütəxəssis oxuculara məlumat-biblioqrafiya xidmətinin təşkilinə xüsusi fikir vermək lazımdır.

Tovuz rayon MKS-də Metodika biblioqrafiya şöbəsi mütəxəssislərə məlumat-biblioqrafiya xidmətinin iki başlıca istiqaməti üzrə;

a) Mütəxəssislərə sorğu-biblioqrafiya xidməti (kitabxana və ya biblioqrafiya xarakterli sorğulara cavab verməsi);

b) Biblioqrafik informasiya işinin (ən yeni və aktual ədəbiyyat haqqında oxuculara, müəssisə və təşkilatlara verilən informasiya) həyata keçirilir.

Qeyd etmək lazımdır ki, kitabxana müəssisələr biblioqrafik xidmət göstərməzdən əvvəl onun sorğu və marağının xarakterini öyrənir. Buna görə də Tovuz rayonu MKS-də fermer mütəxəssisləri sorğularının dəqiq öyrənilməsi, onların kitaba olan tələblərinin hərtərəfli öyrənilməsi və mütaliəyə rəhbərlik məsələsi həmişə diqqət mərkəzindədir. Kitabxana yalnız mütəxəssisin hansı kitablarla maraqlandığını öyrənməklə kifayətlənmir, onların sorğularının xarakterini müəyyənləşdirən əsas səbəb və amilləri də öyrənir.

Müasir dövrdə respublikamızda elmin sürətli inkişafı ilə əlaqədar olaraq gedən inteqrasiya və diferensiya nəticəsidir ki, bir çox mütəxəssislər eyni kitabdan, eyni mənbədən istifadə etməli olurlar. Lakin, bu heç də o demək deyildir ki, hamı eyni kitabdan istifadə etdiyi üçün onların sorğuları da eyni olmalıdır. Oxucular eyni kitabdan müxtəlif məqsədlər üçün istifadə etdiklərinə görə onların sorğuları da müxtəlif və çoxcəhətlidir. Məhz buna görə də Tovuz rayon MKS-də müxtəlif mütəxəssis sorğularının müxtəlifliyə malik olan xüsusiyyətləri ayrı-ayrı qruplar üzrə öyrənilir. Buna uyğun olaraq, kitabxananın xidmət etdiyi mütəxəssis oxucu kontingenti aşağıdakı qruplara ayrılmışdır.

a) Mühəndis və texniki işçilər

b) Kənd təsərrüfatı mütəxəssisləri

c) Tibb işçiləri



ç) Müəllimlər[1]

Yuxarıda qeyd etdik ki, işini öyrəndiyimiz kitabxanada mütəxəssislərə biblioqrafik xidmətin başlıca istiqamətlərindən biri oxuculara onların sorğuları əsasında göstərilən xidmətdir.

Ümumiyyətlə, kitabxanalarda mütəxəssislərə və digər oxucu qruplarına verilən arayışların aşağıdakı tipləri vardır:

1.Mövzu arayışı
2.Biblioqrafik arayış
3.Kitabxana arayışı
4.Faktik arayış[2]

Tovuz rayon MKS-də mütəxəssislərə verilən arayışların bu tiplərindən istifadə olunur. Kitabxana əməkdaşları oxucuların sorğularına düzgün və dolğun cavab vermək üçün arayışlardan geniş istifadə edirlər. İşini öyrəndiyimiz MKS-də mütəxəssislərə verilən şifahi və yazılı şəkildə yerinə yetirilir. Kitabxana şifahi arayışları operativ olaraq dərhal, oxucunun bilavasitə iştirakı ilə verir. Bəzən isə şifahi sorğular telefon vasitəsilə verilir.

Yuxarıda qeyd etdik ki, Tovuz rayon MKS-də mütəxəssislərin o cümlədən fermer mütəxəssislərinin sorğularına verilən arayış tiplərindən biri mövzu arayışıdır. Göstərmək lazımdır ki, işini öyrəndiyimiz kitabxana sistemində hər gün onlarca mütəxəssis müxtəlif məzmunlu sorğularla kitabxanaya müraciət edirlər. Kitabxana bu sorğuları ödəmək üçün müxtəlif biblioqrafik mənbələrdən, məlumat-biblioqrafiya fondundan, kataloq və kartotekalardan səmərəli şəkildə istifadə edir.

Qeyd etmək lazımdır ki, yeni təsərrüfat formalarının yaranması və inkişafı ilə əlaqədar olaraq kitabxanaya daxil olan kənd təsərrüfatı ilə bağlı mövzu sorğularının sayı ildən-ilə artır. Belə ki, 1997-ci ildə 110, 1998-ci ildə 122, 1999-cu ildə isə 137-ə yaxın mövzu verilmişdir.[1]

Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin təşkilində biblioqrafik arayışların digər tiplərindən də geniş şəkildə istifadə etməyə çalışırlar.

Tovuz rayon MKS fermer mütəxəssislərə göstərilən kitabxana xidmətini yüksək səviyyədə və hərtərəfli təşkil etmək məqsədilə

---

[1] *Tovuz rayon MKS-nin 1998-ci il hesabatı.*
[2] *Библиография. Общий курс. – М., 1981, с.513.*
[1] *Rəqəmlər Tovuz rayon MKS-nin müvafiq illərinin hesabatlarından götürülmüşdür.*

sorğu-biblioqrafiya xidməti ilə yanaşı, məlumat işinin uğurla həyata keçirilməsinə də səy göstərir.

Rayon MKS-də məlumat xidmətinin mühüm formalarından biri olan məlumat bülletenlərini buraxmaq üçün heç bir imkan yoxdur. Məhz buna görə də kitabxana fermer mütəxəssislərə məlumat xidmətində ədəbiyyat siyahılarından geniş şəkildə istifadə edir. Həmin siyahılarda kitabxanaya daxil olan ədəbiyyat bilik sahələri üzrə qruplaşdırılır, makinada yazılaraq kitabxananın görkəmli yerindən asılır. Bəzən kitabxana bu siyahının üzünü çıxarıb ayrı-ayrı fermer təsərrüfatının, idarə və müəssisələrinin ünvanına göndərir.

Mütəxəssislərə məlumat işinin təşkilində əyani şəkildə məlumat verilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə kitabxanada təşkil olunmuş mövzu kartotekaları, kitab sərgiləri, baxışlar və s. əyani məlumat vasitələrindəndir. Kitabxanada vaxtaşırı təşkil olunan yeni ədəbiyyata baxış müxtəlif bilik sahələri üzrə qruplaşdırılan yeni ədəbiyyatla oxucuları əyani şəkildə tanış edir. Mütəxəssis oxucular belə baxışlara gələrək onları maraqlandıran mövzular üzrə yeni ədəbiyyatı sistemli qaydada izləmək imkanı qazanır. Tovuz rayon MKS-də yeni ədəbiyyata baxış əvvəllər ildə 2-3 dəfə keçirilirdisə, bazar iqtisadiyyatına keçdikdən sonra bu iş ildə bir dəfə ancaq keçirilir. Çünki, kitabxana əvvəlki miqdarda yeni kitab almaq imkanına malik deyil. Baxışa müxtəlif sahələrdə çalışan mütəxəssislər dəvət olunurlar. Baxışa gələnlər onları maraqlandıran kitabı özləri üçün qeyd edir və sonra onu mütaliə üçün alırlar.

Tovuz rayon MKS-də qrup halında məlumatdan da istifadə olunur. Qrup halında məlumat fermer mütəxəssisləri oxucu qruplarına, onları maraqlandıran mövzular üzrə ən yeni seçmə ədəbiyyatdan istifadə etmək imkanı verir. Məsələn, Tovuz rayonu mərkəzi kitabxanasında bu məqsədlə mütəxəssislərə-mühəndislərə, kənd təsərrüfatı işçilərinə, aqronomlara, zootexniklərə, mexanizatorlara, müəllimlərə, həmkarlar və b. Mütəxəssis oxucu qruplarına qrup halında məlumat xidməti göstərilir.

Kitabxana mütəxəssislərə məlumat xidmətində konkret mövzunun təbliğini əsas götürür. Ədəbiyyat siyahılarının düzgün tərtib olunmasını təmin etmək məqsədilə kitabxana xidmət göstərdiyi kollektivlərlə sıx əlaqə saxlayır.



Məlumdur ki, mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana xidmətinin təşkilində texniki kitabxanalarda və məlumat orqanlarında həyata keçirilən – "İnformasiya günü", "Mütəxəssis günü", "Biblioqrafiya günü" və s. istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Lakin, Tovuz rayon MKS-də mütəxəssislərə məlumat xidmətinin bu səmərəli formasından çox az istifadə edilir.

Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin xüsusiyyətlərindən danışarkən, səyyar xidmət şöbəsinin fəaliyyətini də qeyd etmək lazımdır. Rayon ərazisnidə fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatı mütəxəssislərinin çoxusu mərkəzi kitabxana və kitabxana filialları ilə daimi əlaqə saxlaya bilmirlər. Belə ki, fermer təsərrüfatı mütəxəssislərinin əsas hissəsi çox zaman təsərrüfatlarda olur. Buna görə də mərkəzi kitabxana səyyar kitabxana xidmətlərindən istifadə edir. Lakin, son illər maddi çətinlik ucbatından bu xidmət növündən də demək olar ki, çox cüzi şəkildə istifadə edilir.

Dediklərimiz aydın şəkildə göstərir ki, Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində görülən işlər heç də qənaətbəxş deyildir. Əvvəldə qeyd etdiyimiz kimi mərkəzləşmə şəraitində mütəxəssislərə, o cümlədən kəndli (fermer) təsərrüfatı mütəxəssislərinə kitabxana xidməti dedikdə, birinci növbədə onlara məlumat və biblioqrafiya xidməti nəzərdə tutulur. Bir cəhəti də qeyd etmək lazımdır ki, MKS-də məlumat-biblioqrafiya xidmətinin təşkili xüsusiyyətləri ixtisas ədəbiyyatında, demək olar ki, işıqlandırılmamışdır. Buna görə də mərkəzləşmə şəraitində mütəxəssis oxuculara məlumat-biblioqrafiya və məlumat xidmətinin təşkili, onun nəzəri əsasları haqqında məlumat vermək və bununla da Tovuz rayon MKS-nin mütəxəssislərə, o cümlədən fermer mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində qarşısında duran vəzifələri göstərmək məqsədəuyğun olarda.

Məlumdur ki, mütəxəssis oxuculara məlumat-biblioqrafiya xidməti kütləvi kitabxanaların fəaliyyətinin ənənəvi istiqamətlərindən biridir. Mərkəzləşdirmə bu proseslərin təkmilləşdirilməsi üçün əlverişli şərait yaratmışdır. MKS-də kitabxana-biblioqrafiya aparatları, o cümlədən də məlumat-biblioqrafiya aparatı birləşir. Bir çox mərkəzi kitabxanalarda məlumat-biblioqrafiya şöbələri yaradılır ki, burada da vahid məlumat-biblioqrafiya işi birləşdirilir.

Qeyd etmək lazımdır ki, mərkəzləşdirmə şəraitində mütəxəssislərə o cümlədən, kəndli (fermer) təsərrüfatı mütəxəssislərinə,

məlumat xidmətinə nisbətən məlumat-biblioqrafiya xidmətini daha ətraflı şəkildə işlənmişdir. Lakin, MKS-də fermer mütəxəssisləri məlumat xidmətinin təşkili haqqında bunu demək olmaz.

Buna görə də mərkəzləşdirmə şəraitində mütəxəssislərə məlumat xidmətinin və onun nəzəri əsasları haqqında daha ətraflı məlumat vermək məqsədəuyğun olar.

Məlumat fəaliyyətini kütləvi kitabxanaların işində ən mühüm istiqamətlərdən biri kimi nəzərdən keçirərkən, MKS-nin qarşısında duran vəzifələri aşağıdakı kimi göstərmək olar. Bu əhalinin politexnik, professional, istehsalat, estetik və digər məlumat tələbatlarını ödəməkdən ibarətdir.[1]

Bununla belə MKS-nin məlumat işini elə qurmaq lazımdır ki, o bunun oxucu kateqoriyalarının hərtərəfli maraq və sorğularını ödəyə bilsin.

Mərkəzləşdirilmiş sistemin məlumat fəaliyyəti praktiki təkmilləşmələr tələb edir. MKS şəraitində məlumat xidmətinin yüksəldilməsi, onların işində mütəxəssislərin kompleks məlumatlandırılması sisteminin tətbiq edilməsi vasitəsi ilə həyata keçirilə bilər.

Məlumata olan maraq və tələblərin ödənilməsi yalnız mərkəzləşmiş sistemin oxucuları haqqında deyil, həm də öz kitabxanaları olmayan istehsalat kollektivləri haqqında məlumatın əldə edilməsinə şərait yaradır.

MKS təcrübəsində məlumat xidmətinin bütün forma və metodla kompleksi: yeni daxil olan ədəbiyyat bülletenləri, daimi fəaliyyət göstərən kitab və dövrü nəşrlər sərgiləri, tematik sərgilər, məlumat günləri, mütəxəssis günləri, fərdi və qrup məlumatı istifadə olunmalıdır.

Respublikamızda MKS-nin iş təcrübəsinin öyrənilməsi göstərir ki, mərkəzləşmə şəraitində mütəxəssislərə məlumat xidməti işində tematik siyahıların tərtib olunmasına xüsusi fikir verilir. Bunların 3 tipini ayırmaq olar:

-yazılı biblioqrafik arayışlar kimi hazırlanan siyahılar;
-ayrı-ayrı mütəxəssislərin profili üzrə tematik siyahılar;
-diyaşünaslıq xarakterli siyahılar.

---

[1] *Михеева Л.Н. О некоторых вопросах информационной работы городских ЦБС и помощ производству. – В.кн.: Массовая библиотека и научно-технический прогресс. – М., 1976, вып., с. 7-30.*



Bu siyahıların hər birinin hazırlanmasının müəyyən spesifik xüsusiyyətləri və mürəkkəblikləri vardır.

Kənd təsərrüfatına aid ədəbiyyatın təbliğində Tovuz rayon mərkəzi kitabxanasında və onun filiallarında ən çox sərgilərdən istifadə olunur. Bu kitabxanada 1997-1999-cu illər arasında 10-a yaxın sərgi təşkil edilmişdir.

Sərginin əhəmiyyəti yalnız oxucunu cəlb etməkdə deyildir, həmçinin kitabı sərgidən götürüb, onun illüstrasiyalırı, sərlövhəaltı məlumatı, giriş və ayrı-ayrı fəsilləri ilə tanışlıq çox vaxt oxucu marağını istiqamətləndirir.

Nümayiş olunun kitablar bəzən elm sahələri üzrə qruplaşdırılır. Bu cür sərgilər Tovuz rayon mərkəzi kitabxanalarında bir-iki rəf daxilində tərtib edilir. Bu kitabxananın abonoment şöbəsində "Kənd təsərrüfatına aid yeni ədəbiyyat" sərgisi var. Kitabxananın əməkdaşları burada yeni ədəbiyyatla yanaşı kənd təsərrüfatına aid yeni alınmış jurnalları da daxil edirlər.

Tovuz rayon mərkəzi kitabxanasında və onun filiallarında hər bir sərgi təşkil olunduqda kitabdan əlavə kənd təsərrüfatına aid dövrü nəşrlər ixtiraçı və səmərələşdiricilər üçün mövzular, kənd təsərrüfatına dair biblioqrafik göstəricilər də verilir.

Mövzu sərgilərinin vəzifəsi yalnız mövzuya dair ən qiymətli kitabları oxucular üçün nümayiş etdirmək deyil, həmçinin müəyyən məsələyə dair oxucuya dərin və sistemli öyrənmə imkanı verməkdir. Ona görə də sərgidə nümayiş etdirilən hər bir kitab mövzusuna görə ondan əvvəl gələn kitaba uyğun olmalıdır.

Mövzu sərgisinə Tovuz rayon mərkəzi kitabxanasında və onun filiallarında geniş yer verilir. Kitabxananın əməkdaşları rayonun əsas profilini nəzərə alaraq onlara aid ədəbiyyatı təbliğ etməkdən ötrü aşağıdakı mövzularda kənd təsərrüfatına aid sərgilər tərtib etmişlər:

1.Kənd təsərrüfatı və bazar iqtisadiyyatı;
2.Kəndli (fermer) təsərrüfatı – ərzaq bolluğunun təminatçısıdır;
3.Heyvandarlıqda konveyer sistemi və s.

Nəticə olaraq onu qeyd etmək olar ki, dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi kitabxana işinin bütün sahələrində olduğu kimi fermer mütəxəssislərə kitabxana xidmətinin həyata keçirilməsi də əsaslı keyfiyyət dəyişiklikləri yaradılmışdır. Mütəxəssislərə kitabxana xidmətinin səviyyəsi, 1-ci

növbədə kənd təsərrüfatı ədəbiyyatının nə dərəcədə komplektləşdirilməsi onun təbliği səviyyəsindən asılıdır. Bu zaman rayonun təsərrüfat profili, MKS-nin oxucu tərkibi, kitabxananın mütəxəssis oxucularının peşə xüsusiyyətləri və miqdarı nəzərə alınmalı və kənd təsərrüfatı ədəbiyyatını komplektləşdirərkən, məhz bu faktlara əsaslanmalıdır.

Bununla belə, Tovuz rayon MKS-nin fəaliyyətində bir sıra nöqsanlar da hələ özünü göstərməkdədir.

1.MKS-nin vahid fondunda müasir kənd təsərrüfatı ədəbiyyatı azlıq təşkil edir. Bundan əlavə kənd təsərrüfatının müasir problemlərinə dair nəşr edilən kitabların nüsxələri az olduğundan həmin nəşrlərdən istənilən nüsxə almaq mümkün olmur.

2.Fermer mütəxəssislərə kitabxana xidmətinin keyfiyyəti kitabxanaçı kadrların hazırlıq səviyyəsindən xeyli asılıdır. Lakin, Tovuz rayon MKS-də 118 nəfər işçidən yalnız 22 nəfəri ali ixtisas təhsillidir.

3.Tovuz rayon mərkəzi kitabxanasında ayrıca kənd təsərrüfatı ədəbiyyatı üzrə "abonoment şöbəsi" nin təşkili məqsədəuyğun olardı.

4.Kitabxanada fermer mütəxəssislər, işçilər haqqında məlumat verən kartoteka yaradılmışdır. Onlara verilən məlumat arayışlarının fondu yaradılmışdır və onun uçtu aparılmır.

Bütün bu nöqsanlara baxmayaraq Tovuz rayon MKS-nin fermer mütəxəssislərə kitabxana xidməti sahəsindəki fəaliyyətini qənaətbəxş hesab etmək olar.


***Джафаров А.А.***

***Вопросы организации библиотечного обслуживания работников фермерский хозяйств***

**Резюме**

*В статье освещен опыт библиотек сельских районов Азербайджана по организации обслуживания работников фермерского хозяйтсва в условиях централизации. Особое внимание уделено обобщению передового опыта пропаганды литературы и внедрению прогрессивных форм обслуживания работников фермерского хозяйства в централизованных библиотечных системах.*

*Опираясь на документы, в статье приводятся ряд рекомендаций, форм обслуживания работников фермерского хозяйства в сельских районах республики с учетом особенностей и преимуществ централизованных библиотечных систем.*

*Knyaz ASLAN*
*Baş müəllim*

# BƏDİİ ƏDƏBİYYATIN TƏBLİĞİNDƏ TÖVSİYƏ BİBLİOQRAFİK VƏ METODİK VƏSAİTLƏR SİSTEMİNİN ROLU

Müxtəlif kitabxanalarda aparılmış sorğulara görə müasir dövrdə bədii əsərlərin mütaliəsi digər elm sahələrinin mütaliəsi ilə müqayisədə birinci yeri tutur. Oxucuların şəxsi estetik təhsilində bədii ədəbiyyatın özünəməxsus mühüm və əvəzedilməz yeri vardır. Bədii kitablar şəxsiyyətin hərtərəfli inkişafının formalaşmasına səmərəli təsir göstərərək, yüksək bəşəri ideallarin həyata keçirilməsində və mənimsənilməsində iştirak edir, insanın ideya və sosial baxımdan kamilləşməsinə, əxlaqi və mənəvi cəhətdən yetkinləşməsinə kömək göstərir. O, eyni zamanda əks-təbliğat fəaliyyətində, işğalçılıq və imperializm ideologiyasına qarşı mübarizədə, milli və bəşəri mədəni sərvətləri saxtalaşdıranların ifşa edilməsində çox böyük rol oynayır.

Bədii ədəbiyyatın oxunuşunun yüksək səviyyəsi və oxucuya təsirinin çoxplanlılığı kitabxana işçilərinin, o cümlədən kütləvi, gənclər və uşaq kitabxanaları əməkdaşlarının qarşısında bir çox peşəkarlıq problemləri qoyur ki, tövsiyə ədəbiyyat biblioqrafiyası və metodik vəsaitlər sisteminin köməyi olmadan onların həllinə çalışmaq lazımsız yerə xeyli əmək və vaxt itkisinə səbəb ola bilər. Bu gün inamla demək olar ki, Azərbaycan kitabxanaçıları üçün bədii ədəbiyyat üzrə tövsiyə biblioqrafik vəsaitlərin və metodik vəsaitlərin bütöv sistemi yaradılmışdır. Bu vəsaitlər sistemi Azərbaycan və xarici ölkə ədəbiyyatı klassiklərinin zəngin ədəbi irsini, mütərəqqi ədəbiyyat və incəsənət nümunələrini əhatə edir, bədii əsərlərin dərindən qavranılmasına, dərk olunmasına və

qiymətləndirilməsinə kömək edən kütləvi ədəbiyyatşünaslıq və sənətşünaslıq işlərini, tənqidi materialları təbliğ edir.

Azərbaycan tövsiyə biblioqrafiyasının ictimai əhəmiyyəti oxucuların estetik inkişafına təsir göstərmək, onlarda yüksək bədii zövq formalaşdırmaq məqsədi ilə bədii ədəbiyyata dair ən yaxşı nəşrləri təbliğ etməkdən ibarətdir. Bu baxımdan tərbiyə vasitələri sistemində ən önəmli hissələrdən birini bədii ədəbiyyatın tövsiyə biblioqrafiyası tutur. Estetik tərbiyənin digər halqaları (yaradıcılıq birliklərinin, mədəniyyət müəssisələrinin, radionun, televiziyanın, mətbuatın təbliğatçılıq fəaliyyəti, tədris müəssisələrində estetik tərbiyə üzrə iş və s.) kimi bədii ədəbiyyatın tövsiyə biblioqrafiyası da milli dövlətçilik ənənələrinin inkişafına və müstəqilliyimizin nailiyyətlərinin qorunmasına və zənginləşməsinə xidmət göstərir.

Bədii ədəbiyyatın tövsiyə biblioqrafiyasının başlıca cəhəti onun proqramlılığıdır. Bu vəsaitlərin əksəriyyətinin əsasında bədii ədəbiyyata dair məsələlərin müəyyən dairəsi durur ki, onlar oxuculara tövsiyə olunan müvafiq ədəbiyyatın köməyi ilə öyrənilə bilər.

Bədii ədəbiyyatı yenicə mütaliə etməyə başlayanlar üçün tərtib edilmiş biblioqrafik vəsaitlər hər şeydən əvvəl oxucuların diqqətini incəsənətlə tanışlığın xüsusi sahələrinə yönəldir. Məsələn, "Bədii ədəbiyyata dair kitablar", "Bədii ədəbiyyata dair nə oxumalı?", "Bədii ədəbiyyat – hamı üçün" və s. Bu, universal vəsaitlərə də aiddir. Belə ki, universal biblioqrafik vəsaitlərdə incəsənət digər bilik sahələri ilə eyni cərgədə durur. Məsələn, "Zaman və sənət" vəsaitində verilmiş "İncəsənət aləminə gedən yol" adlı tövsiyə siyahısı gənc oxucuların diqqətini dərhal cəlb edir və onların şəxsi təhsili üçün xüsusi maraq doğurur. Hər şeydən əvvəl oxucunun ümumi şəxsi təhsil hazırlığı səviyyəsinə uyğun gələn bu cür vəsaitlərdə eyni yanaşma tərzi özünü göstərir: Oxucu mənəvi mədəniyyətin xüsusi sahəsi kimi incəsənətlə və incəsənətin daxili quruluşu ilə – onun əsas növləri, janrları və şəkilləri ilə tanış edilir. Bu zaman işin əsas məzmunu və məqsədi ondan ibarət olur ki, oxucu incəsənətin nə olduğunu və hansı tərkib hissələrinə bölündüyünü başa düşə bilsin. Şəxsiyyətin bədii tərbiyəsində ilk şəxsi təhsil proqramı olan bu üsul predmet-struktur proqramı adlanır.

Şəxsiyyətin bədii tərbiyəsinə kömək göstərən vəsaitlər sistemində ikinci halqanı tarixi-bədii prinsip əsasında yaradılmış vəsaitlər təşkil edir. Təcrübə bunu bir daha sübuta yetirir. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının gənclərin estetik şəxsi



təhsilinə kömək məqsədi ilə hazırlayıb nəşr etdirdikləri vəsaitlər məhz bu prinsipə əsaslanır. Burada ümumidən (incəsənət bütövlükdə) xüsusiyə (incəsənətin ayrı-ayrı növləri) keçid həmin xüsusinin tarixən təbii inkişaf prosesinə uyğun şəkildə izlənir. Bu halqa üçün xarakterik olan cəhət budur ki, istənilən halda incəsənətə tarixi yanaşma həlledici rol oynayır. O, bir qədər geniş və seçimli də ola bilər, təfərrüatı ilə göstərilə də, ayrı-ayrı ölkələr, mərhələlər, bədii təmayüllər, janrlar, müəlliflər üzrə ayrıla da bilər. Təfərrüatların dəqiqliyi ilə verilməsi ondan asılıdır ki, oxucu incəsənəti tarixilik baxımından ilk dəfə mənimsəyirmi, yaxud artıq bunun üçün ilkin əsaslar varmı? Bununla belə, məzmun və məqsəd olduğu kimi qalır: ikinci halqanın şəxsi təhsil proqramı tarixilik prinsipi əsasında qurulur və tarixi-bədii proqram kimi səciyyələndirilə bilər.

Vəsaitlər sisteminin üçüncü halqası oxucunun şəxsi və ümumbəşəri təcrübənin nəzəri ümumiləşdirilməsi səviyyəsinə yüksəldilməsi məqsədi daşıyır. Burada inkişafın sıçrayışı, yüksəlişi onda özünü göstərir ki, konkret tarixi bilik əsasında oxucu varlığın ümumi qanunauyğunluqlarını və incəsənətin ictimai fəaliyyətini dərk etmək imkanı qazanır. Məsələn, "Kitablar haqqında kitab" tipli vəsaitlər oxucunun bu mərhələdəki informasiya tələbatını ödəyir, ona incəsənətin ümumi problemlərindən hər birini müasir elmi səviyyədə dərk etməyə və bu mövzunu bütün aktual elmi biliklərlə əlaqələndirməyə kömək göstərir. Bu, nəzəri və ya fəlsəfi-estetik proqram adlanır.

Azərbaycanda bədii ədəbiyyat, ədəbi tənqid və ədəbiyyatşünaslıq üzrə əsasən iki növ biblioqrafik göstərici tərtib və nəşr edilmişdir: 1) mövzu göstəriciləri; 2) şəxsi göstəricilər. Bu məsuliyyətli işlə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, həmçinin bir çox tanınmış mütəxəssislər ardıcıl məşğul olmuşlar.

Azərbaycan ədəbiyyatı biblioqrafiyasının tarixində ilk mövzu biblioqrafik göstəricisi Həbib Babayevin 1959-cu ildə nəşr etdirdiyi "Azərbaycan ədəbi əlaqələri" vəsaitidir. Göstəricidə Azərbaycan ədəbiyyatının Sovet İttifaqı və dünya xalqları ədəbiyyatı ilə əlaqəsinə dair 1920-1959-cu illərdə çap edilmiş 974 mənbənin təsviri verilmişdir. Azərbaycan dilindəki materialların biblioqrafik təsvirinin rus dilində də verilməsi göstəricinin istər oxucu dairəsini, istərsə də istifadə imkanlarını xeyli genişləndirir (3).

Tanınmış kitabxanaşünas alim Rasim Kazımov "Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası (1920-1965)" adlı namizədlik dissertasiyasında həmin göstəricini geniş təhlil edərək yazır: "Göstərici, ümumiyyətlə, elmi və biblioqrafik nöqteyi-nəzərdən yüksək səviyyədədir. Materialların məntiqi ardıcıllıqla düzülüşü, bütün mənbə və məxəzlərin dəqiq təsviri, sərlövhələrə verilən qısa və məzmunlu izahatlar, bölmələrarası və əsərin sonundakı yardımçı göstəricilər biblioqrafiyadan səmərəli istifadə etmək üçün imkan verir" (5, s. 200-206).

H.Babayev bu istiqamətdə fəaliyyətini davam etdirərək 1959-1973-cü illərdə Azərbaycan ədəbiyyatının sovet və dünya ədəbiyyatı ilə əlaqələrinə dair çapdan çıxmış 2436 əsərin və məqalənin biblioqrafik təsvirini əks etdirən yeni göstərici hazırlamış və onu 1979-cu ildə "Azərbaycan ədəbiyyatının beynəlmiləl əlaqələri" adı ilə nəşr etdirmişdir. Burada Azərbaycan ədəbiyyatının 22 SSRİ, 36 xarici ölkə ədəbiyyatı ilə əlaqəsini göstərən materiallar verilmişdir (4).

70-ci illərdə işıq üzü görmüş mövzu göstəricilərindən biri də "Azərbaycan sovet ədəbiyyatşünaslığı" vəsaitidir. M.Fərzəliyevin tərtib etdiyi həmin biblioqrafik vəsait 1920-1930-cu illərdə Əmin Abid, Vəli Xuluflu, Əli Nazim, Mustafa Quliyev, Salman Mümtaz, Bəkir Çobanzadə və başqaları kimi görkəmli ədəbiyyat nəzəriyyəçilərinin folklor, qədim və orta əsrlər ədəbiyyatı, XIX-XX əsrlər ədəbiyyatı, ədəbi tənqid və publisistika, SSRİ və xarici ölkə xalqlarının ədəbiyyatı haqqında yazdıqları qiymətli tədqiqat əsərlərinin biblioqrafiyasını əhatə edir (1).

1983-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu "Azərbaycan sovet ədəbiyyatşünaslığı" adlı biblioqrafik göstərici hazırlayıb nəşr etdirir. 1920-1975-ci illəri əhatə edən bu sanballı göstəricidə Azərbaycan dilində çapdan çıxmış yüzlərlə monoqrafiya, kitab, kitabça, minlərlə qəzet və jurnal məqalələri öz biblioqrafik əksini tapmışdır (2).

Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafını öyrənmək baxımından əvəzsiz əhəmiyyəti olan həmin göstərici bu gün də tədqiqatçıların masaüstü kitabı kimi öz dəyərini saxlamaqdadır.

F.Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının son illərdə hazırlayıb nəşr etdirdiyi iki tövsiyə ədəbiyyat göstəricisi haqqında qısaca məlumat vermək də yerinə düşər.

1992-ci ildə buraxılmış birinci göstərici "Uşaq ədəbiyyatı biblioqrafiyası" adlanır. Vəsaitin tərtibçisi Zahirə Dadaşova, redaktoru Knyaz Aslandır. Göstərici 1985-1990-cı illərdə Azərbaycan



dilində uşaqlar üçün çapdan çıxmış müxtəlif məzmunlu kitabları əhatə edir. Üç hissədən ibarət olan göstəricinin hər bölməsi bir yaş qrupunun maraqlarını nəzərdə tutur. Göstəricidə üstünlüyü bədii ədəbiyyat təşkil etdiyinə görə əsərlər üç qrupa (şifahi xalq ədəbiyyatı; poeziya; nəsr əsərləri) ayrılmış, hər qrupa tövsiyə edilən ədəbiyyat əlifba sırası ilə düzülmüşdür. Bu vəsait bədii ədəbiyyatın təbliği baxımından mühüm əhəmiyyət kəsb edir (8).

İkinci vəsait isə "Azərbaycan uşaq ədəbiyyatı" tövsiyə ədəbiyyat göstəricisidir və 1969-1990-cı illərdə Azərbaycan dilində nəşr edilmiş şifahi xalq ədəbiyyatı nümunələrini, poeziya kitablarını və nəsr əsərlərini əhatə edir. Göstərici üç hissədən ibarətdir:

1) Məktəbəqədər yaşlı uşaqlar və I-IV sinif şagirdləri üçün ədəbiyyat;
2) 2) VI sinif şagirdləri üçün ədəbiyyat;
3) VII-IX sinif şagirdləri üçün ədəbiyyat.

Kitabxanaçılar, orta məktəb müəllimləri, tərbiyəçilər, həmçinin digər oxucular üçün nəzərdə tutulmuş bu vəsait uşaqların mütaliəsini düzgün istiqamətləndirməyə kömək göstərir.

Oxucular arasında bədii ədəbiyyatın təbliğində şəxsi biblioqrafik göstəricilər də mühüm rol oynayır. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə işıq üzü görən bu vəsaitlər məşhur şairlərin, yazıçıların, tənqidçilərin, ədəbiyyatşünasların, dilçilərin və başqalarının həyat və yaradıcılıq yolunu hərtərəfli izləməyə imkan verir. Bu baxımdan "Məmməd Arif Dadaşzadə" (1965), "Feyzulla Qasımzadə" (1968), "Həmid Araslı" (1970), "Məmməd Şirəliyev" (1969), "Əbdüləziz Dəmirçizadə" (1970), "Məmməd Cəfər Cəfərov" (1973), "Səməd Vurğun" (1965), "Mir Cəlal" (1968), "Məmməd Səid Ordubadi" (1975), "Nəriman Nərimanov" (1975), "Məmməd Rahim" (1980), "Xalq yazıçısı Süleyman Rəhimov" (1980), "Mirzə Fətəli Axundov" (1982), "Üzeyir Hacıbəyov" (1985), "Abbas Zamanov" (1997), "Kamal Talıbzadə" (2000) və digər şəxsi biblioqrafik göstəricilərin böyük əhəmiyyəti vardır.

Respublikamızda bədii ədəbiyyatın mövzu biblioqrafiyası sahəsində də müəyyən təcrübə qazanılmışdır. Doğrudur, sovet dövründə bu növ vəsaitlər əsasən sosializm ideyalarının təntənəsinə həsr olunur və oxucuları məhz həmin mövzulara istiqamətləndirirdi. Bu göstəricilərə misal olaraq "26 Bakı komissarı bədii ədəbiyyatda" (1964), "Azərbaycan sovet ədəbiyyatında kolxoz kəndi" (1968), "Bədii ədəbiyyatda neftçi surəti" (1958), "Azərbaycan sovet

poeziyasında Lenin obrazı" (1965) və digər vəsaitləri göstərmək olar. Bununla birlikdə "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı" (1946), "Azərbaycan ədəbiyyatı biblioqrafiyası" (1954), "Naxçıvan yazıçıları" (1974), "Bakı bədii ədəbiyyatda" (1974) kimi mövzu göstəriciləri xeyli maraq kəsb edir.

Beləliklə, həm mövzu, həm də şəxsi biblioqrafik göstəricilər oxucuların bədii ədəbiyyat və ədəbiyyatşünaslığın müxtəlif istiqamətləri haqqında ətraflı məlumat almasına imkan yaratmaqla yanaşı, həm də kamil insan kimi yetkinləşməsinə mühüm təsir göstərir. Ona görə də kitbaxanaçılar oxucularla fərdi və kütləvi iş aparakən tövsiyə biblioqrafik vəsaitlərinə tez-tez müraciət etməli, onların müəyyən mövzuya dair sorğularını və tələblərini ödəyərkən biblioqrafiyanın yardımından bəhrələnməlidirlər.

Oxucular arasında bədii ədəbiyyatın təbliğində metodik mərkəz funksiyasını daşıyan kitabxanaların müntəzəm olaraq hazırlayıb ayrı-ayrı kitabxanalara göndərdikləri metodik vəsaitlər də çox böyük əhəmiyyətə malikdir.

Məsələn, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-metodik kitabxanaşünaslıq şöbəsi kitabxanalara metodik köməkliyi yaxşılaşdırmaq məqsədi ilə 1960-cı ildən "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə vəsait nəşr etməyə başlamışdı. 1970-ci ilin oktyabr ayından həmin vəsait "Kitabxana işçisinə kömək" adı ilə müntəzəm olaraq rüblük nəşr edilirdi. Lakin müəyyən səbəblərə görə 1975-ci ilin oktyabr ayından həmin məcmuənin nəşri dayandırıldı. Respublikamızın ayrı-ayrı rayonlarında fəaliyyət göstərən kitabxana işçiləri isə saysız-hesabsız məktublar yazaraq həmin vəsaitin nəşrini davam etdirməyi tələb edirdilər. Nəhayət, 1991-ci ildən "Kitabxana işçisinə kömək" məcmuəsinin nəşri bərpa edildi və təəssüf ki, sonra yenidən dayandırıldı. Halbuki bu vəsait kitabxanalarda bədii ədəbiyyatın düzgün təbliği istiqamətində kitabxanaçılara çox səmərəli tövsiyələr verirdi.

Bunu sübuta yetirmək üçün məcmuənin 1991-ci ildə buraxılmış nömrəsini vərəqləmək kifayətdir. Burada digər sahələrə dair yazılarla birlikdə "Nazim Hikmətin anadan olmasının 90 illiyi", "M.S.Ordubadinin anadan olmasının 120 illiyi", "Molla Pənah Vaqifin anadan olmasının 275 illiyi", "Məmməd Rahimin anadan olmasının 85 illiyi", "M.F.Axundovun anadan olmasının 180 illiyi", "Xurşidbanu Natəvanın anadan olmasının 160 illiyi", "Hüseyn Cavidin anadan olmasının 110 illiyi" adlı yığcam materiallar dərc olunmuş, bu görkəmli şair və yazıçıların əsərlərinin kitabxanalarda



əyani və şifahi üsullarla təbliği üçün dəyərli tövsiyələr verilmiş, həmçinin hər bir ədib üçün ayrıca tövsiyə ədəbiyyat siyahısı tərtib edilmişdir. Bundan başqa, məcmuənin sonunda kitabxanaçılar üçün nəzərdə tutulmuş "1992-ci ildə qeyd olunacaq əlamətdar və tarixi günlər" siyahısında Azərbaycan və dünya ədəbiyyat və incəsənətinin bir sıra görkəmli xadimlərinin ad günləri ardıcıl şəkildə göstərilmişdir ki, bu da müəyyən kütləvi tədbirlərin əvvəlcədən planlaşdırılmasına imkan yaradır.

Eyni zamanda, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının çap edib kitabxanalara göndərdiyi "Mirzə Şəfi Vazehin ədəbi irsinin kitabxanalarda təbliği" (1994), "Cəlil Məmmədquluzadənin ədəbi irsinin kitabxanalarda təbliği" (1994), "Füzuli – 500" (1994), "Səttar Bəhlulzadə", "Bəstəkar Asəf Zeynallı" və s. kimi metodik-biblioqrafik tövsiyələr də bədii ədəbiyyatın və incəsənət əsərlərinin yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Həmin istiqamətdə C.Cabbarlı adına Respublika Dövlət Gənclər Kitabxanası da bir sıra uğurlu addımlar atmış, hərbi vətənpərvərlik mövzusunda yazılmış bədii əsərləri təbliğ etmək məqsədi ilə "Gənclər, Vətən sizi çağırır", ədəbiyyatşünas alim Abbas Zamanovun 95 illiyi münasibəti ilə "Yaddaşlara köçən insan", müxtəlif səpkili kütləvi tədbirlər keçirmək üçün "Sözlə və işlə tərbiyə etməli" və s. kimi metodik vəsaitlər hazırlayıb çap etdirmişdir. Məsələn, 1993-cü ildə nəşr olunmuş "Sözlə və işlə tərbiyə etməli" vəsaitində kitabxanalarda yaradılan gənclər klublarının və maraq üzrə birliklərin bədii ədəbiyyatı və incəsənətə dair əsərləri təbliğ etmək sahəsindəki iş təcrübələri ümumiləşdirilmiş, həmçinin Respublika Gənclər Kitabxanasında təşkil edilmiş oxucular konfransı, disputlar, ədəbi-bədii gecələr, sual-cavab məclisləri, musiqili-ədəbi məclislər haqqında ətraflı məlumat verilmişdir (7).

F.Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının nəşr etdirdiyi "Həyatın gözəllik cığırı" (Uşaqların estetik tərbiyəsi ilə əlaqədar Bakı şəhərindəki uşaq kitabxanalarının iş təcrübəsindən) (1987), "Səməni, saxla məni" (1989), "Gəl, gəl, a yaz günləri" (1991), "İlin əziz günləri" (1992), "Hikmət xəzinəsi" (N.Gəncəvinin anadan olmasının 850 illiyi münasibəti ilə) (1991), "1993-cü il üçün əlamətdar və tarixi günlər təqvimi" (1992), "Mənəvi irsimizdən" (1993) və s. kimi metodik-biblioqrafik tövsiyələr də maraq doğurur.

Qeyd edək ki, həmin vəsaitlərin bir çoxunun redaktoru bu sətirlərin müəllifidir.

Göründüyü kimi, istər tövsiyə biblioqrafik, istərsə də metodik-biblioqrafik vəsaitlər kitabxanalarda bədii ədəbiyyatın və incəsənətə dair əsərlərin məqsədyönlü təbliğində çox böyük rol oynayır. Təəssüf ki, son zamanlar metodik mərkəzlərin maliyyə böhranı ucbatından bu lazımlı vəsaitlər ya çox az-az hallarda cüzi nüsxələrlə çap olunur, ya da əlyazması şəklində qovluqlarda saxlanılır. Fikrimizcə, Mədəniyyət Nazirliyi bu vacib məsələyə diqqət yetirməli, metodik mərkəzlərin əvvəlki fəallığının bərpası üçün əməli işlər görməli, vəsaitlərin nəşrinə şərait yaratmalı, maliyyə dəstəyi verməlidir. Unutmaq olmaz ki, gənc nəslin kamil şəxsiyyət kimi formalaşması həm də həmin vəzifələrin həllindən asılıdır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1930): Biblioqrafik göstərici. – B.: Azərnəşr, 1972, - 50 s.*
2. *Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975): Biblioqrafik göstərici. –B.: Elm, 1983 – 942 s.*
3. *Babayev H. Azərbaycan ədəbi əlaqələri (1920-1959): Biblioqrafii göstərici. – B.: Azərb.EA nəşri, 1959.- 112 s.*
4. *Babayev H. Azərbaycan ədəbiyyatının beynəlmiləl əlaqələri (1920-1978): Biblioqrafik göstərici. –B.: Elm, 1979. – 636 s.*
5. *Kazımov R. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası (1920-1965). Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. 1971, s.115.*
6. *Kitabxana işçisinə kömək. Metodik vəsait. B., M.F.Axundov adına ADK, 1991,- 132 s.*
7. *Qasımov A. Sözlə və işlə tədbir etməli. – B.: C.Cabbarlı adına RGK, 1993, - 122 s.*
8. *Uşaq ədəbiyyatı biblioqrafiyası (1985-1980). B.: F.Köçərli adına ADUK, 1992, - 36 s.*




*Князь Аслан*

### *Роль системы рекомендательно-библиографических и методических пособий в пропаганде художественной литературы*

**Резюме**


*Стремление охватить рекомендательно-библиографических и методических пособий по художественной литературе самые различные круги читателей, характерное для нашего времени, выдвинуло в качество одной из основных проблем создание системы рекомендательных и методических пособий искусствоведческой тематики. Её ядро составляют общие указатели по искусству в целом или по отдельным его видам, а также по художественной литературы.*

*Они предназначены в помощь самообразованию читателей разного уровня эстетической подготовки (начального, среднего, высшего) и образуют как бы расширяющиеся концентрические программы с соответствующим отбором литературы, что обеспечивает читателям при переходе с одной ступени эстетического развития на другую необходимую преемственность в самообразовательной работе.*

*Особое значение этих изданий в том, что они в сущности определяют содержание. А отчасти и методику работы по направлению чтением в области художественной литературы в массовых библиотеках Азербайджана.*

*Sənubər MUSTAFAYEVA*
*Baş müəllim*
*Səfurə Hacıyeva*
*Laboratoriya müdiri*

# DİSSERTASİYALARIN TƏSVİRİ

Azərbayjan respublikasının müstəqillik əldə etdiyi bir dövrdə, bazar iqtisadiyyatı şəraitində, dünya bazarlarına çıxmaq, iqtisadiyyatı inkişaf etdirmək məqsədilə hər bir mystəqil dövlət ilk növbədə öz informasiya bazasının formalaşdırılmasına çalışır.

Bütün yeniliklər, ixtiralar öz əksini normativ-texniki sənədlərdə tapır. Buna görə də kitabxana fondlarının əsas tərkib hissəsini məhz informativ-texniki sənədlər təşkil edir. "Kitabxana fondunun tərkibinə kitab, curnal, qəzet, digər çap məhsulları, audivizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıjıları daxildir"(3). Normativ-texniki sənədlər içərisində dərj edilməyən sənəd növünə aid edilən dissertasihaların xüsusi rolu vardır. Məhz dissertasiyalarda son tədqiqatlar, elmi nailiyyətlər əks etdirilir. Təsadüfi dehildir ki, kitabxana fondlarında dissertasiyaların toplanıb,mühafizə edilməsinə xüsusi diqqət yetirilir. Belə ki, Azərbayjan Respublikası EA-nın elmi kitabxanasının fondunda 1750 nüsxə (1), M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının fondunda 2538 nüsxə (4), Bakı Dövlət Universiteti elmi kitabxanasının fondunda 4533 nüsxə (2), dissertasiya saxlanılır.

Dissertasiya - müəllif tərəfindən mövzusu şəxsən seçilib hazırlanan, namizədlik və doktorluq elmi dərəjəsini almaq üçün təqdim edilən elmi-tədqiqat işini özündə əks etdirən sənəddir.

Adətən, dissertasiya yazı makinasında və ya kompüterdə yazılmış formada təqdim edilir. Ayrı-ayrı hallarda dərj edilmiş elmi tədqiqat işi və dissertasiya şəklində təqdim edilir.

Biblioqrafik təsvirin obyektini birjildli və yaxud çoxcildli dissertasiyalar təşkil edir. Dərc edilmiş dissertasiyaların təsviri kitabların biblioqrafik təsviri qaydalarına əsaslanır.



Bircildli dissertasiyaların monoqrafik təsvirinin sahə və ünsürləri aşagıdakılardan ibarətdir (5).

Təsvirin başlıgı
Sərlövhə və məsul şəxslər haqqındı məlumat sahəsi
Əsas sərlövhə
: Sərlövhəyə dair məlumatlar
/ Məsul şəxslər haqqında məlumatlar
Xüsusi ( spesifik) məlumatlar sahəsi
Müdafiənin tarixi
; Təsdiq edilmə tarixi
; Dövlət qeydiyyat nömrəsi
Buraxılış məlumatlar sahəsi
Dissertasiyanın yazıldığı yer
, Dissertasiyanın yazılma tarixi
Miqdar xarakteristikası sahəsi
Həcm
: İllüstrasiyalar
; Ölçü
+ Qoşma materiallar
Qeyd sahəsi

Bircildli dissertasiyanın monoqrafik təsvirinin sxemi

Təsvirin başlığı

Əsas sərlövhə: Sərlövhəyə dair məlumatlar / Məsul şəxslər haqqında məlumatlar.- Müdafiənin tarixi; Təsdiq endilmə tarixi; Dövlət qeydiyyat nömrəsi.- Dissertasiyanın yazıldığı yer, Dissertasiyanın yazılma tarixi.- Həcm: İllüstrasiyalar; Ölçü+ Qoşma materiallar .- Qeyd.

Biblioqrafik təsvir bir qayda olaraq sənədin mətninin dilində tərtib olunur.

Biblioqrafik təsvir üçün əsəs mənbə dissertasiyanın özü və onun ünsürləri hesab edilir ki, onllardan aşağıdakı qaydada istifadə olunur.

Titul vərəqi
Cild
Mətn (o cümlədən ön söz, giriş və s.)

Yerdə qalan məlumatları daha dəqiqləşdirmək məqsədilə dissertasiyanın qeydiyyat kartoçkasından, avtoreferatdan, AAK-nın (Ali Attestasiya Komissiyası) protokollarının surətlərindən və digər mənbələrdən əldə etmək olar .

Digər mənbələrdən əldə edilmiş məlumatlar kvadrat mötərizə içərisində göstərilir.

Dissertasiya müəllifin familiyasına əsasən təsviri başlığı üzrə, ya da sərlövhə üzrə təsvir edilir.

Kitabxana kataloqlarında biblioqrafik yazının təsvirin başlığı üzrə tərtib edilməsi məjburidir. Digər informasiya nəşrlərində təsvirin başlığının tərtib edilməsi məcburi deyildir.

Biblioqrafik təsvirin başlığında müəllifin soyadı, adı və atasının adı tam şəkildə yazılır, yaxud da soyadı və inisialları göstərilir.

Xələfov Abuzər Alı oğlu

Kazımov R.Ə.

İsmayılov X.İ.

1.Sərlövhə və məsul şəxslər haqqında məlumat sahəsi.

Sərlövhə və məsul şəxslər haqqında məlumat sahəsində dissertasiyanın digər sənədlərdən fərqləndirən məlumatlar verilir. Bunlara sənədin adı, növü haqqında məlumatlar, həmçinin də dissertasiya müəllifinin familiyası haqqında məlumatlar daxildir.

Biblioqrafik məlumatlar üçün titul vərəqi əsas mənbə hesab edilir.

Əsas sərlövhə təsvirin ünsürü olaraq titul vərəqində verilmiş dissertasiyanın adını özündə əks etdirir. Dissertasiyanın sərlövhəsini aid edilən tarixlər sərlövhədən sonra aşağıdakı qaydv üzrə göstərilir:

a) əgər tarixlər mötərizə içərisində verilərsə, onda onlar vergül işarəsi tətbiq edilmədən sərlövhədən sonra göstərilir;

Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)

b) əgər tarixlər titul vərəqində mötərizə içərisində göstərilməyibsə, onda biblioqrafik təsvirdə dissertasiyanın sərlövhəsindən sonra vergül işarəsi tətbiq edilir,

Azərbaycanın iqtisadi və sosial inkişafı, 70-80-ci illər

Sərlövhəyə dair məlumatlarda sərlövhəni aydınlaşdıran, izah edən məlumatlar verilir. Bunlar aşağıdakılardan ibarətdir:



a) sərlövhəni aydınlaşdıran, izah edən məlumatlar;

Azərbaycan neft sənayesi elmi-texniki kitabxanaları: tarixi müasir vəziyyəti, inkişaf perspektivləri.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanan mədəniyyət xadimlərinin estetik görüşləri: Estetik ənənələrin inkişafı

b) elmi işin dissertasiya kimi təqdim edilməsi haqqında, dissertasiyanın hansı elmi dərəjəni almaq üçün təqdim edilməsi haqqında məlumatlar;

Tarix elm.namiz. ... dis.

Tarix elm.d-ru ... dis.

Sənədşünaslıq elm.namiz. ... dis.

c) elmi işin ixtisar nomenklaturasının şifrəsi haqqında məlumat

05.25.03

17.00.01

07.01.02

Məsul şəxslər haqqında məlumatda dissertasiya müəllifinin familiyası göstərilir.Bu üsul biblioqrafik təsvirin dissertasiyanın sərlövhəsi üzrə tərtib edildikdə tədbiq edilir.

2.Xüsusi (spesifik) məlumatlar sahəsi. Bu sahədə dissertasiya işinin müdafiə edilməsi və təsdiq edilməsi tarixləri haqqında, həmçinin də dissertasiyanın qeydiyyat nömrəsi haqqında məlumat verilir.

Müdafiə ed. 20.IX.98; Təsdiq ed.15.II.99.

Dövlət qeydiyyat nömrəsi dissertasiyanın uçot kartoçkasında göstərildiyi qaydada biblioqrafik təsvirdə öz əksini tapır.

Müdafiə ed.12.X.87; Təsdiq ed.17.III.88;

038400012 .

3.Buraxılış məlumat sahəsi. Bu sahədə dissertasiyanın nə vaxt və harada yazılması haqqında məlumat verilir. Sahə daxilində ünsürlər təsvirin ümumi qaydalarına əsasən əks etdirilir.

B.,1989.

B.,1999.

4.Miqdar xarakteristikası sahəsi. Bu sahədə biblioqrafik ünsürlər təsvirin ümumi qaüdalarına əsasən yerləşdirilir.

214 s.
145, [28] s.
IY,140, XVII s.

Əgər dissertasiyanın ölçüsü standart ölçüdən fərqlənirsə, onda dissertasiyanın hündürlüyü də göstərilə bilər.

187 s.: il.,33 sm.

5.Qeyd sahəsi. Bu sahədə dissertasiyaya əlavə olaraq qoşma sənədin sərlövhəsi haqqında dissertasiyanın mətnin dili haqqında, dissertasiyanın yazılmasında istifadə edilmiş ədəbiyyat siyahısı haqqında və s. haqqında məlumat verilə bilər.

Mətn azərb.dil.
Mətn ing. Dil.
Biblioqr.:s.117-138.
Biblioqr.: 15 s.

## ƏDƏBİYYAT

*1.Azərbayjan Respublikası EA-nın Mərkəzi elmi kitabxanasının 2000-ci il hesabatı.*

*2.Bakı Dövlət Universiteti elmi kitabxanasının 2000-ci il hesabatı.*

*3.Kitabxana işi haqqında Azərbayjan Respublikasının Qanunu //Azərbaycan.- 1999.- 14 mart.*

*4.M.F.Axundov adına Azərbayjan Dövlət kitabxanasının 2000-ci il hesabatı.*

*5.Правила составления библиографического описания: 4.4. Нормативно-технические и технические документы, неопубликованные документы. -М.,1989.-С.152.*

***Мустафаева С.***
***Гаджиева С.***

### *Описание диссертаций*

**Резюме**

*Статья освещает вопросы библиграфического описания диссертаций. в статье вкратце изложены роль и значение диссертации, а также рассмотрены основные положения библиографического описания представления областей и элементов библиографического описания диссертационных работ.*

*Ulduz HACIYEVA*
*Baş laborant*

# 1959-1965-Cİ İLLƏRDƏ RESPUBLİKA ELMİ TEXNİKİ KİTABXANASI FONDUNUN İNKİŞAFI

Müasir dövrdə ölkəmizdə elmi-sahəvi kitabxanalar sistemində Respublika Elmi Texniki Kitabxanasının xüsusi yeri vardır.

Hal-hazırda Respublika Nazirlər Kabinetinin dövlət elm və texnika komitəsinin tabeliyində olan RETK ölkəyə texniki kitabxana şəbəkəsinin baş kitabxanası kimi aşağıdakı mühüm funksiyaları yerinə yetirir:

- texnika və texniki elmlərə dair çap məhsulu və digər sənədlərin dövlət saxlayıcısıdır;
- texnika üzrə elmi biblioqrafiya və informasiya mərkəzidir;
- texniki nəşrlər üzrə baş depozitar fonddur;
- ölkənin bütün texniki kitabxanaları üzrə elmi və metodiki mərkəzidir;
- texniki ədəbiyyat üzrə respublikamızda KAA mərkəzidir.

Qeyd etmək lazımdır ki, RETK özünün təqribən 80 ilə yaxın tarixi inkişaf yolu keçmiş və bu yolun bütün mərhələlərində texniki ədəbiyyatın və informasiyanın yayılması və təbliğinə yönəlmiş çoxsahəli və səmərəli fəaliyyət göstərmişdir.

Əsası 1920-ci ildə qoyulmuş bu kitabxana 1930-cu ildən 1957-ci ilə qədər neft sənayesi işçilərinin mərkəzi kitabxanası kimi fəaliyyət göstərmiş və 1957-ci ildən Respublika Elmi-Texniki kitabxanası funksiyasını yerinə yetirir[1].

1957-ci ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə onun Respublika Elmi Texniki Kitabxanasına çevrilməsi şübhəsiz ki, kitabxananın inkişafında, sosial funksiyalarının həyata keçirilməsində yeni mərhələnin başlanğıcı oldu.

Professor Abuzər Xələfovun qeyd etdiyi kimi: "50-ci illərdə ölkəmizdə elmi-texniki tərəqqi geniş miqyas almışdı. Kitabxana

qarşısında bu inkişafa xidmət etmək, fəhlə sinfinin istehsalat-texniki səviyyəsini yüksəldib mühəndis-texniki işçilərinin səviyyəsinə çatdırılmasına kömək, texniki ziyalıların artan tələbatını ödəmək vəzifəsi qoyulmuşdu. Texniki kitabxananın Respublika elmi-texniki kitabxanasına çevrilməsi onun işinin miqyasını, fondunun profilini dəyişdi. Kitabxananın fondu universal xarakter daşımağa başladı[2]. Onu da qeyd etmək lazımdır ki, 1959-cu ilin sentyabr ayının 25-də Sov.İKP MK tərəfindən qəbul edilmiş "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı bütün dövlət müəssisələrinin və ictimai təşkilatların diqqətini kitabxana işinə cəlb edərək respublikada kitabxanaların inkişafı üçün əlverişli şərait yaratmışdır.

Əvvəllər təqribən 40 il ərzində mərkəzi neft ədəbiyyatı kitabxanası kimi neft sənayesi işçilərinə xidmət edən bu kitabxananın fondu şübhəsiz ki, 50-ci illərə qədər məhz müvafiq profilli sənədlər əsasında formalaşmışdır. Bu illərdə fondun əsas hissəsini neft çıxarma, neft emalı neft geologiyası, neft kimyası, neftin işlənməsi, neftmaşınqayırma sənayesi sahələrinə dair ədəbiyyat təşkil etdiyi halda, 50-ci illərin sonunda isə kitabxananın statusunun dəyişməsi onun qarşısında çox saholi, respublika sənayesinin bütün sahələrinə xidmət edə biləcək fondun formalaşması vəzifələrini qoymuşdu.

Şübhəsiz ki, bu vəzifələrin yerinə yetirilməsi kitabxananın profilinə uyğun komplektləşdirilməsindən əlavə, bu işin forma və metodlarının da dəyişməsi və genişləndirilməsi tələb edilirdi.

Respublika elmi-texniki kitabxanasının fondunlakı kəmiyyət və keyfiyyət dəyişiklikləri əsasən 1958-ci ildən başlandı. Bu məqsədlə kitabxana birinci növbədə fondu məzmun baxımdan genişləndirməyə başladı. Fondu respublikanın bütün sənayeni kompleks əhatə edən kitablar və digər sənədlərlə tam və dolğun şəkildə zənginləşdirməyi qarşıya məqsəd qoymuşdu. Bu vəzifələri yerinə yetirmək məqsədilə kitabxanada komplektləşdirmə şürası yaradıldı. Şura kitabxananın yeni komplektləşdirmə proqramını, daha doğrusu onun yeni tematik-tipoloji planını hazırladı. Bədii olaraq yeni tematik-tipoloji planda bu illərdə Azərbaycanda neft sənayesindən əlavə, energetika, dağ-mədən işi, metalurgiya kimya sənayesi, maşınqayırma, tikinti, nəqliyyat və texnikanın müxtəlif sahələrinə dair azərbaycan, rus və xarici dillərdə ədəbiyyatın alınması nəzərdə tutulurdu. Bu məqsədlə 1959-cu ildə 150-dən artıq



müxtəlif nəşriyyatların planlarını işləmiş və onların əsasında komplektləşdirmənin işçi planı və sifariş kartotekası hazırlanmışdır.

1959-cu ildə yeni tərtib edilmiş komplektləşdirmə planında fondun yeni nəşrlərlə komplektləşdirilməsi üçün SSRİ-nin və Respublikanın kitabxana kollektorlarından, kitab mağazalarından, "Kniqa-poçta", abunə, "Beynəlxalq kitab mübadiləsi" (Mejdunarodnaya kniqa) və digər mənbələrdən ədəbiyyatın əldə edilməsi nəzərdə tutulurdu.

1959-cu ildə Respublika Elmi Texniki Kitabxanası yuxarıda göstərdiyimiz tədbirlərdən əlavə SSRİ-nin bir çox iri, universal və sahəvi elmi kitabxanalarına müraciət edərək onların mübadilə fonlarından öz profilinə uyğun ədəbiyyatın alınmasına çalışmış və nəticədə yalnız bir il ərzində kitabxanaya ölkənin müxtəlif mübadilə fonlarından 40 min nüsxədən artıq müxtəlif ədəbiyyat daxil olmuşdur[3].

1958-1962-ci illərdə RETK-nın struktur quruluşu da təkmilləşdirildi. Fondun tərkibində sahəvi fondla yanaşı, qiraət zalının yardımçı fondu, biblioqrafik vasitələr, xarici dövri nəşrlər, patent və standartlar. Texniki ədəbiyyatın xüsusi növlərindən ibarət yeni fondlar təşkil edildi.

1960-cı illərin əvvəllərində keçmiş SSRİ-nin bütün texniki kitabxanalarında olduğu kimi Respublika Elmi Texniki kitabxanasının fəaliyyətində də olduqca əhəmiyyətli dəyişikliklər baş verdi. Bu dəyişikliklər SSRİ Nazirlər Sovetinin 1962-ci ildə qəbul etdiyi "Ölkədə elmi-texniki informasiya sisteminin təşkilinin yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı ilə əlaqədar idi. Bu qərarda ölkədə elmi-texniki informasiyanın toplanması və istifadə edilməsi, soraq-informasiya fondlarının təşkili, sənəd informasiyalarının hazırlanması, işlənməsi və axtarışının kompleks şəkildə mexanikləşdirilməsi və avtomatlaşdırılması kimi çox mühüm vəzifələr irəli sürülürdü[4].

Qərarda Texniki Kitabxanaların qarşısında onun informasiya fəaliyyətinin respublika elmi-texniki tərəqqinin sürətləndirilməsi vəzifələrini qoyurdu. Şübhəsiz ki, bu vəzifələrin yerinə yetirilməsi ilk növbədə kitabxananın fondunun informasiya sənədləri ilə daha tam və dolğul tamamlanmasını və onların daha səmərəli istifadə edilməsini tələb edirdi.

Bu məqsədlə RETK SSRİ-də və Azərbaycanda nəşr edilən informasiya mənbələrini: Referativ jurnalların, sahəvi və regional

informasiya orqanlarının, normativ-texniki sənədlərin və digər materialların komplektləşdirilməsinə diqqəti artırdı. Artıq 1963-cü ildə RETK, SSRİ-nin 36 informasiya orqanı ilə əlaqə yaradıb və onlardan 180 adda müxtəlif informasiya materialları almışdır[5].

50-ci illərin sonu və 60-cı illərin əvvəllərində RETK-nın fondunun yeni vəzifələrə uyğun formalaşması özünü fondun sürətlə inkişaf etməsində, onun məzmununun və profilinin genişlənməsində göstərirdi. Bunu aşağıdakı statistik göstəricilərdə aydın görmək olar. Belə ki, 1958-ci ilə qədər Respublika elmi-texniki kitabxanasına orta hesabla 10-12 min nüsxə yeni ədəbiyyat daxil olurdusa, 1959-cu ildən başlayaraq bu rəqəm orta hesabla 48-50 minə çatmışdı. 1960-cı ildə isə kitabxananın fondu 148 min nüsxə artaraq 300 minə çatmışdır.

Həyata keçirilən təşkilati, metodiki tədbirlər nəticəsində RETK-nın fondunun ümumi həcmi 1959-cu ildə 105454 nüsxə olmuşdursa, 1965-ci ildə artıb 470 min 799 nüsxəyə çatmışdır[6]. Fondun tipoloji baxımından da inkişafı diqqətə layiq idi. Belə ki, Respublika elmi-texniki kitabxananın fondunda yalnız kitabların sayı 7614 nüsxə olmuşdursa, 1965-ci ildə onların sayı 157689 nüsxəyə çatmışdı[7].

Bu sürətli inkişaf fondun digər hissələrinə də aid idi. Məsələn, dövri nəşrlər bu müddət ərzində müvafiq şəkildə 44.559 nüsxədən 81.620 nüsxəyə, xarici dövri nəşrlər 30219 nüsxədən, 43.219 nüsxəyə, patentlər 13724 nüsxədən, 102960 nüsxəyə, standartlar 47 nüsxədən, 32150 nüsxəyə, sənaye kataloqları 1572 nüsxədən, 11476 nüsxəyə, tərcümə materialları 871 nüsxədən, 3412 nüsxəyə çatdırılmışdır[8].

Beləliklə, 1959-1965-ci illərdə Respublika elmi-texniki kitabxanasının fondu sürətlə artmaqla yanaşı məzmunu zənginləşmiş, respublikanın sənaye komplektlərində çalışan alimlərə, mühəndis-texniki işçilərə, tələbələrə, fəhlələlərə və digər oxucu qruplarına xidməti xeyli yüksəltmişdir.

Respublika Elmi-Texniki Kitabxanasının fondunda baş vermiş bu mütərəqqi kəmiyyət və keyfiyyət dəyişiklikləri təbii ki, onun oxucu dairəsinin, kitab verilişinin tərkibində, xidmət işinin məzmununa da dəyişikliklərin meydana gəlməsinə səbəb olmuşdur.



## *ƏDƏBİYYAT*

1. *Respublika elmi-texniki kitabxanasının 1959-1960-cı illərə dair hesabat sənədləri.*
2. *RETK-nın 1963-cü il hesabatı – s.19-20.*
3. *RETK-nın 1965-ci il hesabatları.*
4. *Xələfov A.A. və b. Kitabxana işçisinin məlumat kitabı.-B.: Azərnəşr, 1986, s.84.*
5. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. –B.: Azərnəşr, 1974, -s.235-236.*

***Гаджиева У.***

***Развитие фондов Республиканской Научно-Технической Библиотеки в 1959-1965 гг.***

**Резюме**

*В статье рассмотрены важнейшие тенденции развития документальных ресурсов библиотеки в первой половине 60-х годов, в кратце проанализован технико-типологический состав комплектования фондов в соответствии с задачами научно-технического прогресса в Азербайджанской Республике в рассматриваемый период.*

*Hicran İSMAYILOVA*
*Baş laborant*

# AZƏRBAYCANDA TİBB KİTABXANALARININ TARİXİNƏ DAİR (1920-1940)

Azərbaycan tibb kitabı və kitabxanalarının yaranması tarixi çox qədim dövrlərə gedib çıxır. Hələ qədim dövrlərdən Azərbaycanda elmi fikrin, o cümlədən təbabət fikrinin inkişafı tibbə dair ədəbiyyatın meydana gəlməsi və qədim kitabxanalarımızın həmin ədəbiyyatla zənginləşməsinə şərait yaratmışdır.

Xalqımızın böyük mütəfəkkirlərindən Nizaminin, Xaqaninin, görkəmli alimlərindən Bəhmənyar ibn Mərzbanın, Xətib Təbrizinin, Qətran Təbrizinin elmi dünya görüşlərində dövrün qabaqcıl təbabət fikirlərinin olması həmin dövrlərdə mövcud kitabxanalarda təbabət ədəbiyyatının olmasından xəbər verir.

Professor A.Xələfovun qeyd etdiyi kimi hələ «XIII əsrin əvvəllərində... Azərbaycanda təbabətşünaslıq elmləri, riyaziyyat, tibb, astronomiya və s. xeyli inkişaf etmişdir. Hülakü sarayı ətrafında toplanmış təbiblər yeni əsərlər yaradırdılar» (1).

Ehtimal etmək olar ki, orta əsr Azərbaycan kitabxanalarında dövrün digər elm sahələri ilə yanaşı təbabət elminə dair də orjinal və tərcümə əsərləri olmuşdur.

Tanınmış şərqşünas alim S.N.Onullahi göstərir ki, Qazan xanın vəziri Rəşidəddin Fəzlullahın Təbriz şəhərinin yaxınlığında yaratdığı «Şəhristane Rəşidi» adlı şəhərcikdə karvansara, mədrəsə binaları ilə yanaşı xəstəxana (dar-əş-şəfa) müəllimlər və həkimlər evi, əczaxana universiteti və müxtəlif kitabxanalar olmuşdur.

Şübhəsiz ki, həkimlər evi, müəllimlər evi və universitetin kitabxanalarında təbabət elminin nailiyyətlərini əks etdirən kitablar olmuşdur. Ş.İ.Xətai tərəfindən XVI əsrin əvvəllərində yaradılmış Təbrizdəki saray və Ərdəbildəki Şeyx Səfi məqbərəsi kitabxanasında da tibb, səhiyyə və təbabətə dair bilikləri əks etdirən kitabların olması şübhə doğurmur. Bütün bunlara baxmayaraq Azərbaycanda



müstəqil tibb kitabxanalarının yaranması və şəbəkə kimi formalaşması məhz XX əsrə təsadüf edir (2). Belə ki, Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin planlı və məqsədyönlü şəkildə inkişafı XX əsrin 20-ci illərindən başlanmışdır.

20-ci illərin əvvəllərində Azərbaycanda səhiyyə və tibb ədəbiyyatı fondları əsasən 3 kitabxanada cəmləşdirilmişdir. Bunilar hələ XIX əsrin sonunda yaranmış Bakı həkimlər cəmiyyətinin kitabxanası, Mixaylovski və Sabunçu xəstəxanalarının kitabxanaları idi.

Statistik materiallara görə bu kitabxanaların fondunda 3849 adda kitab və 92 adda rus və Avropa dillərində olan müxtəlif dövrü orqanlar var idi(3). Eyni zamanda tibb ədəbiyyatı cüzi miqdarda Bakı neft sənayesi qurultayı cəmiyyətinin kitabxanasında da mövcud idi(4). Bütün bunlar 20-30-cu illərdə Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin yaranması və formalaşması üçün müəyyən qədər zəmin yaradırdı.

Şübhəsiz ki, sovet hakimiyyəti illərində Azərbaycanda tibb və səhiyyənin inkişafı istiqamətində həyata keçirilən mütərəqqi tədbirlər, xüsusən bu sahədə kadr hazırlığı istiqamətində aparılan işlər tibb işçilərinə xidmət edən xüsusi kitabxana şəbəkəsinin yaranmasını tələb edirdi. Qeyd etmək lazımdır ki, hələ 20-ci illərin əvvəllərində Azərbaycanın yeni formalaşan səhiyyə sahəsində 135 müxtəlif tibb müəssəsi fəalliyyət göstərirdi ki, bu müəssələrdə 500-ə qədər müxtəlif səviyyəli mütəxəssiz və işçi çalışırdı (5).

20-ci illərin əvvəllərində Azərbaycanda yüksək ixtisaslı tibb işçilərinin hazırlanması işi ilə əsasən Bakı Dövlət Universitetinin tibb fakültəsi məşğul olurdu. Bunun üçün BDU-nun elmi kitabxanasında tibb ədəbiyyatı fondunun yayılması çox vacib məsələ idi. «1920- ci ildə universitetin xahişi ilə Azərbaycan sovet hökuməti keçmiş Mixaylovski və Sabunçu xəstəxanasının kitabxanalarını universitetin kitabxanasına verdi. Burada tibbə dair qiymətli kitablar var idi (6). Bu kitabların əsasında kitabxananın tibb şöbəsi təşkil edildi .Bu şöbə təşkil edilərkən onun 212 cild kitabı var idi. Daha sonra A.Xələfov göstərir ki, kitabxananın tibb ədəbiyyatı fondunun zənginləşdirməsi məqsədilə o dövrdə Bakıda fəaliyyət göstərən həkimlərdən Xodofoviç, Fayerman, Levin və s. öz şəxsi kitabxanalarını universitetin kitabxanasına vermişdilər».

Azərbaycanda tibb kitabxanalarının tarixi ilə məşğul olmuş tanınmış biblioqrafiyaşünas Nadir İsmayılov göstərir ki, 20-ci illərdə universitet kitabxanasını zənginləşdirmək üçün yaranmış

xüsüsi komissiya tərəfindən Bakı şəhərinin müxtəlif təşkilatlarından 120 min, Tbilisi şəhərindən isə 18 mln. manatlıq müxtəlif elm sahələrinə dair ədəbiyyat alınmışdır ki, bunların içərisində xeyli tibb ədəbiyyatı da var idi (7).

Məşhur həkim-alim, BDU-nun tibb fakultəsinin yaradıcılarından biri professor N.İ. Şirokoqorov hələ 1982-ci ildə dərc olunmuş tibb fakültəsinin yaranması tarixinə həsr olunmuş oçerklərində yazır ki, universitetin tibb fakültəsinin yaranması xarici ölkələrdən kitab və jurnalların alınması çox çətin vaxtlara təsadüf etməsinə baxmayaraq, son vaxtlar bu sahəyə dövlət vəsaitinin artırılması nəticəsində fakültəyə tibbə dair bütün rus jurnallarını və 36 ayda xarici jurnalları almaq mümkün olmuşdur (8).

Prof. N. Şirokoqorovun eyni adlı oçerklərindən məlum olur ki 20-ci illərdə BDU-nun tibb fakültəsinin nəzdindəki imumi kitabxana ilə yanaşı onun ayrı-ayrı kafedralarının nəzdində ixtisaslaşdırılmış kitabxanalar olmuşdur .

Müəllifin qeyd etdiyi kimi 1927-ci ildə normal anatomiya kafedrasının kitabxanasında 235 kitab, sosial gigiyena kafedrasının kitabxanasında isə Bakı sanitariya maarifi evindən alınmış xeyli ədəbiyyat cəmləşdirilmişdi.

Ölkədə ali təhsil sistemində aparılan islahatlarla əlaqədar, Azərbaycan Xalq Komissarlar Sovetinin 9 may 1930-cu il qərarına əsasən BDU-nun tibb fakültəsi bazasında müstəqil Azərbaycan Dövlət Tbb İnstitutu yarandı. Bununla fakültənin əsas və yardımçı kitabxanaları tibb institutunun elmi kitabxanasının əsasını qoydu.

Onu da qeyd edək ki, əgər 1919-cu ildə Bakı Dövlət Universiteti təşkil edilən ildə tibb fakültəsinin nəzdindəki kitabxanada cəmi 2 min nüsxəyə yaxın kitab vardısa, 1940-cı ildə tibb institutu kitabxanasında 100 min nüsxədən artıq sənəd-informasiya fondu formalaşmışdı. Bu zəngin kitabxana fondunun formalaşmasına xidmət edən ən mühüm amillərdən biri həmin ildən kitabxana tərəfindən SSRİ-də nəşr olunan tibb ədəbiyyatının pullu məcburi nüsxəsi idi. Eyni zamanda kitabxanada ölkədaxili və beynəlxalq kitab mübadi-ləsinin ildən-ilə genişlənməsi onun informasiya sərvətlərinin inkişafına əsaslı təsir göstərirdi. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1940-cı ildə tibb institutunun kitabxanası keçmiş SSRİ-nin 175 və xarici ölələlərin 62 təşkilatı ilə kitab mübadiləsi aparırdı(7).



20-ci illərdən başlayaraq Azərbaycanda səhiyyə işləri və tibb elminin inkişafına xidmət edən kitabxanalar içərisində 1923-cü ildə əsası qoyulmuş M.F.Axundov adına Dövlət kitabxanasının da xeyli xidmətləri olmuşdur. Yarandığı ildən universal milli kitabxana kimi forma-laşmağa başlayan bu kitabxana bütün elm sahələri ilə yanaşı, tibb və səhiyyə problemləri ilə əlaqədar zəngin kitab fondu formalaşdırmağa başlamışdı. Kitabxananın oxucuları içərisində həkimlər, tibb sahəsində çalışan alimlər, müxtəlif tibb-müalicə müəssisələrində çalışan təcrübi işçilər, eləcə də tibb təhsil müəssisələri tələbələri az deyildi .

Bu fikri əsası 1924-cü ildə Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti kitabxanası haqqında söyləmək olar.

Bilavasitə tibb kitabxanaları şəbəkəsinə gəldikdə isə bu işin təşəkkülündə 20-ci illərdə Azərbaycanda meydana gələn tibb və səhiyyə problemləri ilə məşğul olan ilk elmi-tədqiqat müəssisələri kitabxanalarını da xüsusi qeyd etmət lazımdır.

Məlum olduğu kimi, 20-ci illərdə Azərbaycanda səhiyyə və tibb elmləri sahəsində yaranan ilk elmi-tədqiqat müəssisəsi Mikrobiologiya və gigiyena institutu olmuşdur. Bu elmi tədqiqat institutunun əsası 1923-cü ildə qoyulmuşdur.

1926-cı ildə peşə xəstəlikləri, ana və uşaq mühafiəsi, 1928 -ci ildə sanitariya-epidomologiya, 1931-ci ildə tropika, 1936 –cı ildə kurortologiya və müalicənin fiziki metodları elmi-tədqiqat institutları yaranmışdır (9).

Azərbaycanda səhiyyə və tibb sahəsində elmi kitabxanalar şəbəkəsinin yaranması və formalaşması, demək olar ki, bu elmi tədqiqat müəssisələrin nəzdində yaranan kitabxanalar ilə başlanmışdır. 20-30-cu illərdə Azərbaycanda yaranmış bu və ya digər tibb elmi-tədqiqat institutlarının kitabxanaları ölkədə səhiyyə və tibb istiqamətlərində aparılmağa başlayan ilk elmi araşdırmaların sənəd-informasiya təminatının formalaşmasında əvəzsiz rol oynamışlar. Bu kitabxanalarda öz dövrünün müasir tibb elminin ən yeni nailiyyətlərini əks etdirən dünya ədəbiyyatı mühavizə edilirdi .

Məsələn, sanitariya-epidemiologiya elmi-tədqiqat institutunun kitabxanasında o dövrdə respublikamızda sanitariya-epidemioloji xidmətin elmi-nəzəri əsasları, xidmətin təşkili, Azərbaycanda sanitariya-epidemik şəraitin öyrənilməsi, sanitariya dövlət nəzarət sisteminin formalaşması, əhalinin yaşayış yerlərinin santariya vəziyyətinin yaxşılaşdırması, sanitariya cihazlarının yaradılması və

s. istiqamətlərdə aparılan elmi-tədqiqat işlərinə dair yüzlərlə Azərbaycan, rus və digər xarici dillərdə nəşr edilmiş kitablar, dövri orqanlar və digər sənədlər toplanmışdır .

On dörd şöbəsi və laboratoriyası olan kurortologiya və fiziki üsullarla müalicə elmi-tədqiqat institutunun kitabxanasında formalaşmış fondun tərkibində təbii amillərin müalicə xüsusiyyətləri, orqanizmə təsir mexanizmi, fizioterapiya, kurort şəraitinin öyrənilməsi, kurort-sanitariya müəssisələri tikilməsinin elmi əsaslarını əks etdirən müxtəlif tipli elmi, məlumat ədəbiyyatı, dövri orqanlar və normativ sənədlər cəmləşdirilmişdi. 30-cu illərin sonunda Azərbaycanda səhiyyə və tibb problemləri ilə məşğul olan 5 elmi tədqiqat institutunun kitab fondunda 42 min nüsxədən artıq müxtəlif ədəbiyyat var idi ki, bunlardan 2 minə qədər oxucu istifadə edirdi (10).

30-cu illərin ikinci yarısında Azərbaycanda səhiyyə sisteminin sürətlə inkişaf etməsi nəticəsində tibb ədəbiyyatına tələbat getdikcə güclənirdi .

1940-cı ildə Azərbaycan səhiyyə işçilərinin sayına görə keçmiş SSRİ-də ən qabaqcıl yerlərdən birini tuturdu . Belə ki, həmin il SSRİ-də orta hesabla 1400 adama 1 həkim düşürdüsə, Azərbaycanda isə hər 1087 adama 1 həkim düşürdü. Respublikada 3 min 300 həkim, 222 müalicə müəssisəsi, 12 min nəfərlik çarpayı var idi. Həmin il tibb sahəsi üzrə elmi-tədqiqat müəssisələrində 2000 elmi işçi çalışırdı. Dövlət Tibb İnstitutunda çalışan professor-müəllim heyətinin ümumi sayı 233 nəfər idi (11).

Bütün bunlar 30- cu illərin ikinci yarısında səhiyyə və tibb elmləri sahəsində çalışan çoxminli mütəxəssislərin informasiya tələbatının genişlənməsinə və daha da mürəkkəbləşməsinə səbəb olmuşdu.

Cəmiyyətdə səhiyyə və tibb elmlərinə dair sənəd-informasiya tələbatının genişlənməsi, eləcə də ildən-ilə tibb kitabxanaları şəbəkəsinin artması respublikada bu kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi və metodik təminantı ilə əlaqədər müvafiq işlərin həyata keçirilməsi zərurətini irəli sürürdü. Bu vəzifələri yalnız Azərbaycanda tibb sahəsində baş kitabxana-biblioqrafiya və metodik mərkəz statusuna malik olan Respublika elmi tibb kitabxanası yerinə yetirə bilərdi. Belə kitabxananın yaranması haqqında Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı 1939-cu ilin 23 noyabrında oldu .



«Azərbaycan SSR-də Dövlət elmi-tibb kitabxanasının yaradılması haqqında» Xalq Komissarları Sovetinin qərarında (12) deyilirdi : «elmi- tibb işçilərinə tibbə dair dövrü mətbuat və kitab xidmətini yaxşılaşdırmaq, kitab fondlarından səmərəli istifadə etmək və tibb kitabxanaları şəbəkəsinin fəaliyyətini nizama salmaq məqsədi ilə Azərbaycan SSR Xalq Komissarları Soveti qərara alır:

1. Bakı səhiyyə şöbəsi sanitariya mədəniyyəti evinin kitabxanası əsasında Azərbaycan SSR Səhiyyə Komissarlığının yanında Dövlət elmi-tibb kitabxanası təşkil edilsin».

Kitabxana bilavasitə oxuculara xidmət işinə 1940-cı ilin əvvəllərində başladı.

Şübhəsiz ki, Azərbaycanda ümumrespublika əhəmiyyətli elmi- tibb kitabxanasının yaranması ölkəmizin tibb ictimaiyyəti üçün olduqca əlamətdar hadisə idi .

Bu kitabxananın qarşısında Azərbaycanda tibb elminin və səhiyyənin bütün sahələrinə dair vətən və xarici ədəbiyyatı toplamaq, tibb və səhiyyə işçilərinə xidmət etmək və eləcə də respublikada formalaşan tibb kitabxanaları şəbəkəsinin fəaliyyətini istiqamətləndirmək vəzifələri dururdu .

Qeyd etmək lazımdır ki, 1939-cu ildə Dövlət elmi-tibb kitabxanasının yaradılması ilə Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin formalaşması, təşkilatlanması əsasən başa çatdırıldı və tibb kitabxanaları şəbəkəsinin sistemli fəaliyyəti üçün əlverişli şərait yarandı.

1940-cı ildə Azərbaycanda formalaşan tibb kitabxanaları şəbəkəsi özündə əsasən aşağıdakı kitabxanaları birləşdirirdi.

1.Dövlət elmi-tibb kitabxanası-1

2.Naxçıvan MSSR tibb kitabxanası-1

3.Şəhər tibb kitabxanası-1

4.Tibb institutu kitabxanaları-2

5.Tibb elmi-tədqiqat institutları kitabxanaları-5.

Bu kitabxanaların ümumi fondu 180 min nüsxəyə yaxın idi.

Beləliklə, Azərbaycanda kitabxana işi tarixində 1920-1940-cı illər tibb kitabxanaları şəbəkəsinin yaranması və formalaşması dövrü sayıla bilər.

## ƏDƏBİYYAT

1.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən - B., 1986. - S.20.

2.Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. - B., 1983.- S.197.

3.Основные показатели развития здравоохранения // Народное хозяйство Азерб. ССР, к 60 летию Великого октября. Юбилейный статистический ежегодник. - Б., 1977.- С.241.

4.Каталог фундаментальной библиотеки для служащих совета съезда Бакинских нефтепромышленников. - Б., 1911. - С.96.

5.Народное хозяйство Азерб. ССР за 60 лет. - Б., 1980.- С.314.

6.Xələfov A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932).- B., 1960.- S.112.

7.Исмайлов Н.И. Развитие, современое состоение и пути совершенствования региональных библиотечно-библиографических ресурсов по медицине. / на материалах Азерб. ССР. Диссертация на соискание ученой степени канд. пед. наук. - М. ,1987.- С.95.

8.Широкогоров Н.Н. Медицинский факультет Азерб. Гос. Университета: Исторический очерки. // Журнал теории и практики медицины.- 1927.- т.2-Кн. 5-6.- С.1-24; 1928.- т.3.- Кн. 1-2.- С.25-130

9.Великий октябрь - расцвет науки Советского Азербайджана.- Б.: Елм, 1977.- С.276.

10.Состояние и перспективы развития фондов библиотек системы здравоохранения. - М., 1975.- С.137-138.

11.Ибрагимов М. Здравоохренение Советского Азербайджане. - М., 1967.- С.157.

12.Хронологическое собрание законов Азерб. ССР, указов президиума Верховного Совета и постановлений правательство Азерб. ССР, т.2.- С.132.

**Исмаилова И.**

**Об истории медицинских библиотек Азербайджана (1920-1940)**

**Резюме**

В статье исследуется деятельность медицинских библиотек Азербайлжана в 1920-1940 гг. и анализируется их деятельность в области обслуживания читателей.

Əşrəf XƏLƏFOV
Pedoqoji elmlər namizədi,
dosent

# AZƏRBAYCAN ƏDƏBİ TÖVSİYƏ BİBLİOQRAFİYASI İNFORMASİYA MƏKANINDA

Ədəbi biblioqrafiyanın inkişaf mərhələlərinə nəzər yetirdikdə problemin müəyyən illərdə dəyişikliklərə uğradığını, təkmilləşdirildiyini, ona dəqiq aydınlıq gətirildiyini görmək olar. Tövsiyə biblioqrafik informasiya üçün ədəbi hadisələrə ədəbiyyatın seçilməsi problemləri, tövsiyə biblioqrafik informasiyanın müxtəlif növ strukturu, bu və ya digər hallarda onların metodikaya uyğun tətbiq edilməsinin məqsədəuyğunluğu işıqlandırılır(1). Tövsiyə biblioqrafik nəşrlərin populyar ədəbi əsərlərə yaxınlaşması ənənəsinin güclü olduğunu göstərir. Biblioqrafın ədəbi prosesə müdaxilə etmə hüququna malik olması aydınlaşdırılır.

Ədəbi tövsiyə biblioqrafiyası uzun müddət bədii ədəbiyyat sahəsində biliyin təbliğinə, təhsilə, şəxsi təhsilə təsir edən vasitə kimi şərh edilmişdir. Bu funksiyanı saxlamaqla o, başqa bir funksiyaya-informasiya fəaliyyətinə kömək etməyə yönəldilmişdir. Müasir şəraitdə filologiya elmlərindən və biblioqrafik metodlarından istifadə etməklə söz sənəti sahəsində informasiya məkanına cəlb edilmişdir. Bu keyfiyyətlə mədəniyyətin müstəqil fenomeni kimi çıxış edir və etməkdədir. Beləliklə, ədəbiyyatla maraqlanan oxucuları bədii ədəbiyyat aləminə istiqamətləndirmək üçün geniş informasiya təqdim edilməlidir ki, ondan istifadə edilsin. Biblioqraflar tərəfindən yaradılan bu aləmin xəzinəsindən oxucular sərbəst surətdə özü üçün maraqlı olanları seçə bilsin. Bu seçmə hər bir oxucudan və onun zövqündən və istəyindən asılıdır. Bununla belə, oxucuların ədəbi hadisədən seçdiyi hər bir əsərin həqiqi qiymətləndirilməsi, biblioqraf tərəfindən istiqamətləndirilməsi gərəkdir ki, dünya klassik ədəbiyyatını əyləncəli nəsr əsərlərdən

fərqləndirə, ayırd edə bilsin. Dəyərləndirmənin mahiyyəti və mövcudluq formaları müxtəlifdir. Onlardan ən çox ənənəvi biblioqrafik nəşrləri-tövsiyə siyahılarını, tövsiyə göstəricilərini, oxucuya yaddaşı, kütləvi biblioqrafik soraq kitablarını, biblioqrafik oçerkləri, kitablar haqqında xülasəni qeyd etmək olar. Bunların metodikası yaxşı araşdırılmışdır. Ancaq tövsiyə informasiya biblioqrafiyasının formaları, kütləvi jurnallarda verilən qısa resenziyalarda, "yeni ədəbi əsərlərini xülasəsini, televiziyada yeni nəşrlər rubrikasında verilən məlumatlarda öz əksini tapır, biblioqrafik metodlarından istifadə edilir. Bunlar ədəbiyyatşünaslıq və tövsiyə biblioqrafiyası hüdudlarında dururlar (2).

Bütün bu formalar oxucuları ədəbiyyat aləmində istiqamətləndirməyə xidmət edir. Dəyərləndirmənin yönümü axarı, istiqaməti təkcə mütaliə üçün əsərlərin sevçilməsini asanlaşdırmır, həm də müasir ədəbi prosesdə baş verən dəyişikliklərlə oxucuları tanış edir, ədəbi irsin bu və ya digər hissəsi haqqında təsəvvür yaradır. Oxucunun mütaliə etdiyi məlum əsərin ədəbi-tarixi kontekstində, yaxud müasir ədəbi kontekstdə qavranılmasına imkan yaradır. Ədəbi biblioqrafiya ən yaxşı əsərlərin ağlabatan şəkildə tövsiyəsini deyil, mütəxəssis biblioqrafın yiyələndiyi, mənimsədiyi əsərləri, müstəqil, azad seçməsi üçün informasiya verir. Bədii ədəbiyyat aləmində biblioqraf tərəfindən istiqamətləndirmə qiymətli hesab edilir. Çünki ədəbi hadisənin hər biri zövqü inkişaf etdirmək cəhətdən dəyərlidir. Bunu oxuculara inandırmağa, aşılamağa biblioqraf sənəti qadirdir.

Müasir şəraitdə bu asan deyildir, ona görə ki, cəmiyyətdə mövcud olan bədii əsərlərin dairəsi olduqca genişdir. Milli, klassik şərq və qərb xalqlarının ədəbiyyatı və s. Sözsüz ki, bu olduqca milli mədəniyyətin xeyli və maraqlı hissəsini təşkil edir. Onlara münasibət, dəyərləndirmə tədricən müəyyənləşdiriləcəkdir. İlk dəfə xaricdə nəşr edilib sonra respublikada dərc edilən hər hansı əsəri şedevr (şah əsər) hesab etmək olmaz.

Bizim günlərdə bu ədəbi hadisələrə ənənəvi münasibət davam edir. Belə əsərlərə qiymət verməyi və istiqamətləndirməyi inkişaf etdirmək tövsiyə biblioqrafiyasının vəzifəsidir.

Dinlə, xüsusilə islam dini ilə bağlı əsərlərin bir hissəsi əlverişli olmuşdur, onun dərk edilməsi, mənimsənilməsi çox asan deyildir. Bütün bu mədəni və mənəvi sərvətlər oxucuların üzünə artıq açılmışdır.



Cəmiyyətin diqqətini cəlb edən klassik Azərbaycan yazıçılarının, xüsusilə bəraət almış yazıçıların əsərlərinin dairəsinin günü-gündən genişlənməsi, televiziyada seriyalı verilişlərin, yubileylərin qeyd edilməsi, bədii əsərlərin nəşr edilməsi, ədəbi axında onların dəyərləndirilməsini çətinləşdirir və dərinləşdirir. Çünki müasir ədəbiyyatşünaslıq burada lazımınca köməklik edə bilmir. Ədəbiyyatşünaslıqda bədii ədəbiyyata olan yeganə nöqteyi-nəzər artıq keçmişdə qalmışdır. Onları populyarlaşdırmaq gümanı ancaq biblioqrafın üzərinə düşür.

Bununla bağlı olaraq bədii ədəbiyyat aləminin istiqamətləndirilməsi, dəyərləndirilməsi mürəkkəbləşir. Buna uyğun olaraq tövsiyə biblioqrafiyasının öhdəsində olan vasitələrə fərqli yanaşılır və təkmilləşdirilir. Ədəbi tövsiyə biblioqrafiya vasitələri ədəbi əsərlərin seçilməsində qiymətli istiqamətləndiricidir.

Cəmiyyətdə ədəbi hadisələrin vəzifəsi bədii əsərlərin çap halında, kitab, jurnallarda dərc edilməsidir. Bundan sonra həmin əsərlər cəmiyyətdə ictimai-mədəni hadisəyə çevrilir, öz oxucusunu tapır, onları ədəbiyyatşünaslıq, tənqid təhlil edir. Belə ki, ədəbiyyatşünaslığın obyekti biblioqrafiyanın obyektinə çox oxşar və yaxındır. Bu xüsusilə tövsiyə biblioqrafiyasında bariz şəkildə özünü büruzə verir, ilk növbədə tövsiyə edilən nəşrlərin seçilməsi nəzərdə tutulur. Ədəbi hadisələrin seçilməsi uzun müddət tövsiyə biblioqrafiyasının bünövrə daşı hesab edilmişdir. İlk növbədə, hadisənin ideya-estetik əhəmiyyətinə görə, ikincisi tövsiyə biblioqrafiyasının nəzərdə tutduğu oxucuların mədəni səviyyəsinə uyğun gəlməsi nöqteyi-nəzərinə görə seçilirdi. Bu istiqamətdə seçmənin obyektiv meyarları nəşrin yüksək ideyalığı, həyat həqiqətinin bədii təcəssümü, xəlqiliyi, etika və estetikanın məzmunu, bədii formanın vəhdəti hesab edilirdi. Əsərin bədii bütövlüyünü ifadə edən formanın meyarı isə tarixilik meyarı idi. Bu meyarların tövsiyə və ya tövsiyə edilməməsinin həllində tətbiq edilməsi yeni idi. Əsərin tənqid tərəfindən dəyərlənmədiyi hallarda bunun həlli daha çətinləşir. Xüsusilə, hər şeydən əvvəl ədəbi axında verilən realist əsərləri, keçmişdə və indi nəşr olunmuş əsərləri yüksək ideyalalıq prinsipilə necə dəyərləndirmək olar? Tövsiyə biblioqrafiyasında oxucuların mədəni səviyyəsinə ədəbi hadisələrin verilməsinə gəlincə seçmənin bu cür istiqaməti də hazırki vaxtda öz aktuallığını itirmişdir. Bir-birinə uyğun gəlmir, üst-üstə düşmür. Birincisi, hər bir ədəbi əsər müxtəlif mədəni səviyyəyə malik olan

oxucuların yaşından asılı olmadan mütaliə edilir, ancaq qavranılması başqa hallarda adekvat, bərabər, tam uyğun olmayacaq.

Biblioqraf ilk növbədə bilməlidir ki, indi tövsiyə biblioqrafiyası bədii əsərləri yaxşı bilməyən oxucular üçün deyil, marağı sabit, davamlı olan oxucuları nəzərdə tutur. Əgər gəncləri nəzərdə tutan biblioqrafik məhsullardan söhbət gedirsə, müxtəlif təhsil səviyyəli oxuculara fərqli xidmət üsulundan çoxdan imtina edilmişdir. Çünki biblioqrafiya müxtəlif səviyyəli oxucu tələbatının kompleks təminatına yönəldilmişdir. Tövsiyə biblioqrafiyasında geniş əhatəli və böyük əhəmiyyətli ədəbi hadisələr, xüsusilə müasir ədəbiyyatın yenilikləri seçilir və dəyərləndirilir.(3) Müasir milli bədii ədəbiyyatın yenilikləri, yaradıcılıq metodları stil cəhətdən çoxşaxəlidir, müxtəlifdir. Bədii əsərlərin böyük kütləsi detektiv, məhəbbət romanları onunla əylənənləri nəzərdə tutur. Bu əsərlərin müəlliflərinin mülahizə və fikirlərini, bunlarda əxlaqi problemləri, insan ürəyinin gizli sirrlərinin əks etdirilməsinin həqiqətə uyğun gəldiyini iddia edirlər. Bunu biblioqraf həqiqi ədəbiyyat kimi qəbul etməyə vərdiş etmişdir.

Real həyat zəminində fantastik əsərlər yaradılır, çap edilir. Bu növdə Azərbaycan dilinə tərcümə edilən xarici yazıçıların əsərləri ildən-ilə artır. Tövsiyə biblioqrafiyasının vəzifəsi bu çoxcəhətli ədəbi mənzərənin tam uyğunluğunu yaratmalıdır. Buna olduqca ehtiyatla yanaşmaq lazım gəlir. Çünki bədii əsərlərin həqiqi dəyərləndirilməsi tənqidin xüsusi qiymətində tapır. Onun cəmiyyətdəki funksiyasına görə təyin edilir. Bədii hadisənin taleyini son nəticədə oxucu müəyyənləşdirilir. Ona görə də informasiyanın obyekti əsərlərin geniş dairəsini əhatə etməlidir. Keçmiş dövrün bədii əsərlərini ədəbiyyatşünaslığa, oxucu ənənəsinə isnad etməklə seçilməsi lazım gəlir.

Həqiqətən də ali məktəb üzrə Azərbaycan, rus, xarici ölkə ədəbiyyatı tarixi dərslikləri keçmiş dövr ədəbi əsərlərini üzə çıxarmağa, aşkar etməyə imkan verir, müasir oxucuların yaddaşında həkk olunub saxlanılır. Buna görə də bir çox nəsillərin mütaliəsində möhkəmlənmiş ənənəni unutmaq olmaz.

Klassik şairlərin əsərləri indi də mütaliə olunur. Ancaq detektiv əsərlərə meyl daha çoxdur. Belə hallarda ədəbiyyat tarixinin dövrlər üzrə mənzərəsini daha da genişləndirmək məqsədəmüvafiqdir. Keçmiş dövrlərdə yaşamış məşhur və məşhur olmayan, az tanınan yazıçıların çap olunmuş əsərlərindən yan



keçilməməlidir. Onun haqqında informasiya verməklə mənzərə genişlənməlidir. Ədəbi mənzərə yaradarkən ön planda məşhur yazıçılar, ikincidə məşhur olmayanlar. Belə bir qayda biblioqrafik nəşrlərdə çox illik təcrübə prosesində yaranmışdır (4).

Adətən tövsiyə biblioqrafiya göstəriciləri ümumi ədəbi məzmununa görə bütövlükdə bir ölkənin, yaxud bir neçə xalqın, ölkənin müəyyən dövr ədəbiyyatına görə janra (şer, roman, hekayə və oçerklərə), şəxslərə, mövzuya görə təsnif edilir. Ancaq ümumi ədəbi biblioqrafik vəsaitlər içərisində janr, mövzu göstəriciləri daha çevikdir. Bir sıra janr biblioqrafik vəsaitləri ümumi ədəbi göstəricilərin strukturası əsasında yaranmışdır. Bu mənada hər bir göstəricinin bütövlüyündən danışmaq olar. Məhz mövzu prinsipi əsasında tərtib edilən ümumi ədəbi göstəricilər, həmçinin mövzu biblioqrafik vəsaitlərin məcmusu hesab edilir. Ümumi ədəbi göstəricilərə bir sıra şəxsi bölmələrin toplusu kimi baxılmışdır. Belə hallarda biblioqrafik informasiyanın strukturası biblioqrafik vəsaitin özünün mahiyyəti və məqsədi müəyyən edir. Məsələn, mövzu prinsipi əsasında tərtib edilən ümumi ədəbi göstəricilərdə şəxsi bölmələr verilməklə, bir tipli vəsait hesab edilir. İnformasiya xarakterli vəsaitlərin əsas struktur prinsipində hər bir şəxsi biblioqrafik bölmədə nəyin verilməsinin müəyyənləşdirilməsidir. Bunun birinci dərəcəli əhəmiyyəti vardır. Bu və ya digər prinsipin necə rol oynadığını, biblioqraf tövsiyənin əsas strukturunun bütövlükdə rolunun necə dəyişdiyini, biblioqrafik informasiyanın daxili strukturu keyfiyyət elementi, yaxud yardımçı açar üçün əsas kimi götürüldüyünü izləməyə borcludur.

Ədəbi tövsiyə biblioqrafiyasının ənənəvi quruluşu bədii ədəbiyyatın strukturasına uyğundur. Adətən, yazıçının yaradıcılığının nəticəsi kimi özünü göstərir (şəxsi prinsip), növünə və janr prinsipinə ayrılır, ümumi qanunauyğunluğa, tarixi inkişafın dövrləri mövcuddur (ümumi ədəbi prinsip), sosial və əxlaqi problemləri əhatə edir. Mövzu prinsipi həmçinin oxucuların marağına, xarakterinə uyğun olaraq yaradılır. Yazıçının yaradıcılığı üzrə müxtəlif növ və janrda yazdığı əsərləri (inkişaf tarixi üzrə) əhatə edir.

Beləliklə, ədəbi tövsiyə informasiyası üçün biblioqrafik göstərici tərtib edilərkən biblioqraf bu prinsiplərə uyğun bədii ədəbiyyatın spesifikasını, həmçinin bu ədəbiyyata oxucuların marağının inkişaf istiqamətini nəzərə almaqla gözləməlidir. Yazıçı, şair, ədəbiyyatşünasların həyat və yaradıcılığı haqqında ədəbi

tövsiyə informasiyası oxucuların tələbatını ödəyir. Oxucuların estetik inkişafının müəyyən mərhələsində ancaq bədii əsərin məzmunu deyil, sənətkarın şəxsiyyəti xüsusi əhəmiyyət kəsb edir. Ədəbiyyatı özünün gündəlik fəaliyyətində dərindən öyrənən oxucuların tələblərini nəzərə alır(5). (Məlumdur ki, sənətkardan kənar prinsip üzrə ədəbiyyatı öyrənmək mümkün deyildir).

Milli ədəbiyyatın növ və janrının inkişafına həsr edilmiş göstəricilərdə şəxsi bölmələr daha çox tətbiq olunur. Burada yazıçının yaradıcılığının bir cəhəti, başqa hallarda isə ədəbiyyatın müəyyən növləri verilir. Biblioqraf sənətkarın yaradıcılığının bir cəhətinin xarakteristikasının verilməsi ilə kifayətlənməməlidir. Nəşrin məqsədindən asılı olaraq tövsiyə etdiyi ədəbiyyatı müəyyən etməlidir. Bu ədəbiyyat yazıçının yaradıcılığı haqqında oxucuda bütöv elmi təsəvvür yaratmalıdır.

Ədəbi tövsiyə biblioqrafiyasında prinsip etibarı ilə şəxsi bölmənin verilməsini yardımçı əlifba açarı sübut edir. Sahəvi biblioqrafiya nəşrlərində bu prinsipin tətbiqi daha çox yayılmışdır. Mövzu prinsipi ilə tərtib edilmiş göstəricilərdə yardımçı açarlar oxucuların köməyinə, gəlir, yazıçının ədəbi-tarixi mövqeyini izləməyə kömək edir. Beləliklə, şəxsi bölmə prinsipi üzrə biblioqrafik informasiya bir tərəfdən yazıçılar dairəsi ilə tanış olmağa diqqəti cəlb edirsə, digər tərəfdən hər bir sənətkarın fərdi yaradıcılığını öyrənməyə imkan verir, ümumi ədəbi göstəricilər isə ədəbi proses haqqında bütöv təsəvvür, yaxud da onun tərkib hissəsi haqqında təsəvvür yaratmalıdır.

Bədii ədəbiyyatın növ və janr bölgüsü əsasında göstəricinin tərtib edilməsi ilk növbədə növ və janrın spesifikasının araşdırılmasına yönəldilir, onların yaranma və inkişaf tarixini xarakterizə edir, yazıçının növ və janr yaradıcılığının xüsusiyyətləri nəzərə alınır, şəxsi bölgü ikinci plana keçirilir, biblioqrafik informasiya ədəbi tarixə yaxınlaşır. Növ və janra həsr edilmiş biblioqrafik nəşrlərdə ümumi ədəbi göstəricilərə uyğunlaşmaq, yaxınlaşmaq meyli vardır. Bədii ədəbiyyata həsr edilmiş mövzu göstəriciləri, insanın həyat həqiqətləri haqqında təsəvvürünü genişləndirən ən qüvvətli biblioqrafik vasitələrdən birinə çevirir həmçinin bədii ədəbiyyatın həyatla əlaqəsini, ədəbi prosesi özündə əks etdirən materialları aşkara çıxarır. Bununla bərabər, müəyyən dövrü əhatə edən göstərişini bədii əsərlərin retrospektiv biblioqrafik informasiya vasitəsinə çevirir.



Bədii ədəbiyyatın mövzu tövsiyə biblioqrafiyası ilə olduqca asan uzlaşır.

Mövzu biblioqrafiyasında evolyusiya, təkamül yolu sosial əxlaqi mövzuları kompleks əhatə etməyə yönəldilmişdir. İctimai ideal naminə edilən qəhrəmanlığa, vətənpərvərliyə həsr edilmiş sənət əsərləri və s.

Amma burada da biblioqraf oxucuların daha konkret mövzu üzrə materialların axtarılması vəziyyətini nəzərdən qaçırmamalıdır, göstəricidə köməkçi mövzu açarını yaratmalıdır. Burada daha konkret və tipik rubrikaların formalaşmasına imkan vardır. Bu prinsiplər biblioqrafik informasiyanın strukturunu müəyyən edir. Biri digərini tamamlayır. Hamısı bir yerdə ənənəvi qaydanın çoxcəhətli əks olunmasına imkan verir.

Qeyd edilən hər bir prinsipin bədii ədəbiyyatın bütün sahəsində tətbiq olunması eyni dərəcədə bərabər ola bilməz. Bu və ya digər prinsipin aparıcı rol oynaması ədəbiyyatşünaslığın spesifikası ilə bağlıdır. Təcrübə göstərir ki, bədii ədəbiyyat və ədəbiyyatşünaslıqda geniş istifadə edilən əsas yanaşmaq prinsipləri onun şüurlu tətbiq edilməsi zəruriliyindən asılıdır. Onun məqsədi, imkanı və qanunauyğunluğu aydınlaşdırılmalıdır.

Bədii ədəbiyyat aləminin dəyərləndirilməsinə biblioqrafik informasiyanın mətn hissəsi-ədəbi hadisənin xarakteristikası, bilavasitə biblioqrafik oçerk və biblioqrafik xülası xidmət edir. Uzun müddət belə hesab edilirdi ki, biblioqraf ancaq göstricinin mətn hissəsində ədəbi hadisəyə öz şəxsi münasibətini ifadə edir, "özündən" danışır. Amma tövsiyə biblioqrafiüasının seçmə, qruplaşdırma strukturunda da biblioqraf öz şəxsi münasibətini, ədəbi hadisəyə elmi ədəbiyyatşünaslıq prinsipi ilə eyni, bərabər ölçüdə bildirir(6). Amma tövsiyə biblioqrafik annotasiyada bilavasitə bu münasibət daha çox özünü qabarıq şəkildə göstərir.

Tövsiyə biblioqrafik xarakteristika hansı məqsədə görə yaradılır? Hər şeydən əvvəl mütaliə üçün kitab seçməyə, ədəbiyyatın çoxlu hadisələri haqqında informasiya mətni ilə ödənməyə imkan yaradır. Xarakteristika məhz hansı əsərlərin oxucunun tələbatını gözlədiyinə uyğun gəldiyini bildirir. Xarakteristika eyni zamanda ədəbi hadisələri öz təəssüratı ilə oxucuları tanış etməlidir, biblioqraf mətn hissəsində xüsusi fikir yaradır. (Təbiidir ki, oxucu kitabı mütaliə etdikdə bu fikirlə razılaşmaya bilər). Daha sonra biblioqraf ədəbi hadisələrin bir-birilə

bağlı olan cəhətlərini xarakterizə edərək oxucuda ədəbiyyat tarixi, yaxud müasir ədəbi proses kontekstində seçdiyi əsərin qavranılmasına imkan verir. Məhz buna görə də biblioqrafik göstəricinin populyarlığı hər şeydən əvvəl onda verilən əsərlərin bütünlükdə mütaliə edilməsi qənaətinə görə qiymətləndirilir.

Biblioqrafik oçerk-ədəbi prosesi müəyyən aspekdə açır və müxtəlif mətnin ümumi ideya ilə birləşmiş məntiqi davamı hesab edilir. Referativ planda ədəbi tənqidi təhlil haqqında müxtəlif məlumatların sərbəst istifadəsini nəzərdə tutur.

Son vaxtlar biblioqrafik oçerk bir janr kimi ədəbi biblioqrafiya da xüsusi bir yer tutur, amma təcrübədə az yayılmışdır. Bibiloqrafların yaradıcılığında özünü ilk əvvəl dövri mətbuatda, qəzet və jurnal səhifələrində məqalə halında çap edilmişdir. Buna misal olaraq M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının biblioqraflarının biblioqrafik oçerklərini qeyd etmək olar. Məsələn, Ə.Əfəndiyevin "Azərbaycan ədəbiyyatı özbək dilində", "Amerika ədəbiyyatı Azərbaycan dilində", "Molla Pənah Vaqif əsərləri dünya xalqları dillərində", "S.Vurğun əsərləri SSRİ xalqları dillərində", "Nəsimi ədəbi irsinin nəşri və tədqiqi", H.Kərimovun "Azərbaycan ədəbiyyatı dünya kitabxanalarında", F.Məmmədovun "Moldav yazıçılarının əsərləri Azərbaycan dilində", M.Nəcəfovanın "Gürcü ədəbiyyatı Azərbaycan dilində", "R.Taqorun əsərləri Azərbaycan dilində", "H.Cavidin əsərlərinin nəşri tarixinə dair", T.Həsənovanın "Azərbaycan yazıçılarının əsərləri xarici dillərdə" və s. İndiki biblioqrafik informasiya məkanında kitab halında biblioqrafik oçerklərin yazılamı və nəşr olunmasına böyük ehtiyac vardır. ' biblioqrafik məhsulun yeni növü yaradılır (7). Buna nümunə kimi Ə.Əfəndiyevin "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" adlı elmi biblioqrafik oçerki göstərmək olar.

Ədəbi tövsiyə biblioqrafiyasında biblioqrafik oçerk təzə yaranmışdır. Oçerk ədəbi hadisə haqqında sərbəst informasiyadan ibarətdir.

***Biblioqrafik xülasə*** – sintetik janr adlandırılır. Özündə oçerk və annotasiya elementlərini birləşdirir. Biblioqraf həmin əsərlərin ədəbi və mədəni situasiyasının daha geniş xarakteristikasını vacib sayır. Bu yeganə struktur sərbəst mövcud olur, yaxud müxtəlif növ biblioqrafik göstəricilərdə və elmi-populyar xarakterli nəşrlərə daxil edilir (müntəxəbat, analogiya) tətbiq edilir.



Kitablar haqqında xülasə mövzu və janr üzrə yaxın olan bir neçə əsərin xarakteristikasıdır. Eyni zamanda bir növ biblioqrafik publisistikadır. Xülasədə problemlərin əsas cəhətlərini aydınlaşdırmaq ancaq mühüm şərtdir. Xülasədə kitablardan biri haqqında müfəssəl dayanmaq, başqaları haqqında qısa məlumat vermək olar. Əgər kitablar haqqında xülasə son illərdə hər hansı mövzu üzrə əsərləri əhatə edirsə, mövzunun ənənəvi imkanları haqqında danışmaq mümkündür. Klassik ədəbiyyatda mövzunun necə işləndiyini yada salmaq olar. Xülasədə biblioqrafik təsvir verilmir, onu xülasənin sonunda verilən siyahıdan tapmaq mümkündür. Siyahıda əsərə yazılmış resenziyalar da göstərilir.

***Annotasiya*** bir janr kimi bədii əsərlər haqqında onun ideya-mövzu aspektində qısa informasiyanın məzmunundan, həmçinin onun müəllifi haqqında minimum zəruri məlumatdan ibarətdir. Konkret əsər və yazıçının yaradıcılığı, yaxud ədəbi proses haqqında daha aydın təsəvvürün formalaşmasına təsir edir. Annotasiya bəhs olunan mövzunun predmetidir, ənənəvi xarakteristikasının formasıdır. Annotasiya-bədii əsərlə tanış olmayan oxucularda əsərin seçilməsinə, yayılmasına sövq etməklə bərabər ədəbi aləmin inkişafı haqqında təsəvvür yaradır. Beləliklə, annotasiyada əsərin başlıca cəhətləri – müəyyən janr, mövzu, stil və onlara aid olan ümumi cəhətləri göstərilir.

Bədii əsərlərə həsr edilən annotasiyalar müxtəlif bilik sahələrinə həsr edilən annotasiyalardan fərqlənir. Bədii obrazın dili tələb edir ki, annotasiyada əsərin ifadəliliyi, dili, fikri, obrazın təhlili aydın oslun. Əsərin ideya mövzusu, məzmunu, müəllifin həyat həqiqətinin hansı sahəsini təsvir etdiyi açılır. Annotasiya mücərrəd, yaxud təsviri xarakterdə oulr. Bəzi hallarda əsərin ideya mövzusu verilir. Belə halda ədəbiyyatşünaslıq əsərlərindən (söhbət ədəbiyyatşünaslıq təhlilindən istifadədən gedir) istifadə edilir. Ancaq biblioqraf ədəbiyyatşünaslıq metodlarından istifadə etməklə əsərdə başlıca cəhətləri özü təyin etməlidir.

Annotasiyada aşağıdakı məlumat əhatə edilir:

1.Müəllif haqqında. 2. Əsərin janrı haqqında. 3. Başlıca konfliktin xarakteristikası. 4. Qəhrəmanın xarakteristikası. 5.Hadisənin vaxtı və yeri, canlı mühit. 6. Fəsillərin izahı. 7. Əsərin forma xüsusiyyətləri. 8. Əsərin tənqid və ədəbiyyatşünaslıq tərəfindən qiymətləndirilməsi.

Əsərin müəllifi haqqında məlumat o vaxt yerinə düşür ki, o təsvir edilən hadisənin iştirakçısı və şahidi olsun, milli ədəbiyyat və janr tarixində müəllifin mühüm yer tutduğu haqqında məlumat qırmızı xətlə qeyd edilir. Əsərin qəhrəmanı haqqında məlumat o vaxt yerinə düşür ki, əsərin başlıca təsviri qəhrəmanın həyat tarixini, onun mənəvi aləminin tarixini işıqlandır, hadisənin süjeti, fabulası annotasiyada başlıca yer tutur. Belə halda müəllifin təsvir etdiyi hadisənin, sosial məişətin vaxtı yeri haqqında zəruri məlumat oxucunun ədəbi hadisə haqqında təsəvvürünü konkretləşdirir. Əsər tarixi hadisəni əks etdirirsə annotasiyada məlumatın verilməsi zəruridir. Bədii formanın annotasiyada xarakteristikası, ədəbiyyatşünaslıq əsərlərindən seçmələr, parçalar gətirməklə nail olmaq mümkündür. Annotasiyanın özü əsərin üslub xüsusiyyətləri haqqında təsəvvür yaradır. Bu, biblioqrafdan incə zövq, məharət, bilik tələb edir (8).

Annotasiyada əsərdə necə qiymət verilir? Birbaşa, bilavasitə, həmişə deyil, nadir hallarda əsərin xarakteristikası, həmçinin tövsiyə faktlarından dəyərləndirmənin məzmunundan ibarət olur. Qiymətləndirmə müəllifin ədəbiyyat tarixində yeri, hansı janrın ustası olması haqqında məlumata xidmət göstərir. Annotasiyada əsər haqqında tənqidin verdiyi qiymətin, rəylərin verilməsinin vaxtı gəlib çatmışdır. Annotasiyada biblioqrafın əsərə münasibəti verilməlidir.

Qısa, quru annotasiyada kitabın girişindən gətirilən sitat sübut edir ki, annotasiya tərtib edən öz fikrini demədən başqasının fikrinə isnad edir. Burada yazıçının şəxsi yaradıcılığına, onun dünyanı qavramaq xüsusiyyətlərinə, əsərin mövzusuna əsas diqqət verilməlidir. Sənətkarın ayrı-ayrı əsərlərinə xarakteristikanın başqa mürəkkəb formasının verilməsi qarşıda durur. Belə xarakteristikaların kifayət qədər olmaması göz qabağındadır. Annotasiya tərtibinin incəliklərinə yiyələnməmiş, belə mürəkkəb formanın yaranmasına biblioqrafın nail olduğunu təsəvvür etmək çətindir.

Şəxsi tövsiyə biblioqrafiyasının vəzifəsi sənətkarın yaradıcılığının bütövlükdə, tam halında səciyyəsinə yönəldilir ki, dünyagörüşündə özünəməxsusluğunu, yaradıcılığıq problemlərini oxucu mənimsəyə bilsin. Bu vəzifə biblioqrafın düşüncəsindən, sənətkarın tanınması dərəcəsindən asılı olaraq müxtəlif cür həll edilir.

Bu əsas üzərində biblioqrafik məhsullar daha çox kütləvi ədəbiyyatşünaslıqla çulğalaşır. Biblioqrafdan ədəbiyyat nəzəriyyəsi və tarixi üzrə professional bilik, həmçinin biliyi kütləviləşdirmək bacarığı, oxucuların tələb və marağını tuta bilmək həssaslığı tələb



olunur. Biblioqraf oxucuları öz ardınca aparmalıdır. Ancaq bu əsas üzərində oxucuları bədii ədəbiyyat aləmi ilə tanış etmək, yönəltmək, bədii əsərləri mütaliə etmək və dəyərləndirmək mümkündür.

## ƏDƏBİYYAT


1. *Библиография художественной литературы и литературоведения (Под.ред. С.Трубникова. – М.: Книга, 1986.-с.95-143.*
2. *Бавин С.Популярная литературная библиография и информационная личность. Монография. ГБЛ.-М., 1996 –93 с.*
3. *Əfəndiyev Ə., Kamal Talıbzadə: Biblioqrafik göstərici: B.: Elm, 2000-207 s.*
4. *Əhmədov T. Azərbaycan yazıçıları: Ensiklopedik məlumat kitabı.- B.: "Önər" nəşriyyatı, 1995.- 639 s.*
5. *Akademik Bəkir Nəbiyev: Soraq kitabçası (Tərtib edənlər: C.Rəsulova, A.Hüseynzadə; Red.: Ə.Əfəndiyev. –B: Azərbaycan Ensiklopediyası, 1999.-307s.*
6. *Əliyev Z.H., Məmmədov Ə. Biblioqrafik işin kompüterləşdirilmənin nəzəri və praktik əhəmiyyəti. Kitabxanaşünaslıq və biblioqrafiya.(elmi-nəzəri və təcrübi jurnal . 1999. №2. 66-67s.*
7. *Əfəndiyev Ə. Qafqaz ərazilərı və xalqlarının təsvirinə dair materiallar toplusu: İzahlı biblioqrafiya. – B.: Qartal, 1999.- 217s.*
8. *Давыдова М.Н.Ценностная ориентация в мире художественной литературы средствами рекомендательной библиографии. –М., 1999. –с29-31.*


***Халафов А.Т.***

***Азербайджанская национальная рекомендательная библиография в информационном пространстве***

**Резюме**

*Роль и место национальная рекомендательная библиография в информационном пространстве в нашей республике недостаточно изучены.*

*В статье конкретными примерами и фактами показано что рекомендательная библиография имеет огромное значение в информационном обеспечении потребности.*

*Qəmzə HACIYEVA*
*Baş müəllim*

# İNFORMASIYALAŞDIRILMIŞ CƏMIYYƏTDƏ DIYARŞÜNASLIQ BIBLIOQRAFIYASININ YERI

Bazar iqtisadiyyatına keçid şəraiti cəmiyyətin informasiyaya münasibətini də dəyişmişdir. Bu, ilk növbədə, hər hansı bir səviyyədə qəbul edilən qərarlara görə mə'suliyyətin artmasından irəli gəlir. Yeni şəraitdə informasiya yalnız biliyin səviyyəsinin artırılması vasitəsi deyil, həm də qərarların qəbulu üçün real alətdir.

Müasir demokratik cəmiyyət informasiyalaşdırılmış cəmiyyətdir. İlk ilini yaşadığımız XXI əsr də məhz informasiyalaşdırılmış cəmiyyət dövrü hesab olunur. Bu elə cəmiyyətdir ki, onun inkişaf səviyyəsi həlledici dərəcədə toplanmış və istifadə olunan informasiyanın miqdarı və keyfiyyəti, onun sərbəstliyi və istifadə əlverişliliyi ilə ölçülür. Belə cəmiyyətdə birincilik informasiya sənayesinə mənsub olur. Elə bir vahid informasiya sistemi yaradılır ki,o, bəşəriyyət tərəfindən toplanmış və tələbatçıya lazım olan bütün informasiyaların əldə edilməsini təmin edir. Belə şəraitdə informasiya dövlətin əsas ehtiyat mənbəyi olur. Eyni zamanda informasiya bazarı, o, cümlədən informasiya təfəkkürü, informasiya davranışı, informasiya mədəniyyəti, informasiya həyat tərzi və s. yaranır.

Cəmiyyətin sağlam həyatı onun informasiya tələbatlarının tam ödənilməsindən asılıdır. Fikir azadlığı, informasiya azadlığı, ayrı-ayrı sosial qrupların və fərdlərin informasiyanı yaratmaq, yaymaq və əldə etmək hüququ demokratiyanın atributları kimi çıxış edir. Sosial-informasiya məkanı anlayışı vətəndaş cəmiyyətinin bünövrəsini təşkil edir. Burada cəmiyyətin inkişafı üçün zəruri olan informasiya ehtiyatları yaradılır, yayılır və istifadə olunur. Vətəndaşla dövlət arasında kommunikativ proses həyata keçirilir, cəmiyyətin bütün



strukturlarının tələbat və sorğuları idarəedici qərarların qəbulu və həyata keçirilməsi üçün informasiya məhsuluna çevrilirlər. (1,S.6-7)

İnformasiyalaşdırılmış demokratik cəmiyyətin formalaşması prosesi ikili xarakter daşıyır. Bir tərəfdən müxtəlif informasiya sistemi və xidməti sahələri yaradılır, digər tərəfdən isə şəxsiyyətin informasiyalaşdırılması dərəcəsi informasiya mədəniyyətinin səviyyəsindən, informasiyanı axtarmaq və istifadə etmək bacarığından asılı olur.

Totalitar rejimin dağılması ilə biblioqrafiya da dövlət himayəçiliyindən azad olmuş, biblioqrafik fəaliyyətin dövlət xarakteri tarixə çevrilmiş, biblioqrafik fəaliyyətin subyektləri ilə dövlətin əlaqəsi başqa xarakter almışdır. Vətəndaşların informasiya hüququ qanunvericilik normalarına, biblioqrafik informasiyanın istehsalı, yayılması, istifadəsinin azadlığı prinsiplərinə əsaslanır. Bununla belə, ölkənin informasiya, sənəd ehtiyatları və onların qeydi mühüm dövlət vəzifəsi olaraq qalır.

Respublikamızın milli müstəqillik qazanması ayrı-ayrı ərazilərin inkişafı üçün geniş imkanlar açmış, eyni zamanda milli şüurun oyanmasına güclü təkan verərək, doğma torpaqla bağlılıq, onun tarixinə, görkəmli xadimlərinin həyatına maraq hissini gücləndirmişdir. Bu gün hər bir diyarın sərbəst inkişafı, iqtisadi müstəqillik kimi vacib məsələlərə diqqətin artırılması diyarşünaslıq işlərinin mühüm əhəmiyyətə malik olmasını bir daha təsdiq edir. Diyarşünaslıq mövzusunda çap əsərlərinin təbliğində və yayılmasında isə başlıca vasitələrdən biri biblioqrafik informasiya mənbələridir. Kitabxanalar diyarşünaslıq biblioqrafiyasının inkişafına, diyarşünaslıq ədəbiyyatı ilə oxuculara biblioqrafik xidmət göstərilməsinə xüsusi əhəmiyyət verirlər.

Diyarşünaslıq biblioqrafiyası ümumi biblioqrafik sistemin tərkib hissəsi olub, cəmiyyətin biblioqrafik informasiya tələbatlarını daha tam ödəməyə xidmət edir (2,S.15). Bu biblioqrafik fəaliyyət sahəsi ölkə daxilində müəyyən yerlə məzmunca bağlı olan biblioqrafik informasiyanın hazırlanması və yayılması ilə məşğul olur.

Diyarşünaslıq üzrə bitkin informasiya sistemi formalaşmadan diyarı elmi əsaslarla öyrənmək qeyri-mümkündür. Cəmiyyətin informasiyalaşdırılması diyarşünaslıq biblioqrafiyasının əsas vəzifələrinin kompleks şəkildə həyata keçirilməsini tələb edir. Bunun üçün ilk növbədə diyarşünaslıq soraq-biblioqrafiya aparatı daha da təkmilləşdirilməli, biblioqrafik xidmətin səmərəli təşkili səviyyəsi yüksəldilməlidir.

Diyarşünaslıq üzrə sənəd kütləsindən səmərəli istifadə bilavasitə onun məzmununun açılma dərəcəsindən və tələbatçıya bu haqda biblioqrafik informasiyanın çatdırılmasından asılıdır. Kitabxanaların diyarşünaslıq fondlarının müxtəlif aspektlərdə açılmasında soraq-biblioqrafiya aparatı, ilk növbədə kataloq - kartoteka sistemi mühüm rol oynayır. Yüksək elmi əsaslarla tərtib edilmiş soraq-biblioqrafiya aparatı yalnız ondan bacarıqla və səmərəli istifadə edildikdə mühüm məlumat mənbəyi rolunu oynaya bilər. Bunun üçün daim soraq-biblioqrafiya aparatının ayrı-ayrı hissələrindən istifadə-nin vəziyyəti, onların passivliyinin səbəbləri, qarşılıqlı əlaqələri və bir-birini tamamlaması öyrənilir. Hər bir kitabxanada diyarşünaslıq soraq-biblioqrafiya aparatının təşkilində xidmət ərazisinin iqtisadi profili, kitabxananın oxucu kontingenti də nəzərə alınır. Belə hesab edirlər ki, kitabxanaya gələn hər bir şəxs diyarşünaslıq ədəbiyyatının potensial oxucusu ola bilər. Çünki hər kəsdə bu və ya digər dərəcədə vətənpərvərlik hissi vardır və o, diyarşünaslıq ədəbiyyatı ilə rastlaşdıqda buna laqeyd qala bilməz. Lakin adi maraqdan doğan epizodik müraciətlə, diyarşünaslıq ədəbiyyatına, o cüm-lədən biblioqrafik informasiyaya olan tələbat arasında böyük fərq vardır. Gənc oxucu ilə ixtisaslı mütəxəssisə, elmi işçiyə göstərilən biblioqrafik xidmət eyni ola bilməz. Bu zaman kitabla və biblioqrafik mənbələrlə işləmək bacarığı, həyat təcrübəsi, məqsədi və s. nəzərə alınmalıdır. Buna görə də diyarşünaslıq ədəbiyyatının tələbatçılarını iki qrupa ayırırlar: peşəkar və qeyri-peşəkar.

Peşəkar tələbatçılara elmi işçilər, müxtəlif sahələrdə çalışan mütəxəssislər, o cümlədən diyarşünaslar, müəllimlər, rəhbər işçilər və b. aiddir. Qeyri-peşəkar tələbatçılara isə ilk növbədə şagirdlər, tələbələr aid edilir.

Biblioqrafik məlumat tələbatçılarının bu cür təsnifləşirilməsi biblioqrafik xidmətin daha səmərəli təşkilinə böyük köməklik göstərir.

Kütləvi kitabxanalarda adətən oxucuların böyük əksəriyyəti tələbələrdir. Onlar tədris prosesində öyrəndikləri məsələlərlə əlaqədar olaraq biblioqrafik mənbələrə müraciət edirlər. Xüsusilə, son vaxtlar onların diyarşünaslıq ədəbiyyatı ilə bağlı sorğuları xeyli artmışdır ki, bu da gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə böyük tə'sir göstərir.

Oxucu sorğularının səmərəli ödənilməsinə biblioqrafik fəaliyyətin subyekti olan biblioqrafların səviyyəsinin də çox böyük



təsiri vardır. Biblioqraf ümumelmi hazırlığa, geniş dünyagörüşünə malik olmalı, öz ixtisas səviyyəsini daim yüksəltməli, yeni ədəbiyyatı izləməli, xidmət etdiyi sahəni, həmin regionun iqtisadi profilini yaxşı bilməli, müasir texniki vasitələrdən istifadə etməyi bacarmalıdır. Eyni zamanda biblioqraf yaxşı yaddaşa malik olmalı, biblioqrafik ehtiyatları, müxtəlif tip kitabxanaların və mə'lumat orqanlarının imkanlarını öyrənməlidir. Soraq-biblioqrafiya xidməti ilə məşğul olan biblioqrafın ən əsas keyfiyyətləri: bir mövzudan digər mövzuya tez keçə bilmək bacarığı, evristik xüsusiyyətlər, oxucu psixologiyasını bilməsi, pedaqoji bacarıq, nəzakətli olmaq, təmənnasız köməyə hazır olmaq və sairədir.

Oxucu kitabxanaya müxtəlif məqsədlərlə (şəxsi təhsil, istehsalat, elmi və s.) müraciət edə bilər. Biblioqrafın kobud, laqeyd münasibəti bütünlükdə oxucuda biblioqrafik xidmət işinə neqativ münasibət doğurar. Buna görə də soraq-biblioqrafiya xidməti pedaqoji cəhətə malikdir.

Soraq-biblioqrafiya xidməti prosesində biblioqraf oxucuya biblioqrafik məlumatın əldə edilməsinə kömək etməklə yanaşı, özü də ondan yeni elmi kəşflər, ədəbiyyat, incəsənət, mədəniyyət sahəsində mühüm hadisələr haqqında məlumatı öyrənərək zənginləşir. Sorğunun mövzusu haqqında oxucudan alınmış maksimum mə'lumatlar axtarışın operativliyini və dəqiqliyinii təmin etmiş olur.

Soraq-biblioqrafiya aparatının hər bir komponentinin tərkibində diyarşünaslıq ədəbiyyatı geniş əks olunsa da diyarşünaslıq kartotekası diyarla bağlı sənədlərin axtarışında başlıca vasitədir. Universal elmi, xüsusi, kütləvi və digər kitabxanalarda bu kartotekanın tərtibinə xüsusi diqqət yetirilir. M.F.Axundov adına Dövlət kitabxanasının diyarşünaslıq və milli biblioqrafiya şö'bəsi tərəfindən tərtib olunan "Azərbaycanşünaslıq" kartotekasının müvafiq oxucu sorğularının yerinə yetirilməsində böyük əhəmiyyəti vardır. Şö'bənin əməkdaşları milli ədəbiyyatın araşdırılıb qeyd olunması, kartoçkaların düzülüşü, kartotekaların redaktəsi və təkmilləşdirilməsi ilə məşğul olurlar. Məhz onların gərgin əməyinin nəticəsində müxtəlif mənbələr araşdırılaraq diyarşünaslıq və ölkəşünaslıq materialları müəyyənləşdirilib, kitabxananın soraq-biblioqrafiya aparatında əks olunur və bunun əsasında oxuculara müxtəlif istiqamətli biblioqrafik xidmət işi həyata keçirilir. Qeyd edək ki, yalnız 1998-ci ildə 34216 adda diyarşünaslıq ədəbiyyatının analitik təsviri aparılmış, 39128 kartoçka düzülmüş, 69 qutu redaktə edilmişdir (3, s. 1).

Sözsüz ki, kartotekaya hər il külli miqdarda yeni kartoçkaların daxil edilməsi ondan istifadəni çətinləşdirir. Eyni zamanda diyarşünaslıq ədəbiyyatının təsnifləşdirilməsi üçün yeni təsnifatın yaradılıb tətbiq edilməsinə də böyük ehtiyac vardır. Bütün bunlar yeni texniki vasitələrin tətbiqini zəruri ehtiyac kimi qarşıya qoyur.

Diyarşünaslıq üzrə biblioqrafik ehtiyatların mühüm hissəsini biblioqrafik vəsaitlər təşkil edir. Çox təəssüf ki, respublikamızda diyarşünaslıq biblioqrafik vəsaitləri bir sistem kimi formalaşmamış, çap olunan vəsaitlər təsadüfi xarakter daşımış, metodiki tələblər baxımından nöqsanlı olmuşdur. Buna görə də respublikamızın ayrı-ayrı bölgələrinə həsr olunmuş diyarşünaslıq göstəricilərinin tərtibinə xüsusi diqqət yetirilməlidir. Bununla bağlı rayon mərkəzi kitabxanalarının da üzərinə böyük vəzifələr düşür. Belə vəsaitlər diyarda həyata keçirilən mühüm elmi, iqtisadi və sosial proqramların üzvü tərkib hissəsi olmaqla yanaşı, gənc nəslin vətənpərvərlik tərbiyəsində də böyük əhəmiyyət kəsb edirlər.

Diyarşünaslıq üzrə kitabxana-biblioqrafiya ehtiyatlarının formalaşması, müvafiq oxucu tələbatlarına uyğun biblioqrafik xidmətin səmərəliliyi, bilavasitə diyarşünaslıq biblioqrafiyasının təşkili səviyyəsindən, onun nəzəri-metodik aspektlərinin işlənmə dərəcəsindən asılıdır.Buna görə də diyarşünaslıq biblioqrafiyasının təşkilati problemlərinə diqqətlə yanaşılmalıdır. Ayrı-ayrı şö'bələrin yerinə yetirdikləri diyarşünaslıq işlərinin həcmi nəzərə alınmaqla, həm kitabxananın daxili strukturlarının, həm də başqa kitabxanalarla fəaliyyətlərinin qarşılıqlı əlaqələndirilməsi genişləndirilməlidir.

Diyarşünaslıq biblioqrafiyasının əhəmiyyətini nəzərə alaraq metodiki mərkəzlər öz fəaliyyətlərini daha da təkmilləşdirməli, müvafiq tə'limatlar, metodiki göstərişlər, məktublar hazırlayıb yerlərə göndərməlidirlər.

Dünya təcrübəsində biblioqrafiyaşünaslıq sahəsində mövcud konsepsiyalar, o cümlədən respublikamızın tarixi, coğrafiyası demoqrafik və sosial xüsusiyyətləri, milli mentaliteti nəzərə alınmaqla diyarşünaslıq biblioqrafiyasının nəzəri və metodiki problemlərinin yenidən işlənməsi, bu sahədə mübahisəli məsələlərin (məsələn, yerli nəşrlər, diyarşünaslıqla sahəvi biblioqrafiyanın əlaqəsi və s.) həlli də qarşıda duran mühüm məsələlərdəndir.

Müasir informasiyalaşdırılmış cəmiyyətdə elmi-texniki informasiyanın elə səmərəli sistemi yaradılır ki, güclü avtomatlaşdırılmış məlumat axtarış sistemləri hər hansı bir informasiyanın çox



asanlıqla əldə edilməsini təmin etmiş olsun. Respublikamızda biblioqrafik işin, o cümlədən diyarşünaslıq biblioqrafiyasının təşkilində məhz bu cəhətdən yanaşılmalıdır.

## ƏDƏBİYYAT

*1.Фокеев В.А. Библиографическое пространство гражданского общества //Библиография. - 2000. - №2 - С. 6-7.*

*2.Мамонтов А.В., Щерба Н.Н. Краеведческая библиография. – М., 1989. С. 15.*

*3. Axundov M.F. Azərbaycan Dövlət Kitabxanasının diyarşünaslıq və milli biblioqrafiya şöbəsinin hesabatı. 1998, s. 1*

***Гаджиева Г.С.***

### *Место краеводческой библиографии в информатизированном обществе*

**Резюме**

*Одним из важных условий в развитии любой нации является оптимизация всех национальных ресурсов, в том числе библиотечно-библиографических ресурсов страны. Происходящие в мировом масштабе процессы интенсификации информационных процессов охватывает так же библиотечно-библиографическую деятельность и тем самым способствует информатизации общества.*

*В данной статье охарактеризованы направления краеведческой библиографии и раскрыты пути ее развития в информатизированном обществе.*

*Arzu VƏLİYEVA*
*Magistrant*

# KİTABXANALARIN ÇAP KATALOQLARI BİBLİOQRAFİK EHTİYATIN ƏSAS TƏRKİB HİSSƏSİ KİMİ *(XIX əsr)*

Azərbaycan biblioqrafiyası bu günə gəlib çatana kimi zəngin və mürəkkəb inkişaf yolu keçmişdir. Dünyada gedən qlobal informasiyalaşdırma prosesi ənənəvi informasiya sisteminə güclü təsir etsə də, hər bir xalqın həyatında ayrı-ayrı tarixi mərhələlərdə informasiyanın, o cümlədən biblioqrafik informasiyanın oynadığı rolun köklü şəkildə tədqiq edilməsi xalqın qan yaddaşının bərpa edilməsi üçün son dərəcə elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

XX yüzillikdə Azərbaycan biblioqrafiyasının tarixi müqayisədə daha əsaslı öyrənilsə də, XIX əsr xalqımızın mənəvi mədəniyyətinin mühüm tərkib hissəsi kimi biblioqrafiya, onun növləri və tipləri ümumi kitab nəşri və kitabxana işi fonunda demək olar ki, öyrənilməmişdir.

Bəhs edilən əsrdə Azərbaycan kitabxana (3) və kitabxanaçılıq işi (4) haqqında bir sıra əsaslı tədqiqat işləri yazılmışdır.

XX əsr Azərbaycanda biblioqrafik fəaliyyət haqqında professor Z.H.Əliyevin, dosent Ə.T.Xələfovun məqalələri istisna olunarsa, bütövlükdə bu problem Azərbaycan biblioqrafiyaşünaslığının xüsusi tədqiqat obyekti olmamışdır.

Aparılan tədqiqatlar göstərir ki, XIX əsr bütövlükdə Azərbaycan xalqının taleyində çox mühüm qol oynamışdır. Təsadüfi deyil ki, M.F.Axundov XIX əsri "Tərəqqi əsri" adlandırmışdır. Bu əsr əslində xalqımızın güneyinə və quzeyinə bölünməsi ilə, onun "... bir həyat tərzindən uzaqlaşaraq başqa, tamamilə yeni həyat və təfəkkür tərzinə yaxınlaşmasından ibarət idi" (5).

Sosial hadisə kimi biblioqrafiyanın tarixinin yeni baxımdan öyrənilməsi, yni zamanda milli-mənəvi dəyərlərimizin daha dolğun



və ətraflı şəkildə öyrənilməsi və onun mahiyyətini açmaq işinə ciddi dəstək ola bilər.

Azərbaycanın şimal hissəsinin Rusiyaya birləşdirilməsi XIX əsr Azərbaycan biblioqrafiyasının tarixi taleyində əsaslı rol oynamışdır. Bu problemin ayrı-ayrı cəhətləri professor Z.H.Əliyevin, dosent Ə.T.Xələfovun, dosent F.A.Bayramovun, dosent N.İ.İsmayılovun əsər və məqalələrində (1) işıqlandırılsa da, XIX əsr Azərbaycan biblioqrafiyasının inkişaf yolu müstəqil tədqiqat obyekti olmamışdır.

Apardığımız araşdırmalar göstərir ki, dünyada ilk biblioqrafik informasiya mənbələri sadədən mürəkkəbə doğru mürəkkəb bir yol keçmiş, onun hər bir yeni forması cəmiyyətin real informasiya tələbatının məhsulu olmuş, biri digərini inkar etməmiş, əksinə zaman keçdikcə mükəmməl formalar kəsb etmişdir. Bu mənbələr kitabxana kataloqları (sonralar çap kataloqları), jurnaliçərisi mənbələr, universal biblioqrafik mənbələr (retrospektiv və cari), nəhayət xüsusi bibilioqrafik informasiya mənbələri kimi formalaşmışdır.

Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi bütün sahələrdə olduğu kimi, biblioqrafik fəaliyyətə də öz təsirini göstərmişdir. A.Bakıxanov, H.Z.Şirvani, M.Kazımbəy, H.Zərdabi, M.C.Topçubaşov, M.M.Nəvvab və onlarla görkəmli ziyalılarımız XIX əsr Azərbaycan bibiloqrafiyasının inkişaf istiqamətini müəyyən edən fikir, mülahizə, biblioqrafik informasiya mənbələrinin müəllifləridir. Məhz həmin aydınlarımızın ənənəsinin XX əsrdə inkişaf etdirilməsi Azərbaycanda biblioqrafik fəaliyyətin əsas inkişaf istiqamətlərindən biridir.

Professor Z.H.Əliyev haqlı olaraq göstərir ki, XIX əsrin ikinci yarısı Azərbaycanda biblioqrafiyanın təkamıl dövrüdür (2). Bu da hər şeydən əvvəl yerli ziyalılarla yanaşı Rusiyanın Azərbaycanın sərvətlərini öyrənməyə başlaması, bu məqsədlə görkəmli rus ziyalılarının Azərbaycanda elmin və maarifin inkişafına, o cümlədən kitab nəşrinə, kitabxana işinə və biblioqrafiyaya müsbət münasibətləri ilə də əlaqədar olmuşdur.

1879-cu ildə Rusiya texniki cəmiyyətinin Bakı şöbəsi yaranır (2). Cəmiyyətin kitabxanası yaradılır və elmi əsərləri nəşr olunur.

XIX əsrdə Azərbaycan cəmiyyətinin informasiya təminatında başqa vasitələrlə yanaşı, çap kataloqları mühüm rol oynamışdır. Bu çap kataloqlarının bir qismi həmin dövrdə mövcud olan kitabxanala-

rın fondunu əks etdirmiş, bununla da onlar bəhz edilən dövrdə kitabxanaların fondunun tarixi baxımından məzmununu öyrənməyə kömək edir, həm də oxucuların biblioqrafik informasiya tələbatının ödənilməsi səviyyəsini müəyyən etməyə imkan verən axtarış funksiyalı biblioqrafik mənbələr kimi diqqəti cəlb edir. Bunlara misal olaraq Rusiya texniki cəmiyyətinin Bakı şöbəsinin kitabxanasının, Bakı sənaye işçilərinin qurultay nümayəndələri kitabxanasının, "Qafqaz" və "Merkuri" cəmiyyətlərinin Bakı şöbəsinin kitabxanasının, Həkimlər cəmiyyətinin kitabxanasının, İctimai Məclis işçilərinin kitabxanasının kataloqlarını qeyd edə bilərik. Bu kataloqların hər biri özünəməxsus təsnifat sxemi əsasında işlənmiş, müvafiq kitabxanının komplektlədirilməsi səviyyəsi haqqında ümumi təsəvvür əldə etməyə imkan verir. Məsələn, İctimai Məclis işçilərinin kitabxanasına həsr olunmuş kataloq 1887-ci ildə məclisin başçısı N.K.Kuklinin tərtibi ilə nəşr olunmuşdur. "Каталог и указатель книгам библиотеки Бакинского общественного собрания" adlanan bu vəsaitin birinci buraxılışında 773 adda əsərin biblioqrafik təsviri 6 şöbədə ümumiləşdirilmişdir. Bu nəşrdə də (1) dini ədəbiyyat birinci verilir və sonra (II) statistikaya, coğrafiyaya, səyahətnaməyə, (III) tarixə, ədəbiyyat tarixinə və incəsənətə, (IV) hüquqşünaslığa, siyasətə və ictimai elmlərə, (V) təbiətşünaslığa, təbabətə, (VI) xalq ədəbiyyatına dair materiallar, o cümlədən (a) külliyyatlar, romanlar, povestlər, hekayələr, oçerklər, (b) dram əks olunur. Kataloq ikinci dəfə 1896-cı ildə çapdan çıxır və bunun vasitəsilə müəyyən etmək olur ki, 10 il ərzində kitabxananın fondu xeyli artmışdır (1878 adda).

Kitabxananın kataloqu 1900-cü ildə üçüncü dəfə çap olunur və 1904-cü ilə kimi hər il əlavələrlə təkrar nəşr edilir.

Fikrimizcə, bu kataloqları həm də XX əsrdə Azərbaycan kitabxanalarının fondunun təsnifləşdirilməsində istifadə olunan mükəmməl təsnifat sxemlərinin sələfləri kimi də qiymətləndirmək olar.

Nəticə olaraq qeyd etmək olar ki, XIX əsrdə Azərbaycanda meydana gələn çap kataloqları o dövrdə biblioqrafik informasiyaya olan elmi, mədəni, iqtisadi və bütövlükdə ictimai tələbatı ödəmək sahəsində mühüm rol oynamış, biblioqrafik informasiya təminatı sisteminin mühüm tərkib hissəsinə çevrilmişdir.



## ƏDƏBİYYAT

*1.Алиев З.Г.Развитие библиографической работы в Азер-байджане (1920-1958 гг.): Автореферат диссертации, представленной на соискание учен. степени канд. пед. наук (по спец. Библиография). – Б., 1963. – 22 с.; Bayramov F.A. A.Bakıxanovun biblioqrafik fəaliyyəti //Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya ser. /Azərbaycan Dövlət Universiteti. – 1971. - № 2. – s. 58-61.; Xələfov Ə.T. XIX əsr Azərbaycan maarifpərvər şair və alimlərinin biblioqrafik fəaliyyəti haqqında //Kitabxanaşünaslıq və biblioqrafiya. – 1998. - № 2. – s. 70-81.; Исмаилов Н.И. Развитие, современное состояние и пути совершенствования региональных библиотечно-библиографических ресурсов по медицине (на материалах Азербайджанской ССР): Автореферат диссертации, представленной на соискание учен. степени канд. наук (по спец. библиография). – Б., 1987. – 17 с.*

*2. Əliyev Z.H. XIX əsrin əvvəllərində Azərbaycanda təbiət elmləri üzrə ədəbiyyatın biblioqrafiyası haqqında //Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya ser. /Azərbaycan Dövlət Universiteti. – 1971. - № 2. – s. 11-17.*

*3.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən. – B., 1986. – 52 s.*

*4.Həsənov H.B. İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi. – B., 1965. – 108 s.; Allahverdiyev B.V. Kitablar haqqında kitab. – B., 1972. – 96 s.*

*5.Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. – s. 1. – B.: Elm, 1981. – s. 7.*

**Велиева А.**

**Печатные каталоги библиотек – как основная часть библиографических ресурсов (XIX век)**

**Резюме**

*Цель статьи изучение роли печатных каталогов XIX века, изданных в Азербайджане, анализ их структуры, методики библиографирования, степени отражения фондов соответствующих библиотек, роли в информационном обеспечении использователей данного периода.*

*Ramiz HƏMİDOV*
*Baş müəllim*

# AZƏRBAYCANIN KƏND YERLƏRİNDƏ KİTAB TİCARƏTİ İŞİ
## *(1980-85-ci illər)*

Sovet hakimiyyəti dövründə kitab ticarətinə ideoloji işin bir sahəsi kimi baxılmışdır. Həmin dövrdə kommunist partiyası və sovet hökuməti kitab ticarətinin genişlənməsinə, inkişafına müntəzəm qayğı göstərirdi. XX əsrin 60-cı illərində Azərittifaqın idarə heyəti tərəfindən yeni kitab evlərinin tikilib istifadəyə verilməsinə, mövcud mağazaların kompleks yenidən qurulmasına, reklam işlərinin əsaslı şəkildə yaxşılaşdırılmasına böyük diqqət verilirdi. Maraqlı faktdır ki, həmin illir fəaliyyət göstərən mağazaların 45%-dən çoxunda ticarət zalının həcmi 150 kvadrat metrdən çox idi. Bu da ticərət, istərsə də kitab təbliği ilə əlaqədar müxtəlif kütləvi tədbirlər keçirmək baxımından çox əlverişlidir. 1980-1985-ci illərdə respublikanın rayonlarında 20 kitab mağazası, o cümlədən 17 kitab evi Azərittifaq tərəyindən tikilib istifadəyə verilmiş, 25 kitab mağazasında kompleks yenidanqurma işləri aparılmışdır. Kitab mağazalarının tikintisi zamanı ucqar dağlıq rayonlarına üstünlük verilmişdir. 1980-ci ildə Azərittifaq sistemi üzrə respublikanın rayonlarında 4 milyon 170 min manat plana qarşı 4 milyon 285,5 min manatlıq kitab satılmışdır. Plan 102,8% yerinə yetirilmişdir. 62 kooperativ təşkilatından 57-sində kitab satışı planı artıqlaması ilə yerinə yetirilib. Planı



yerinə yetirməyən təşkilatlar bunlardır: Yevlax 97,3%, İmişli 99,5%, Qubadlı 85,6%, Kürdəmir 85,9%, Ucar 86,1%. Lap yazşı işləyən rayonlara misal olaraq: İsmayıllını 111,3%, Zaqatalanı 106,7%, Balakəni 108,6%, Kəlbəcəri 122,6%, Laçını 128,2%, Gədəbəyi 107,9% və s. göstərmək olar. 1981-ci ildə Azərbaycanın rayonları üzrə kitab satışı planı 4 milyon 620 min manat olmuş və 101,5% yerinə yetirilmişdir.

1982-ci ildə pərakəndə satış planı 100,1%, topdan satış planı 125,6% yerinə yetirilmişdir. Tədavül xərcləri üzrə 0,43% və ya məbləğ üzrə 19 milyon 100 min manat qənaət edilmişdir. İl ərzində rentabellik 0,17%, əmək məhsuldarlığının artım səviyyəsi 106,7% olmuşdur.

63 kooperativ təşkilatından 47-si və ya 74,6%-i illik kitab satışı planını yerinə yetirib.

1981-ci illə müqayisədə 1982-ci 243 min manatlıq artıq çap məhsulu satılıb. Artım 105,2% təşkil edib. Adambaşına düşən çap məhsulu 6 qəpik artaraq 1 manat 40 qəpik təşkil etmişdir.

Sistem üzrə çap məhsullarının qalığı 1993-cü il yanvarın 1-də normadan 266 milyon manat az olmuşdur ki, bu da 23 günə bərabərdir.

1982-ci ildə Laçın və Zərdab rayonlarında kitab mağazaları tikilib istifadəyə verilmişdir. Bundan başqa, 2 kitab mağazası yeni binaya köçüb, 8 kitab mağazasında kompleks yenidənqurma işləri aparılıb. Rayon kooperativ təşkilatlarına 5 kitab avtomağazası, 3 kitab köşkü verilib.

Həmin il rayon universal mağazalarında kitab satan şöbə və filialların sayı da çoxalıb. Əhalinin kitaba tələbatının öyrənilməsi, kitabın mağazadan kənar və ictimai əsaslarla yayılışı daha da artıb.

80-ci illərin əvvəllərində müntəzəm olaraq baxış müsabiqələr, aylıqlar, ongünlüklər, həftəliklər, kitab bayramları, kitab bazarları, sərgi – satışlar, oxucu konfransları, görüşlər keçirilmişdir. Bu tədbirlər nəticəsində əhali arasında kitabın yayılması xeyli yaxşılaşmışdır.

Bununla belə, 1982-ci ildə bir sıra nöqsanlara da yol verilmişdir. Məsələn, 16 rayon kooperativ təşkilatı kitab satışı planını yerinə yetirməyib – Lerik 76,6%, Cəlilabad 82,2%, Quba 82,9%, Gədəbəy 84,4%, Kürdəmir 86,6%, Dəvəçi 86,8%, Göyçay 87,9%, Qəbələ 88,8%, Akstafa 89,8%, Ağdaş 91,8%, Ağcabədi 93,0%, Ucar 93,5%, Xaçmaz 94,0%, Füzuli 97,7%, həmin il İmişli,

Qubadlı, Astara, Qonaqkənd və Cəfərəbadda kitab mağazaları tikilib istifadəyə verilməli idi. Lakin tikinti planı yerinə yetirilməyib.

Bir sıra sahələr üzrə də görülməli işlər yerinə yetirilməyib. Buna görə də Azərittifaq idarə heyəti 20 aprel 1983-cü il tarixli (protokol №-15, maddə 7) qərarı ilə yaxşı işinə görə kitab ticarəti idarəsinə təşəkkür elan edib və idarəni Azərittifaqın fəxri fərmanı ilə təltif edib.

Bununla yanaşı, qərarda buraxılmış nöqsanlar ciddi tənqid olunmuş və işdə səhlənkarlığa yol vermiş vəzifəli şəxslər və rayon kooperativ təşkilatları tənbeh olunmuşdur.

1983-cü ildə sistem üzrə pərakəndə satış planı 100,7%, topdan satış planı 118,7%, gəlir planı 172,1% yerinə yetirilib, tədavül xərclərinə 0,42% qənaət edilib və ya 21,4 min manat az xərclənib. İl ərzində rentabellik 3,14% artıb.

Bir işçiyə görə əmək məhsuldarlığı 123,1% artıb. Adambaşına düşən kitab satışı 6 qəpik artaraq 1 manat 46 qəpik olmuşdur.

63 rayondan 49-u və ya 77,8%-i illik kitab satışı planını və öhdəliyi yerinə yetirib. 1982-ci illə müqayisədə 1983-cü ildə 299,2 min manatlıq çox çap məhsulu satılıb və artım 105,9% təşkil edib.

Çap məhsullarının dövriyyəsi 1983-cü ildə nisbətən 16 gün sürətlənib. Çap məhsullarının qalığı 01-01-1984-cü il tarixə normadan 629 min manat az olub ki, bu da 47 günə bərabərdir.

1983-cü ildə respublikanın rayonlarında 3 kitab evi tikilib istifadəyə verilib, 2 kitab mağazası açılıb, 1 kitab mağazası daha münasib binaya köçürülüb, 6 kitab mağazasında kompleks yenidənqurma işləri aparılıb.

Rayonlara 4 yeni kitab avtomağazası verilib. Univermaqlarda, ticarət mərkəzlərində, iri kəndlərdə kitab satan şöbələrin, kitab mağazalarının, filialların sayı artırılıb.

Əhalinin kitaba olan tələbatının öyrənilməsi nisbətən yaxşılaşıb.

Bunlara baxmayaraq, 1983-cü ildə 14 rayonda kitab satışı planı yerinə yetirilməyib. Məsələn, Gədəbəy 71,7%, Tovuz 92,2%, Ucar 80,0%, Kəlbəcər 82,2%, Xaçmaz 88,0% və s. planı yerinə yetirməyiblər.

Daha pis haldır ki, Gədəbəy, Kürdəmir rayonları dalbadal 3 il Ucar, Xaçmaz rayonları isə 2 il kitab satışı tapşırığına əməl etməmişlər. 1980-1983-cü illər ərzində 21 rayon əvəzinə 9 rayon da yeni kitab mağazası tikilib istifadəyə verilib. Təkcə 1983-cü ildə



Quba, Qubadlı, Masallı, Daşkəsən rayonlarında, Qonaxkənd və Cəfərabad qəsəbələrində kitab mağazalarının tikilib istifadəyə verilmə planı pozulub.

Həmin illərdə Quba, Şəmkir, Xaçmaz, Cəlilabad, Səlyan, Tovuz rayonlarında bukinist ticarətin təşkili və kitabdəyişdirmə planları yerinə yetirilməyib.

Azərittifaqın İdarə Heyətinin qərarına əsasən kitab mağazalarında dəftər yazı ləvazimatının xüsusi çəkisi ümumi mal qalığının 30%-dən yuxarı olmamalıdır. Lakin 1980-83-cü illərdə, Sabirabad, Saatlı, Zəngilan, Vartaşen, Neftçala, Kürdəmir, Mardakert, Fizuli, Bərdə, Dəvəçi rayonlarında bu qayda pozulmuş və dəftər yazı ləvazimatı çoxluq təşkil etmişdir.

Sistem üzrə çap məhsullarının qalığı normativdən az olduğu halda 19 rayonda - Gədəbəy, Quba, Şəmkir, Daşkəsən, Zəngilan, Qubadlı, Ucar, Fizuli, Xanlar və s. mal ehtiyatı normativdən yuxarı olmuşdur.

Azərittifaqın idarə heyətinin iri kənd mağazalarında, kənd kitabxanalarında, məktəb kooperativlərində kitab satışının həyata keçirilməsi barədə, kitabgəzdiricilərin,. İctimai əsaslarla kitab satanların sayının çoxaldılması barədə qərarı olmasına baxmayaraq, Xaçmaz, Gədəbəy, Kürdəmir, Tovuz, Qubadlı, Ucar, Culfa, Şəmkir, Mirbəşir (Tərtər) rayonlarında bu qərar yerinə yetirilmirdi.

Bu və digər nöqsanların aradan qaldırılması üçün Azərittifaqın İdarə Heyəti 1984-cü ilin aprel ayının 6-da (protokol №7, maddə 7) qərar qəbul etdi.

Qərarda mövcud nöqsanlar qeyd olunur və onların aradan qaldırılması üçün konkret tədbirlər planı işlənib hazırlanmışdı.

1984-cü ildə Azərittifaq sistemi üzrə çap məhsullarının pərakəndə əmtəə dövriyyəsi planı 102, 1%, topdansatış əmtəə dövriyyə planı isə 114, 7% yerinə yetirilmiş, adambaşına kitab satışı il ərzində 12 qəpik artaraq, 1 manat 58 qəpiyə çatmışdır. Bir işçiyə düşən əmək məhsuldarlığı 103, 7% təşkil etmişdir.

59 kooperativ təşkilatdan 45-i və ya 76, 3%-i illik planı və öhdəliyi yerinə yetirmişdir. 1983-cü ilə nisbətən 1984-cü ildə kənd əməkçilərinə 264 milyon 100 min manatlıq çox ədəbiyyat satılmışdır ki, bu da artım etibarı ilə 105,0% təşkil edir.

1984-cü ildə çap məhsullarının dövriyyə sürəti 3 gün artmış 01.01.1985-ci il tarixə sistem üzrə qalıq normativdən 175,0 min manat və ya 12 gün aşağı olmuşdur.

1984-cü ildə bir kitab evi tikilib istifadəyə verilmiş, 3 yeni kitab mağazası açılmış, 8 kitab mağazasında kompleks yenidənqurma işləri aparılmış, kooperativ təşkilatlarına 2 kitab avtomağazası və 10 kitab verilmişdir. Univermaqlarda, ticarət mərkəzlərində və iri kəndlərin gündəlik tələbat malları mağazalarında təşkil edilən kitab satışı şöbələrinin sayı çoxalmışdır.

Əhalinin tələbata olan tələbatının ödənilməsi işi, mağazadan və ictimai əsaslarla kitab yayılışı xeyli yaxşılaşmışdır. Belə ki, müntəzəm olaraq yerlərdə kitab yalıqları, ongünlükləri, sərgi satışlar, kitab bayramları, görüşlər və s. təşkil edilmişdir.

Bununla belə, 1984-cü ildə respublika üzrə 14 kooperativ təşkilatı illik kitab satışı planının yerinə yetirilməsini təmin etməmişdir. Quba üzrə 82,8%, Tovuz üzrə 87,4%, Şəmkir üzrə 96,7%, Kəlbəcər üzrə 77,5%, Zərdab üzrə 82,1% və s.

Dözülməz haldır ki, bu kooperativ təşkilatlarından 7-si yəni, Quba, Tovuz, Sabirabad, Kəlbəcər, Yardımlı, Lerik və Zərdab faktiki kitab satışının həcmini 1983-cü ilə nisbətən 1984-cü ildə xeyli aşağı salmışlar ki, bu da məbləğ etibarı ilə 96, 6 min manat təşkil edir.

Kitab ticarətinin təşkilinə laqeyd münasibətin nəticəsidir ki, Kürdəmir rayonunda 4 il dalbadal, Ucar və Xaçmaz rayonlarında 3 il dalbadal, Tovuz və Kəlbəcər rayonlarında isə 2 il dalbadal çap məhsulları satışı planı yerinə yetirilməmişdir.

1980-84-cü illər arasında respublika üzrə 20 kooperativ təşkilatı plandan geri qalmış, 1984-cü ildə 15 kitab mağazasında idarə və məktəb-yazı ləvazimatının satışı ümumi dövriyyənin 30%-dən çoxunu təşkil etmiş, 20 kooperativ təşkilatında çap məhsullarının qalığı normativdən xeyli artıq olmuşdur.

Adambaşına kitab satışı artmaq əvəzinə 1984-cü ildə Sabirabad RİC-də 23 qəpik, Quba raykoopittifaqı üzrə 19 qəpik, Zərdab üzrə 16 qəpik, Yardımlı RİC üzrə 13 qəpik, Lerik RİC üzrə 6 qəpik, Dəvəçi RSFK üzrə 5 qəpik və Zəngilan RİC üzrə 3 qəpik aşağı düşmüşdür.

Kitab ticarətinin maddi texniki bazası hələ də ləng inkişaf edir. Kitab mağazalarının texniki planı müntəzəm olaraq pozulur, onların istifadəyə verilməsi ildən-ilə keçirilir. 1984-cü ildə tikilib istifadəyə verilməsi planlaşdırılmış 7 mağazadan yalnız 2-si – Qəbələdə və Qubada istifadəyə verilmiş, 3-nün istifadəyə verilməsi isə (Masallı, Şəmkir, Qubadlı) 1985-cü ilə keçirilmişdir. Qazaxda və



Akstafada tikintisi nəzərdə tutulmuş mağazalar isə 1985-ci ilin planından çıxarılmışdır.

Öz imkanları hesabına Göyçayda, Zaqatalada, Ağcabədidə, Qasım İsmayılovda və Fizulidə yeni kitab mağazalarının açılması barədə Azərittifaqın idarə heyətinin tapşırığına əməl edilməmişdir.

Həmçinin Masallı, Qazax, Balakən və Şəmkir rayon kooperativ təşkilatlarının univermaqlarında kitab satışı şöbələri təşkil edilməmişdir.

İri kəndlərin gündəlik tələbat malları mağazalarında kitab satışı şöbələri yaratmaq, pullu kitab gəzdirənləri işə cəlb etmək, məktəb və kitabxanalar vasitəsi ilə kitab satışını genişləndirmək, ictimai əsaslarla kitab yayanların sayını çoxaltmaq haqqında Azərittifaqın idarə heyətinin tapşırıqlarına Quba, Sabirabad, Tovuz, Şəmkir, Kürdəmir, Kəlbəcər, Puşkin, Dəvəçi, Ucar rayon kooperativ təşkilatları tərəfindən yarıtmaz əməl olunub.

Cəbrayıl, Qax, Kəlbəcər, Quba, Qutqaşen, Tovuz, Səfərəliyev və Mərəzə kooperativ təşkilatlarında kitab avtomağazalarından təyinatı üzrə istifadə olunmur.

Bütün bu nöqsanlar 18 mart 1985-ci il tarixdə kitab təbliğini gücləndirmək məqsədilə Azərbaycan KP MK-da keçirilmiş respublika müşavirəsində bir daha qeyd olunmuş və Azərittifaqın İdarə Heyəti 1985-ci ilin aprel ayının 9-da (protokol №10, maddə №7) qərar qəbul etmişdir.

Kitab ticarəti idarəsi 1984-cü ildə gəlir planını yerinə yetirməmişdir.

Tədavül xərcləri üzrə 38,2 min manat artıq xərcə yol verilmiş, dövriyyə əlavəsi keçən ilə nisbətən 61,0 min manat azalmış, rentabellik aşağı düşmüşdür.

1985-ci ildə sistem üzrə pərakəndə satış planı 102,2%, topdansatış planı 117,1%, gəlir planı 117,6% yerinə yetirilmiş, tədavıl xərcinə 0,90% və ya 55 milyon 900 min manat qənaət olunmuşdur. Əmək məhsuldarlığı 114% təşkil etmiş, adam başına kitab satışı 6 qəpik artmış və 1 manat 64 qəpik olunmuşdur.

63 rayon kooperativ təşkilatından 45-i və ya 71,4% illik kitab satışı planını yerinə yetirib. 1984-cü ilə nisbətən 1985-ci ildə 395 milyon min manatlıq çox çap məhsulu satılmış, artım 107,2% olmuşdur.

Ümumiyyətlə, 1980-85-ci illərdə 17 kitab evi tikilib istifadəyə verilmiş, 20 kitab mağazası nisbətən yaxşı binaya

köçürülmüş, 90 kitab mağazasında yenidənqurma işləri aparılmışdır. Rayonlara 16 kitab mağazası, 50 kitab köşkü verilmişdir. O cümlədən, 1985-ci ildə 3 kitab evi, 7 kitab mağazası açılmış, 8 mağazada yenidənqurma işləri aparılmış, rayonlara 2 avtomağaza, 5 pavilyon, 18 köşk verilib.

1980-85-ci illər ərzində 25 rayon təşkilatı kitab satışı tapşırığına əməl etməyib. 5 ildə bu rayonların hesabına 493,4 min manat az çap məhsulu satılıb.

ƏDƏBİYYAT

1. *Azərittifaqın idarə heyətinin illik hesabatları (1980-85).*
2. *Azərittifaqın kitab ticarəti idarəsinin illik hesabatları (1980-85).*

***Гамидов Р.***

***Книготорговое дело в сельской местности Азербайджана в 1980-1985 годах***

**Резюме**

*Краткий статистический отчет о книготорговом деле в сельской местности Азербайджана в 1980-1985 годах. В статье полностью обобщен и охвачен постановление правления Азербайджанского потребсоюза посвещенный книжной торговли сельского населения.*



# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

*Xəlil İSMAYILOV*
*Əliyusif MƏMMƏDOV*

## AZƏRBAYCANIN KİTABXANA MÜTƏXƏSSİSLƏRİ İFLA-nın KONFRANSINDA

Yenidən öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan artıq onlarca beynəlxalq təşkilatlarda və qurumlarda təmsil olunur. Belə təşkilatlarda təmsil olunmaq nəinki respublikamızın beynəlxalq miqyasda tanınmasına kömək edir, həm də ayrı-ayrı sahələrdə qarşılıqlı, faydalı əməkdaşlığın yaradılmasına, birgə layihələrin hazırlanmasına və reallaşdırılmasına, dünya miqyasında qabaqcıl təcrübənin respublikamıza gətirilməsinə yardım edir. Belə faydalı əlaqələrin yaradılmasında xüsusi xidməti olan təşkilatlardan biri də Azərbayjan Kitabxana İşinin İnkişafı Assosiasiyasıdır. (AKİİA) Respublikamızın kitabxana işi və informasiya təminatı sahəsində fəaliyyət göstərən mütəxəsislərini və təşkilatlarını öz sıralarında birləşdirən bu təşkilat 1999-cu ildə yaradılmasına baxmayaraq, az bir zaman ərzində bu sahədə ölkəmizdə aparıcı ijtimai quruma çevrilmişdir. İndi öz sıralarında 400-ə yaxın fərdi üzvü və 6 kollektiv üzvü birləşdirən AKİİA qarşısına ölkəmizdə kitabxana işinin mövjyd vəziyyətini təhlil edərək onun perspektiv inkişafı barədə tövsiyələr hazırlamaq, həm yerli mütəxəsisslərin bilik və bajarığını, həm də digər ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə ölkəmizdə kitabxana işi sahəsində əhəmiyyətli texniki və texnoloci irəliləyişə, bu sahədə demokratik islahatların aparılmasına, respublikamızın hər bir vətəndaşının ölkəmizin kitabxana-informasiya ehtiyatlarından səmərəli istifadə etmə imkanına nail olmaq,

kitabxanaçı-biblioqraf peşəsinin nüfuzunu yüksəltmək, bu sahədə kadr ehtiyatlarından səmərəli istifadə etmək, istehsalatda çalışın mütəxəsislərin fasiləsiz təhsilini təşkil etmək və s. bu kimi vəzifələr qoyur. Bu işləri AKİİA-ya respublikamızın bir çox aparıjı kitabxanaları və mütəxəssisləri, eləjə də digər ölkələrdəki həmkarları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirir. Heç də təsadüfi deyildir ki, kitabxana işi sahəsində dünyanın ən böyük təşkilatı - Kitabxana İnformasiya Müəsisələrinin Beynəlxalq Federasiyası (İFLA) 2000-ci ildə AKİİA-nı öz sıralarına həqiqi üzv kimi qəbul etmiş və ona öz Şurasında 8 səslə səsvermə hüququ vermişdir.

Dünyada kitabxana işini əlaqələndirən, bu sahənin inkişafında böyük xidmətləri olan İFLA hər il illik konfrans keçirir. Dünyanın demək olar ki, bütün ölkələrinin kitabxana təşkilatlarının və informasiya xidməti ilə məşğul olan bir sıra digər qurumların iiştirakı ilə keçirilən bu forum hər il dünyanın bir ölkəsində keçirilir və burada həmin fəaliyyət sahəsinin ən aktual məsələləri müzakirə edilir.

Bu il İFLA-nın növbəti, 67-ci Konfransı avqust ayının 15-dən 25-dək ABŞ-ın Boston şəhərində keçirilmişdir.

Konfransa dünya kitabxana ictimaiyyətini təmsil edən 149 ölkədən gəlmiş 5530 nümayəndə və 2000-ə yaxın digər iştirakçı qatılmışdı ki, bu da İFLA-nın indiyə qədər keçirdiyi ən böyük tədbir olmuşdur.

Azərbayjanı AKİİA-nın prezidenti, Azərbayjan nümayəndə heyətinin başçısı, BDU-nun Kitabxanaçılıq fakültəsinin dekanı dos. X.İsmayılov, AKİİA-nın üzvləri Ə.M.Məmmədov və Ş.Xudiyeva təmsil edirdi. Bu nümayəndə heyəti İFLA tədbirlərində respublikamızı təmsil edən ilk səlahiyyətli nümayəndə heyəti olmuşdur. Azərbayjan mütəxəsislərinin bu tədbirdə iştirakı Amerikan Kitabxanalar Asosiasiyasının (ALA) və ABŞ hökumətinin dəstəyi sahəsində mümkün oldu.

İFLA-nın bu ilki konfransının qayəsi "Kitabxanalar və kitabxanaçılar: bilik erasında fərqlərin müəyyən edilməsi" olmuşdur. Həmin qayə ilə əlaqədar olaraq konfransın əsas mözuları aşağıdakılar olmuşdur:

- Bilik erasında kitabxanaçıların liderlik rolunun inkişaf etdirilməsi;
- Məkan və zaman boyu öyrənmənin təmin edilməsi;
- Bilik erasında informasiya və texnologiyaların idarə edilməsi;



- Tərəfdaşlığın möhkəmləndirilməsi;

Bu zaman kitabxanaların dövlət strukturları və sənaye ilə, elmi-tədqiqat müəssisələri ilə əlaqələrin genişləndirilməsinə, uşaq və gənclərə xidmətdə, həyat keyfiyyətinin yüksəldilməsində kitabxanaların rolunun artırılmasına xüsusi önəm verilməsi nəzərdə tutulurdu.

Konfrans iştirakçılırının sərənjamına Amerikanın yüksək intellektual və maliyyə potensialına, qədim ənənələrə və yüksək mədəni səviyyəyə malik Massaçusets ştatının paytaxtı Bostonun ən böyük və möhtəşəm binalarından biri "Kənvenşənəl Sentr" verilmişdi və burada məhsuldar iş üçün bütün şərait yaraldılmışdı.

Konfrans müddətində Azərbaycanın nümayəndələri sırasına hal-hazırda ABŞ-ın İllinoys ştatında kitabxana və informasiya elmləri üzrə doktoranturada təhsil alan AKİİA-nın vitse-prezidenti Müçgan Nəzərova da qatılmışdı.

Azərbayjan nümayəndə heyəti İFLA-nın şurasında və konfransın bir sıra bölmələrinin işində fəal iştirak etdi. Bu zaman keçirilən seminarlarda oxunan mühazirələrdə mövzu ilə əlaqədar məhsuldar fikir mübadiləsi aparıldı, materiallar götürüldü. Bu tədbirlər, xüsusən də ayrı-ayrı ölkələrdən olan müvafiq təşkilatların nümayəndələri ilə çox sayda görüşlər bizə xeyli yeni, maraqlı məlumat əldə etməyə, görüş dairəmizi genişləndirməyə imkan verdi.

"Kitabxana-informasiya təhsil sferasında genişlənmə", "Səyyar kitabxanalar", "Kitabxana və ijtimi əlaqələr" mövzusunda seminarlar, "Fasiləsiz təhsil", " Kitabxana assosiasiyalarının idarə olunması" mövzusunda dəyirmi masa və müzakirələr Azərbaycan nümayəndə heyətinin xüsusi marağına səbəb oldu.

AKİİA-nın təmsilçilərinin iştirak etdiyi digər maraqlı tədbir YUNESKO-nun məsul işçisi Abid Əziz "Yeni "hamı üçün informasiya" proqramı" mövzusunda mühazirədə də iştirak oldu. Burada toxunan məsələlər ətrafında Azərbayjan nümayəndələri suallar verdilər. Mühazirədən sonra AKİİA-nın nümayəndələrinin Abid Əzizlə qısa söhbəti oldu ki, burada hər iki tərəfi maraqlandıran məsələlər müzakirə edildi.

Azərbayjan nümayəndə heyəti kitabxana işinin ayrı-ayrı problemlərinin həll edilməsi sahəsində digər ölkələrdən olan həmkarlarının təjrübəsinə böyük maraq göstərirdi. Belə təjrübə mübadiləsi və müzakirələr təkjə Konfransın dəyirmi masaları

çərçivəsində deyil ayrıja görüşlər zamanı da aparılırdı. Belə görüş və müzakirlərdən Şotlandiya, Almaniya, Rusiya, Latviya, ABŞ nümayəndə heyətləri ilə aparılan görüşlər xüsusi maraq kəsb etmişdir.

Məlumdur ki, Boston ABŞ-ın ən iri mədəniyyət, elm, texnologiya, təhsil mərkəzlərindən biridir. Bütün dünyada məşhur olan Harvard Universiteti, Massaçusets Texnologiya İnstitutu, Boston Universiteti, ABŞ-ın bir çox nüfuzlu qəzetlərinin "Boston Qloub", "Krisçens Sayens monitor" və s. redaksiyaları burada yerləşir. Konfransın proqramının xüsusi bəndi kimi həmin universitetlərə, onların kitabxanalarına gedişlər də çox maraqlı oldu. Bu zaman numayəndə heyəti burada mövcud olan kitabxanalarda işin təşkili, planlaşdırılması, maliyyələşdirmə, xidmət, kadr təminatı və s. bu kimi məsələlərlə yaxından maraqlandı.

Digər əhəmiyyətli görüşlər 140 yaşı olan və ABŞ-ın ən zəngin ictimai kitabxanalarından biri olan Boston İcimai Kitabxanaına oldu. Kitabxananın zəngin fondu, ən müxtəlif oxuju qrupları üçün nəzərdə tutulmuş oxu zalları, ən yeni avadanlıqlarla təchiz edilmiş texnoloci bölmələri, əzəmətli görünüüşə və zəngin interyerə malik böyük binası bizdə gözəl təəssürat yaratdı. Bizim diqqətimizi xüsusi cəlb edən cəhətlər isə kitabxanada hökm sürən işgüzar mühit, səliqə-səhman, yüksək intizam, oxuculara göstərilən xüsusi diqqət oldu.

Amerikada kitabxanaçılıq təhsili, bu sahədə kadr hazırlığı məsələlərini öyrənmək üçün Bostonda yerləşən ABŞ-ın Yeni İngiltərə (ölkənin Şimali-Şərqi) regionunun ən əhəmiyyətli kitabxanaçılıq təhsil muəssisəsi olan Simons kolleci Azərbaycan nümayəndə heyətinə xüsusi təsir bağışladı. Bura müxtəlif sahələrdə bakalavr diplomu olan mütəxəsislər qəbul olunur və onlar kitabxana-informasiya fəaliyyəti üzrə bir sıra ixtisaslar əldə edərək magistr dərəjəsi ilə kolleci bitirirlər. Kollejdə tədris prosesinin xüsusiyyətləri Kitabxanaçılıq fakültəsinin dekanı kimi AKİİA-nın prezidenti X.İ.İsmayılovun xüsusi marağına səbəb oldu və o kollecin əməkdaşlarına bu barədə bir çox suallar verdi. Məlum oldu ki, ABŞ-dakı kitabxanalarda 1-2 tədris müəssisəsindən başqa heç bir yerdə bakalavr pilləsi üzrə kitabxanaçı hazırlanmır və kitabxanaçı-biblioqraf ixtisası ilə bağlı vəzifələrə yalnız bu sahə üzrə diplomu olan mütəxəsislər qəbul edilirlər. Bu da ölkədə həmin peşəyə verilən yüksək qiymətdən və peşənin nüfuzundan irəli gəlir.



Nümayəndə heyəti konfransda olduğu müddətdə daim Amerika kitabxanaçılarının, xüsusən də Amerikan Kitabxanaçılar Assosisiyasının (ALA) daim diqqət və qayğısı ilə əhatə olunmuşdur. ALA-nın baş ofisinin əməkdaşları öz söhbətlərində dəfələrlə Azərbaycanda kitabxana işinin daha da inkişaf etməsində, bu sahədə demokratik prinsiplərin, vətəndaşların azad informasiya almaq hüququnun bərqərar olmasında maraqlı olduqlarını ifadə edirdilər. Bu işdə ALA Azərbaycan və Gürcüstan Kitabxanaçılar Assosiasiyalarının əməkdaşlarına xüsusi diqqət yetirirlər. Məhz bu səbəbdəndə ALA-nın təşəbbüsü ilə konfrans müddətində Cənubi Qafqaz Kitabxanaçı Assosiasiyaları əməkdaşlığı mövzusunda xüsusi seminar keçirildi. Seminarda çıxış edən AKİİA-nın prezidenti X.İ.İsmayılov hiss olunan fəallığı vurğulamaqla yanaşı, bu sahədə xüsusən də Azərbaycanda hələ çox iş görülməli olduğunu qeyd etdi. O, ayrıca olaraq Azərbaycanda kitabxana işinin müasir tələblərə uyğun yenidən qurulması üçün ALA-nın xüsusi qayğı və diqqət göstərməsini qeyd etdi və ALA-nın bütün üzvlərinə və ilk növbədə onun rəhbərliyinə öz təşəkkürünü ifadə etdi.

AKİİA-nın nümayəndə heyətinin İFLA-nın 68-ji konfransı keçiriləjək yerin ev sahibləri və təşkilatçıları olan Şotlandiya Kitabxanaçılar Assosiasiyasının üzvləri ilə də görüşləri maraqlı oldu. Söhbət əsnasında şotland və azəri xalqlarının bir çox sahələrdə, sənaye, maliyyə xüsusən də neft istehsalı sahəsində sıx əlaqələri olduğu qeyd edildi və belə əlaqələrin kitabxana işi sahəsində də yaradılması zərurəti vurğulandı. Şotlond həmkarlar AKİİA-nın prezidentinə İFLA-nın 68-ci konfransında Şotlandiyanın Qlazqo şəhərində görüşəjəklərinə ümid etdiklərini bildirdilər.

AKİİA-nın nümayəndə heyəti Bostonda olduğu dövrdə bir sıra digər görüşlər də keçirdi ki, bunlardan ən yaddaqalanı həmin şəhərdə yaşayan azəri tələbələri ilə görüşlər oldu. Müxtəlif mübadilə proqramları üzrə ABŞ-a gəlmiş həmin tələbələr xüsusən də Bostonda Bakı Dövlət Universitetini, Azərbaycan kitabxanaçılarını təmsil edən şəxsləri görməkdə qürur duyduqlarını bildirdilər. Öz növbəsində X.İ.ismayılov onlara ABŞ-da oxuduqları müddətdə biliklərə dərindən yiyələnməyi, Azərbaycanın adını uca tutmağı və Vətənə yüksək səviyyəli mütəxəssislər kimi qayıtmağı tövsiyə etdi.

ABŞ səfəri dövründə AKİİA-nın nümayəndə heyəti ABŞ-ın ən böyük şəhəri, dünyanın ən böyük maliyyə və işgüzar fəaliyyət mərkəzlərindən biri olan Nyu-Yorka da səyahət etdi, bu şəhərin

görməli yerləri ilə tanış oldu. Nyu-Yorkun məşhur göydələnləri, Hudzon üzərində ucalan əzəmətli körpülər insan zəkasının gücünə heyrət doğurur. O günlər Nyu-Yorkun məşhur Beynəlxalq Ticarət Mərkəzinin qoşa binaları hələ salamat idi və şəhərin mavi səması fonunda əzəmətlə ujalırdı. Yeri gəlmişkən, AKİİA-nın nümayəndə heyəti 11 sentyabr faciəsi münasibətilə təəssüfünü və kədərləndiyini bildirir və amerikalı həmkarlarına bu sətirlər vasitəsilə bir daha bu böyük xalqın dərdlərinə şərik olduğunu ifadə edir.

Yekun olaraq bir daha qeyd etmək istərdik ki, AKİİA-nın nümayəndə heyətinin İFLA-nın 67-ci konfransınd və şurasında iştirakı Assosiasçiyanın həyatında əlamətdar bir hadisə oldu. Bu konfrans zamanı əldə edilmiş məlumatlar, öyrənilmiş təcrüğə, dünyanın bir çox ölkələrindən gəlmiş həmkarlarla yaradılmış əlaqələr şübhəsiz ki, respublikamızda kitabxana işinin inkişafina öz müsbət təsirini göstərəcəkdir.

***Исмаилов Х.И.***
***Мамедов А.М.***

***Азербайджанские библиотечные специалисты представляют республику на 67-ой Конференции ИФЛА***

**РЕЗЮМЕ**


*Являясь самой представительной международной организацией библиотечных работников, ИФЛА ежегодно проводит конференции, где обсуждаются насущные проблемы библиотечной деятельности. Несмотря на то, что библиотечные работники Азербайджана участвовали на прошлых Конференциях ИФЛА, эти участники приглашались не как представители библиотечных Ассоциаций, а как гости конференции.*

*Впервые в истории Азербайджана, представители библиотечной общественной организации в лице Ассоциация Развития Библиотечного дела в Азербайджане (АКИИА) участвовали как полноправные участники с правом голоса на конференции ИФЛА. В 2001-ом году Ежегодная Конференция с Совет ИФЛА состоялась в городе Бостоне, США. На этой конференции участвовали президент АКИИА, декан библиотечного факультета БГУ, доc. Х.И.Исмаилов, члены АКИИА, преподаватель библиотечного факультета БГУ А.М.Мамедов, директор Научной библиотеки Университета Хазар Ш.Худиева.*





*В данной статье подробно насмотрено участие делегации АКИИА в 67-ой Конференции ИФЛА, проведенные в рамках этой Конференции мероприятия. Особенное внимание было удалено, его семинарам и дисскуссиям, где принимали активное участие делегаты из Азербайджана.*

*Важное значение имело посещение представители Азербайджана ведущих библиотек Бостона – Бостонской публичной библиотеки, библиотек всемирно известных учебных заведений – Гарвардского Университета, Массакусетского технологического института, где состоялось интересный обмен мнением между нашими и американскими специалистами.*

*Для Азербайджанских специалистов большое значение имело посещение крупного учебного заведения – Симмонс Колледжа, где готовятся библиотечно-информационные специалисты. Имея богатые традиции, отличную материально-техническую базу колледж готовит специалистов по всему спектру библиотечно-библиографической и информационной профессии.*

*В целом, участие азербайджанской делегации в работе 67-ой Конференции ИФЛА стало важным событием для библиотечной общественности республики и открыло новые перспективы для развития библиотечной деятельности.*

*Abuzər Alı oğlu Xələfov - BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycanın əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti;*

*Xəlil İsmayıl oğlu İsmayılov – BDU-nun kitabxanaçılıq-informasifa fakültəsinin dekanı, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti, pedaqoji elmlər namizədi, dosent;*

*Tacəddin Fərhad oğlu Quliyev - BDU-nun kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent;*

*Rasim Əhməd oğlu Kazımov – BDU-nun kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi;*

*Əli Musa oğlu Rüstəmov – BDU-nun kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi;*

*Aşur Müseyib oğlu Əliyev - BDU-nun kitabxana fondu və kataloqların təşkili kafedrasının baş müəllimi, tarix elmləri namizədi;*

*Akif Əmiraslan oğlu Cəfərov - BDU-nun kitabxanaşünaslıq kafedrasının baş müəllimi;*

*Knyaz İlyas oğlu Aslan - BDU-nun kitabxanaşünaslıq kafedrasının baş müəllimi;*

*Sənubər Mikayıl qızı Mustafayeva - BDU-nun kitabxana fondu və kataloqların təşkili kafedrasının baş müəllimi;*

*Səfurə Cəlal qızı Hacıyeva - BDU-nun kitabxana fondu və kataloqların təşkili laboratoriyasının müdiri;*

*Ulduz İltifat qızı Hacıyeva - BDU-nun kitabxana fondu və kataloqların təşkili kafedrasının baş laborantı;*

*Hicran Oqtay qızı İsmayılova - BDU-nun kitabxanaşünaslıq kafedrasının baş laborantı;*

*Əşrəf Teymur oğlu Xələfov – BDU-nun biblioqrafiyaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi;*

*Qəmzə Söhbət qızı Hacıyeva - BDU-nun biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi;*

*Arzu Kazım qızı Vəliyeva - BDU-nun biblioqrafiyaşünaslıq kafedrasının magistrantı;*

*Ramiz Hacıbala oğlu Həmidov – BDU-nun kitabşünaslıq və nəşriyyat işi kafedrasının baş müəllimi;*

*Əliyusif Məhəmməd Məmmədov - BDU-nun biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi.*

| | |
|---|---|
| *Nəşriyyatın direktoru* | Balakişi AĞAYEV |
| *Mətbəənin müdiri* | Ələs QASIMOV |
| *Bədii redaktor* | Mahir SÜLEYMANOV |
| *Bilgisayar tərtibçisi* | Dürdanə ABİYEVA |
| *Bilgisayar yığıcısı* | Maisə RƏHİMOVA |
| *Korrektoru* | Vahid ÖMƏROV |

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

Yığılmağa verilmişdir. 15. 11. 2001.
Çapa imzalanmışdır: 25.12.2001
Kağız formatı: 60x84 1/16.
Fiziki ç.v.8.
Sayı 200.
Qiymәti müqavilə ilə.

*Ünvan: 370148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*